Xalqın qəzeti!

# Xalq qəzeti

№ 15 (30984) 27 yanvar 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan–İsrail çoxtərəfli əməkdaşlığında yeni mərhələ

## Prezident İlham Əliyev İsrail Dövlətinin xarici işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da İsrail Dövlətinin xarici işlər naziri Gideon Saarı qəbul edib.**

Söhbət zamanı bir neçə gün əvvəl Davosda Azərbaycan və İsrail prezidentlərinin görüşü məmnunluqla xatırlandı, həmin görüş əsnasında ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirə olunduğu bildirildi.

Ölkələrimiz arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulandı, kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, həmçinin süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edildi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunuldu.

Eyni zamanda, hökumətlərarası komissiyanın rolu qeyd edilərək, bu yaxınlarda komissiyanın növbəti iclasının keçirildiyi vurğulandı.

Gideon Saar onu bu səfərdə böyük biznes və işgüzar dairələrin nümayəndələrinin müşayiət etdiyini deyərək, səfər çərçivəsində keçiriləcək Azərbaycan–İsrail biznes-forumunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafına töhfə verəcəyini qeyd etdi. O, Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## Qlobal qeyri-müəyyənlik fonunda Azərbaycan iqtisadiyyatının üstünlükləri



**Son illərdə qlobal iqtisadi sistem özünün dərin struktur transformasiyasından keçir. Ənənəvi artım mənbələri zəifləyir, qlobal ticarət əvvəlki dinamikliyini itirir, kapital axınları isə getdikcə daha selektiv və riskə həssas xarakter alır. Beynəlxalq Valyuta Fondunun (BVF) son "Dünya İqtisadi İcmalı"nda bu mərhələ "uzunmüddətli aşağı artım – yüksək qeyri-müəyyənlik" kimi xarakterizə olunur. Geoiqtisadi fraqmentasiya, texnoloji keçidlər və yüksək faizlər dünya iqtisadiyyatının həm tələb, həm də təklif tərəfini eyni vaxtda məhdudlaşdırır.**

Bu mərhələdə iqtisadi debatın mərkəzi dəyişib: məsələ hansı sürətlə böyüməkdən çox, artımı dayanıqlı hala gətirməyi, qeyri-müəyyənlik şəraitində sabit qalmağı və dəyişiklikləri itki vermədən idarə etməyi bacarmaqdır. Belə qlobal qeyri-müəyyənlik mühitində Azərbaycan üçün əsas üstünlük resurs gəlirlərinin risklərə qarşı "sabitlik kapitalına" çevrilməsini təmin edən strateji idarəetmə modelidir. Prezident İlham Əliyevin iqtisadi baxışı məhz bu məntiq üzərində qurulub: makroiqtisadi sabitlik və fiskal "bufer"lər qorunur, paralel olaraq qeyri-neft sektorunda məhsuldarlıq və ixrac potensialı mərhələli genişlənir. Makroiqtisadi sabitlik beynəlxalq reytinq agentlikləri tərəfindən də təsdiqlənir: Azərbaycanın suveren kredit reytinqi sabit proqnozla qorunur və ölkə qlobal qeyri-müəyyənlik şəraitində etibarlı ölkə kimi qiymətləndirilir. Nəticədə, iqtisadi siyasət xarici şoklara dayanıqlıq trayektoriyası yaradır.

*(ardı 7-ci səhifədə)*

AIdMD
Because Every Second Matters.

## Klinik təcrübədə süni intellekt



Səhifə ⇨ 10

## Davosdan sonrakı dünya



Səhifə ⇨ 4

## Vaşinqton–Bakı tərəfdaşlığında strateji yön



Səhifə ⇨ 4

## Ortaq maraqlara əsaslanan əməkdaşlıq



Səhifə ⇨ 5

## Bəhreyn Azərbaycanın Yaxın Şərqə açılan yeni qapısıdır



Səhifə ⇨ 5

## Aİ-nin "tərəfdaşlıq" modeli sual altında



Səhifə ⇨ 6

## Azərbaycanın enerjisi, İsrailin texnologiyası



Səhifə ⇨ 8

## KTMT-nin Ermənistan sınağı



Səhifə ⇨ 3

## Amerika Birləşmiş Ştatları ilə iqtisadi əməkdaşlığın hədəfləri



Səhifə ⇨ 8

## Nəhəng dövlətlərin borcu da böyükdür



Səhifə ⇨ 15

## "Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə"nin təsdiqi və "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Elektron Rəqabət İnformasiya Sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi:

2.1. Elektron Rəqabət İnformasiya Sisteminin (bundan sonra – ERİS) aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə ERİS-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və "Fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin dövlət reyestri"nə daxil edilməsini və dövlət qeydiyyatının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4.** "Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 iyul tarixli 133 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 792) 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"6. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 yanvar 2026-cı il**

## Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddə 1359; 2025, № 4 (I kitab), maddə 330) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 15-ci hissəsinin birinci cümləsində "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 yanvar 2026-cı il**

## "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

3.1. "Rəqəmsal dövlət maliyyəsi" informasiya sisteminin (bundan sonra – RDMİS) formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi üçün zəruri tədbirlər görsün;

3.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə RDMİS-in Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə RDMİS-in "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 4-cü hissəsində qeyd olunan məlumatların ilkin mənbəyini formalaşdıran dövlət qurumları ilə birlikdə həmin məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə üç ay müddətində zəruri tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 yanvar 2026-cı il**

# Milli Məclisin sədri Bəhreyn Kralı ilə görüşüb



**Milli Məclisin sədri Sahibə Qafarova Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin Kralı Həməd bin İsa Al Xəlifə ilə görüşüb.**

Görüşdə Milli Məclisin sədri Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Bəhreyn Kralına çatdırıb. Bəhreyn Kralı Həməd bin İsa Al Xəlifə onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Bəhreyn Kralı görüşdə Azərbaycanın inkişafı, həmçinin ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsinin əhəmiyyəti ilə bağlı fikirlərini bildirib.

Söhbət zamanı Sahibə Qafarova Azərbaycan-Bəhreyn münasibətlərinin dostluq, qarşılıqlı etimad və hörmət üzərində qurulduğunu ifadə edərək, ölkələrimiz arasında mövcud olan siyasi əlaqələrin digər sahələrdə, o cümlədən iqtisadi, investisiya, turizm sahələrində geniş əməkdaşlıq imkanları yaratdığını bildirib. O, bu il Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladıb.

S.Qafarova bu səfərin Azərbaycan Milli Məclisi sədrinin Bəhreyn Krallığına ilk rəsmi səfəri olduğunu qeyd edərək, parlament sədrlərinin, o cümlədən deputatların qarşılıqlı səfərlərinin və sıx təmasların qanunvericilik orqanları arasında əlaqələrin daha da dərinləşməsinə töhfə verdiyini vurğulayıb.

*

**Milli Məclisin sədri Sahibə Qafarova Bəhreyn Krallığına işgüzar səfəri çərçivəsində BƏƏ-nin Federal Milli Şurasının sədr müavini Tariq Humaid Al Tayer ilə görüşüb.**

Görüşdə iki ölkə liderlərinin rəhbərliyi ilə bütün istiqamətlər üzrə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş əlaqələrin uğurla inkişaf etdiyi qeyd olunub, parlamentlərin fəaliyyəti və verdiyi töhfələr xüsusi vurğulanıb.

Söhbət zamanı beynəlxalq təşkilatlar, o cümlədən APA çərçivəsində əməkdaşlığın yüksək səviyyədə olmasından razılıq ifadə olunub. Görüşdə Sahibə Qafarova Milli Məclisin APA-ya ikiillik sədrliyi dövründə BƏƏ parlamentinin nümayəndə heyətinin göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib, APA-nın parlamentlərarası əlaqələrin genişləndirilməsi üçün ümumi və səmərəli platforma olduğunu vurğulayıb.

*

**Milli Məclisin sədri Sahibə Qafarova yanvarın 26-da Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında çıxış edib.**

Sahibə Qafarova çıxışında 2024-cü ilin fevralında Bakıda keçirilmiş 14-cü plenar sessiyada Azərbaycan Milli Məclisinin APA-ya sədrliyi öz üzərinə götürdüyünü xatırladıb. O vurğulayıb ki, bu il - APA-nın yaradılmasının 20-ci ildönümünün qeyd edildiyi bir məqamda Assambleya artıq konstruktiv dialoq və həmrəylik üçün mühüm çoxtərəfli təsisata çevrilib.

Son iki ildə görülən işlər barədə məlumat verən S.Qafarova Azərbaycanın sədrliyi dövründə institusional inkişaf məsələlərinə xüsusi diqqət yetirildiyini, Büro iclaslarının yenidən keçirilməyə başlandığını, təşkilatın tərkibinin genişləndiyini qeyd edib.

Çıxışında bölgəmizin 2026-cı ildə ev sahibliyi edəcəyi digər mühüm hadisənin - bu ilin mayında Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının əhəmiyyətini vurğulayan parlamentin sədri Sahibə Qafarova davamlı şəhərsalmanın qlobal inkişafın gündəliyi ilə sıx əlaqəli olduğunu deyib. O, APA-ya üzv olan bütün ölkələri bu Forumda fəal iştiraka dəvət edib.

APA-da sədrlik rəsmi olaraq Bəhreyn Krallığının Nümayəndələr Şurasına təhvil verilib.

***XQ***

## Avstraliya İttifaqının General-Qubernatoru Zati-aliləri xanım Samanta Mostinə

**Hörmətli xanım General-Qubernator!**

Avstraliya İttifaqının milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Avstraliya arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq ruhunda inkişafı, qarşılıqlı faydalı əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 yanvar 2026-cı il**

## Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 939 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 804 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının Nizamnaməsi"nin 6.15-ci bəndinə "diplom" sözündən sonra ", həmçinin döş nişanı" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 yanvar 2026-cı il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 25** **22 yanvar 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı paylarının (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 24 fevral tarixli 46 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 207) ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı paylarının (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısı"nda dəyişiklik təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2026-cı ilin fevral ayında vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>**Eyyubov Yaqub Abdulla oğlu** | **2** |
| **Baş nazirin müavini**<br>**Mustafayev Şahin Abdulla oğlu** | **3** |
| **Baş nazirin müavini**<br>**Şərifov Samir Rauf oğlu** | **4** |
| **Aparatın rəhbəri**<br>**Məmmədov Rüfət Tofiq oğlu** | **5** |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>**Həsənova Sevinc Telman qızı** | **6** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>**Rüstəmli Ruslan Rüstəm oğlu** | **27** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>**Paşayev Zakir İlqar oğlu** | **10, 24** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri**<br>**Qasımlı Xalid Akif oğlu** | **11, 25** |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>**Rəhimov Niyazi Süleyman oğlu** | **12, 26** |
| **Humanitar məsələlər şöbəsinin müdiri**<br>**Həbibbəyli Ərəstü İsa oğlu** | **13** |
| **Sənaye və energetika şöbəsinin müdiri**<br>**Hacızadə Elşən Mahmud oğlu** | **16** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>**Qasımov Lətif Cəfər oğlu** | **17** |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>**Məcidov İlkin Sabir oğlu** | **18** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>**Mustafayev Feyruz Rəvayət oğlu** | **19** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>**Pənahov Musa Sədi oğlu** | **20** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | **9, 23** |

**Qeyd:** Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar

**Ünvan:** Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.

Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.

Qəbul saat 14:00-dan başlayır.

**Əlaqə üçün:** (012)492-19-23, (012)492-88-96.

## Azərbaycan–İsrail diplomatik müzakirəsi



**Yanvarın 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan İsrail Dövlətinin xarici işlər naziri Gideon Saar ilə görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Görüşlər zamanı Azərbaycan-İsrail münasibətlərinin ikitərəfli və çoxtərəfli əməkdaşlıq istiqamətləri üzrə mövcud vəziyyəti və inkişaf perspektivləri, eləcə də regional vəziyyət müzakirə olunub. Qarşılıqlı səfərlərin dövlətlərarası münasibətlərin qarşılıqlı etimada və ortaq maraqlara əsaslanan strateji tərəfdaşlıq xarakteri daşıdığı vurğulanıb.

İqtisadi əməkdaşlığın ikitərəfli əlaqələrin mühüm sütunlarından biri olduğu qeyd edilib. Enerji, ticarət, investisiyalar, turizm, nəqliyyat-logistika, yüksək texnologiyalar, müdafiə və təhlükəsizlik, yaşıl enerji, tibb və əczaçılıq sahələrində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcud olduğu bildirilib. Bu çərçivədə Azərbaycan Respublikası Hökuməti ilə İsrail Dövləti Hökuməti arasında Birgə Komissiyanın rolu xüsusi vurğulanıb.

Humanitar sahədə əməkdaşlığın, xalqlarımız arasında tarixi bağların, Azərbaycanda çoxəsrlik yəhudi, İsraildə isə Azərbaycan icmasının əlaqələrimizin inkişafına verdiyi töhfə vurğulanıb.

Beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Qəzza zolağında vəziyyət, Yaxın Şərqdə sülh və sabitlik səyləri, eləcə də Cənubi Qafqazda postmünaqişə dövründə normallaşma gündəliyi müzakirə olunub. Görüşlərdən sonra birgə mətbuat konfransı təşkil edilib, nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış ediblər

*XQ*

## YAP Sədrinin müavini Vyetnamda

**Yanvarın 26-da Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Vyetnam Sosialist Respublikasına səfəri çərçivəsində Vyetnam Kommunist Partiyasının Baş katibi To Lam ilə görüşüb.**



Görüşdə Azərbaycan-Vyetnam münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanaraq xalqlarımız arasındakı dostluq əlaqələrinin hələ SSRİ dönəmində formalaşdığı, Vyetnam xalqının öndəri Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Ümummilli lider Heydər Əliyevin isə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi 1983-cü ildə Vyetnama səfərinin tarixi əhəmiyyət daşıdığı bildirilib.

Baş katib To Lam ötən ilin may ayında ölkəmizə səfərini xatırladıb və Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevi də Vyetnamda səbirsizliklə gözlədiklərini deyib.

Tahir Budaqov Vyetnam Kommunist Partiyasının 14-cü qurultayının uğurla baş tutması və yenidən partiyanın Mərkəzi Komitəsinin Baş katibi seçilməsi münasibətilə To Lamı Yeni Azərbaycan Partiyası adından təbrik edib.

Səfər çərçivəsində Tahir Budaqov Vyetnam xarici işlər nazirinin müavini Nquyen Minh Vu ilə də görüşüb.

*XQ*

## Baş prokurorun rəhbərlik etdiyi heyət Bəhreyndə

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Bəhreynli həmkarı Ali bin Fadhel Al Buainainin dəvəti ilə Manama şəhərinə işgüzar səfərdə olub.**



Bəhreyn Dövlət Prokurorluğunda keçirilmiş görüşdə Baş prokuror Kamran Əliyev dəvətə görə təşəkkürünü bildirərək qeyd edib ki, Bəhreyn Krallığı Azərbaycan üçün dost ölkədir. Son illərdə ölkələrimiz arasında qarşılıqlı əlaqələr dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində daha da inkişaf edib. Görüşdə iki ölkənin prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu qeyd edilərək cinayətkarlığın müxtəlif formalarına qarşı, o cümlədən ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti ilə Bəhreyn Krallığının Kassasiya Məhkəməsinin sədri və Ali Məhkəmə Şurasının vitse-prezidenti Şeyx Xalid Ali Al Xalifa arasında görüş keçirilib. Görüş zamanı ölkələrimizin hüquq sistemləri arasında intensiv və məhsuldar əməkdaşlıq əlaqələrinin qurulmasının vacibliyi vurğulanıb, təcrübə mübadiləsi və qarşılıqlı hüquqi dəstək imkanları müzakirə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Krallığın Ədliyyə, İslam işləri və Vəqf naziri Navaf Mohamed Al Maavda arasında da ikitərəfli görüş keçirilib.

# KTMT-nin Ermənistan sınağı

### *Təsisçi üzvün kənarlaşması təşkilat üçün hansı suallar yaradır?*



**Ermənistan Xarici Kəşfiyyat Xidmətinin bu günlərdə açıqlanan illik hesabatında ölkənin üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) ilə münasibətləri məsələsinə də yer ayrılıb. XKX-nin rəhbəri Kristine Qriqoryan qurumun hesabatının əsas tezislərini səsləndirərkən Ermənistanın KTMT-də üzvlüyünün dondurulması ilə bağlı mövqeyinin 2026-cı ildə də qüvvədə qalacağını bildirib: "Ermənistanın KTMT-də dondurulmuş üzvlüyünün, necə deyərlər, donunun əriməsi çox böyük ehtimalla baş verməyəcək. Biz buna regional təhlükəsizlik strukturunun nüfuzuna meydan oxumaq kimi baxırıq və bu addımı həmin təşkilata üzv digər dövlətlərin nəticə çıxarmaq mənbəyi kimi qiymətləndirməyə davam edirik".**

Qeyd edək ki, Ermənistan XKX-nin 2025-ci il üzrə hesabatında da KTMT-nin Cənubi Qafqazdakı problemlərə reaksiya vermək baxımından "bacarıqsızlığının" və "fəaliyyət qabiliyyətsizliyi"nin dəyişəcəyi ehtimalı az olduğu vurğulanmışdı. Qeyd edilmişdi ki, bu səbəbdən Ermənistanın KTMT-də üzvlüyünün "donunun açılması" üçün əsasların yaranması da real görünmür. Ermənistanın baş naziri Nikol Paşinyan isə 2024-cü ilin dekabrında KTMT ilə münasibətlərdə geri dönüş nöqtəsinin keçildiyini bəyan etmişdi. Bununla belə, rəsmi İrəvan hələlik təşkilatdan çıxdığını açıqlamayıb və mövqeyini "fasilə götürmək" formulu ilə məhdudlaşdırıb.

Bu fonda yaranmış qanunauyğun sual KTMT-ni hansı gələcəyin gözləməsi ilə bağlıdır? Təşkilatın təsisçilərindən olan bir ölkənin mövqeyi təşkilatın dağılmasına gətirib çıxara bilərmi?

Əvvəlcə onu qeyd etmək lazımdır Ermənistan XKX-nin illik hesabatında KTMT ilə bağlı səslənən fikirlər, əslində, təkcə bir qurumun qiymətləndirməsi deyil, bütövlükdə, rəsmi İrəvanın təhlükəsizlik siyasətində dərinləşən tərəddüdlərin və narazılıqların növbəti açıq ifadəsidir. Paşinyan iqtidarı artıq bir neçə ildir ki, KTMT-ni öz təhlükəsizlik gözləntilərini doğrultmayan platforma kimi təqdim edir və bu yanaşma getdikcə daha açıq, daha sərt çalarlar qazanır. Üzvlüyün dondurulmasının 2026-cı ildə də davam edəcəyinin elan olunması isə faktiki olaraq Ermənistanın təşkilatla münasibətlərində uzunmüddətli soyuqluğun planlaşdırıldığını göstərir. İrəvan KTMT-ni Cənubi Qafqazda baş verən proseslərə adekvat cavab verə bilməyən, öz üzvünün təhlükəsizlik ehtiyaclarını vaxtında və effektiv şəkildə təmin etməyən mexanizm kimi görür və bu qənaəti açıq şəkildə beynəlxalq auditoriyaya çatdırır.

Lakin sualın qoyuluşu təkcə Ermənistanın mövqeyi ilə məhdudlaşmır. Əsas məsələ bu mövqenin KTMT-nin gələcəyi üçün nə vəd etməsindən ibarətdir. Ermənistan təşkilatın sıradan üzvü deyil, 1992-ci il mayın 15-də qurumun yaranmasını təmin edən Kollektiv Təhlükəsizlik Müqaviləsini imzalayan ölkələrdən, onun təsisçilərindən biridir. Belə bir ölkənin faktiki olaraq fəaliyyətdən kənarda qalması KTMT-nin onsuz da zəif olan birlik görüntüsünü daha da aşındırır. Bu addım digər üzvlərə də açıq mesajdır ki, təhlükəsizlik ittifaqı real sınaq anında işləmirsə, onun üzvlüyü nə dərəcədə məntiqlidir?

Bununla belə yaxın perspektivdə KTMT-nin dağılması ehtimalı real görünmür. Təşkilatın mövcudluğu böyük ölçüdə Rusiyanın siyasi iradəsi və postsovet məkanında təsir mexanizmlərini qorumaq istəyi ilə bağlıdır. Bir sıra üzv ölkələr üçün KTMT təhlükəsizlikdən daha çox geosiyasi balans aləti rolunu oynayır. Məhz bu səbəbdən Ermənistanın kənara çəkilməsi domino effekti yaratmaya da bilər. Amma bu, təşkilatın daxilindəki problemlərin aradan qalxdığı anlamına gəlmir. Əksinə, İrəvanın mövqeyi KTMT-nin illərdir yığılıb qalan ziddiyyətlərini daha görünən edir.

Paşinyan iqtidarının davranışı həm də regionda dəyişən reallıqların göstəricisidir. Ermənistan təhlükəsizlik arxitekturasında alternativlər axtarmağa çalışır, Qərblə dialoqu genişləndirir və Rusiyadan asılılığını azaltmaq niyyətini gizlətmir. KTMT ilə məsafə saxlamaq bu strategiyanın tərkib hissəsidir. Bu yol risklidir, çünki mövcud mexanizmlərdən tam imtina hələlik real deyil. Elə buna görə də Ermənistan təşkilatdan çıxmaq yox, vəziyyəti dondurmaq taktikasını seçib. Nəticə etibarilə, Ermənistanın mövqeyi KTMT-ni dərhal dağılmağa aparmasa da, təşkilatın nüfuzuna və çəkisinə ciddi zərbə vurur. Bu, KTMT üçün xəbərdarlıq siqnalıdır. Təşkilat ya üzvlərin real təhlükəsizlik gözləntilərinə cavab verən çevik və etibarlı mexanizmə çevrilməli, ya da formal mövcudluqla kifayətlənərək tədricən təsir dairəsini itirməlidir. Ermənistan isə bu prosesdə sadəcə narazı tərəf deyil, dəyişən regional oyunun aktiv iştirakçısı kimi çıxış edir.

**Politoloq İlyas Hüseynov XQ-yə açıqlamasında bildirdi ki,** Hayastan XKX-nin KTMT ilə bağlı mövqeyini növbəti dəfə təsdiqləməsi İrəvanın bu təşkilata münasibətdə taktiki yox, strateji seçim etdiyini göstərir. Onun sözlərinə görə, burada əsas məqam üzvlüyün dondurulmasının müddəti deyil, bu vəziyyətin artıq normallaşdırılmasıdır: "Ermənistan açıq şəkildə mesaj verir ki, KTMT-ni öz təhlükəsizlik ehtiyaclarını təmin edən çərçivə kimi görmür və bu qiymətləndirmə yaxın perspektivdə dəyişməyəcək. Bu mövqenin arxasında yalnız təşkilatın passivliyi yox, həm də regional güc balansındakı dəyişikliklər dayanır. KTMT uzun müddətdir üzvlər üçün ortaq risk anlayışı formalaşdıra bilmir. Təhdidlərin fərqli şərh olunması, qərarların mərkəzdən idarə olunması və çevik reaksiya mexanizmlərinin zəifliyi Ermənistan nümunəsində açıq şəkildə üzə çıxır. İrəvanın narazılığı əslində təkcə özünə aid məsələ deyil, digər üzvlərin də bölüşdüyü problemlərin ifadəsidir".

Ekspert qeyd etdi ki, bununla belə, Ermənistanın mövqeyi KTMT-nin yaxın zamanda dağılacağı anlamına gəlmir: "Qurum hələ də Rusiyanın regional təsir alətlərindən biri olaraq qalır və üzv ölkələrin əksəriyyəti üçün siyasi riskləri azaltmaq baxımından əlverişli platformadır. Lakin Ermənistanın faktiki iştiraksızlığı KTMT-ni daha çox formal çərçivəyə yaxınlaşdırır və onun real çəkisini azaldır. Ən mühüm nəticə ondan ibarətdir ki, KTMT artıq əvvəlki kimi avtomatik etimad doğuran təhlükəsizlik mexanizmi deyil. Ermənistanın seçdiyi yol təşkilat daxilindəki ziddiyyətləri üzə çıxarır və onu seçim qarşısında qoyur: ya dəyişən regional reallıqlara uyğunlaşmaq, ya da təsir imkanlarını tədricən itirmək. Bu baxımdan İrəvanın addımı KTMT üçün xəbərdarlıq rolunu oynayır".

**Qırğızıstandan olan siyasi icmalçı, tarix elmləri doktoru, professor Əskər Cakışyev** mövzu ilə bağlı şərhində diqqəti ona yönəldib ki, bu cür siyasi bəyanatlar adətən dövlətin birinci şəxsləri tərəfindən səsləndirilir, xüsusi xidmət orqanlarının nümayəndələri tərəfindən yox. Onun fikrincə, bu məqam siyasi manevr üçün müəyyən imkanlar yaradır: "Ermənistan rəhbərliyi faktiki olaraq KTMT-nin – daha doğrusu, Rusiyanın Cənubi Qafqaz istiqamətindəki mövqeyindən narazılığını ifadə edən növbəti siqnalı göndərib. Üstəlik, bu narazılıq dövlət protokolu çərçivəsindən kənarda səsləndirilib. Mənə elə gəlir ki, Ermənistan rəhbərliyi Rusiyadan elə siyasi vədlər gözləyir ki, bu, İrəvana necə deyərlər, simasını itirmədən KTMT-də üzvlüyünü bərpa etməyə imkan versin".

Ekspert vurğulayıb ki, Ermənistanın KTMT-də iştirakı ölkənin silahlanma, hərbi kadrların hazırlanması, dövlət sərhədlərinin mühafizəsi və digər əsas təhlükəsizlik komponentlərinə olan ehtiyaclarını demək olar ki, tam şəkildə qarşılayır: "Bu baxımdan, Ermənistanın KTMT-yə üzvlüyə Rusiyadan daha çox ehtiyacı var. Buradan belə nəticə çıxır ki, indiki mərhələdə erməni tərəfinə təşkilata tamhüquqlu qayıdış üçün yaxşı bir bəhanə lazımdır. Çünki havadan asılı vəziyyət ölkənin və onun silahlı qüvvələrinin maraqlarına cavab vermir".

*Səxavət HƏMİD*
*XQ*

*Replika*

## Gürcü müxaliflərin düz demədiyi nədir?

### *Yaxud ölkənin tranzit imkanları barədə bir neçə söz*

**Əlbəttə, başa düşürük ki, aktiv müxalifətçi ampluası hakimiyyətlərə qarşı ittiham yağdırmağı xeyli asanlaşdırır. Bu mənada Gürcüstandakı əks qütb təmsilçilərini anlamaq mümkündür. Amma onların bir sıra məqamlara toxunmaları təəccüblüdür. Məsələn, belə fikir var ki, Prezident İlham Əliyevin Ermənistan üzərindən keçən tranzit marşrutu ilə bağlı bəyanatı Gürcüstanın 1990–2000-ci illərdə əldə etdiyi bütün nailiyyətləri sıradan çıxarır. Belədə, istər-istəməz, sual yaranır: Gürcüstanın hansı nailiyyəti olmuşdu?**



Suala cavab verərkən, ölkənin müstəqilik illərində qazandıqlarını mübahisələndirmək niyyətindən uzağıq. Onu da bildirək ki, Gürcüstan indiyədək bir çox uğurlara imza atıb. Ölkədə sivil və çevik idarəçilik metodu formalaşıb. Elə bir metod ki, onun nəticəsində Qərbə inteqrasiya yolu tutuldu. Bütün bunlar öz yerində. Amma bir anlıq düşünək: Sakartvelonun tranzit imkanlarını yaxşılaşdırmaq üçün hansısa fövqəladə işlər görüldümü?

Təbii ki, məsələ heç də bunda deyil. Müstəqillik illərində Gürcüstanın bəlli tranzit rolu onsuz da var idi. Söhbət Bakı-Tbilisi-Ceyhan kimi nəhəng layihədən gedir. Yəni Gürcüstan Azərbaycan neftinin Türkiyə vasitəsilə dünyaya çıxmasında bloqposta çevrilmişdi. Mövcud özül üzərində 2006-cı ildə rəsmi adı Cənubi Qafqaz Boru Kəməri olan Bakı-Tbilisi-Ərzurum ərsəyə gəldi. Bu kəmər Azərbaycanın təbii qazını Gürcüstan üzərindən Türkiyəyə daşıyan strateji enerji layihəsi oldu.

"Əmma" isə budur ki, Gürcüstanın qlobal layihələrin iştirakçısına, eləcə də Azərbaycanın enerji ehtiyatlarının dünyaya çıxarılmasında mühüm məntəqəyə çevrilməsi dövrün və zamanın diktəsi idi. Yəni prinsip etibarilə Gürcüstan nəyisə təklif etməmişdi. Buna heç ehtiyac da yox idi. Azərbaycan torpaqları işğal altında idi. Aydındır ki, belə bir durumda Ermənistan tranzit məmləkət ola bilməzdi. Halbuki 90-cı illərdə Qərbin müxtəlif dairələri buna çalışmış, işğalın davam etdiyi bir dönəmdə Azərbaycan neftinin və qazının işğalçının ərazisindən daşınmasını istəmişdilər. Həmin vaxt bu dairələr rəsmi Bakıya təzyiq də göstərməyə çalışmışdılar. Ancaq Ulu öndər Heydər Əliyevin qətiyyəti sayəsində belə cəhdlərin qarşısı alınmışdı. Üstəlik, Ulu öndər prinsipiallığını Ermənistan tranzitinin daha sərfəli olmasına rəğmən göstərmişdi. Nəticədə təcavüzkar dalan aqibəti ilə üzləşmişdi.

Hazırda işğal başa çatıb. Bu, o demək deyil ki, Ermənistan qarşısında "yaşıl işıq" var. 2020-2025-ci illərin olayları göstərdi ki, ölkə sülhə asanlıqla gəlmədi, bu, öz yerində. Əlbəttə, indi vəziyyət fərqlidir. Ermənistan geosiyasi dalandan çıxmağın vacibliyini anlayır. Onun Azərbaycanın sülh şərtlərini yerinə yetirməkdən başqa yolu yoxdur. Şərtləri yerinə yetirmək vəziyyəti düzgün dəyərləndirmək, optimal yolu seçməkdir. Ermənistan üçün tranzit imkanı yaradan da məhz reallığın dərkidir. Ancaq bu, Gürcüstanın tranzit imkanlarının üzərindən xətt çəkilməsi demək deyil. Yəni kimlərsə hazırda ölkəni hesabdan silməyə tələsməməlidir. Çünki regionun əhəmiyyəti əvvəlki illərdəkindən qat-qat çoxdur.

Bəli, müxaliflər Gürcüstanın hazırkı hakimiyyəti ilə problem yaşayırlarsa, bu problemdə Azərbaycan izləri axtarmaq lüzumsuzdur. Elə rəy formalaşmamalıdır ki, Azərbaycan-Ermənistan münasibətlərinin qaydaya qoyulması ilə yaranan yeni düzəndə Gürcüstan üçün hansısa xoşagəlməzlik var. Belə yanaşma həm siyasi təhlil nöqteyi-nəzərdən düzgün deyil, həm də etik mükalimə sayıla bilməz.

Gürcü müxaliflərin mövqeyi həm də ona görə düzgün deyil ki, onun haqqında söz açdığı Gürcüstan üçün sərfəlilik paradiqmasının kökündə dayanan məqam işğal faktoru idi. İndi nə düşünək? Düşünək ki, Gürcüstanın uduşlu durumda qalması üçün Azərbaycan ərazilərinin işğalı davamlı olmalı idi? Əlbəttə, qonşu ölkənin heç bir siyasətçisinin bunu arzuladığını demirik. Axı düşmənçilik əbədi ola bilməz. Kimlərinsə, hansısa dövlətlərinsə düşmənçiliyi üzərində qurulmuş strategiya da həmçinin.

Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin bu gün Gürcüstan üzərindən keçən tranzitin, sabah Ermənistan üzərindən keçə bilməsinə dair mesajı, sadəcə, geosiyasi reallığın xatırladılmasıdır. Ümumən, tranzit sabit və dəyişməz marşrut deyil, siyasi mühitə uyğun olaraq alternativlər yaradıla bilər. Digər tərəfdən, Gürcüstan tranzit baxımından özünü təsdiqləmiş ölkədir, onun bəlli infrastrukturu var. Ermənistanın bu nöqteyi-nəzərdən uğur qazanıb-qazanmayacağı zaman məsələsidir. Ölkənin marşrutları da hələ siyasi razılaşma, təhlükəsizlik və texniki investisiya mərhələsindədir.

Üstəlik, dünyanın aparıcı ekspert mərkəzləri Gürcüstan marşrutunu daha sabit və proqnozlaşdırıla bilən hesab edirlər. Bu mövqe gürcü ekspert dairələri tərəfindən də məqbul sayılır. Onlar belə bir konsensusu bölüşürlər ki, Ermənistan marşrutu Gürcüstanı əvəz etmək yox, onu balanslaşdırmaq üçündür. Axı yuxarıda qeyd etdiyimiz regionun tranzit tutumunun genişlənməsi amili var. Bu amil ərazi üzrə daşımaların şaxələndirilməsini qaçılmaza çevirir.

Sonda onu da deyək ki, Sakartvelo Cənubi Qafqazın vahid orqanizm obrazının ayrılmaz tərkib hissəsi, tamamlayıcı simgəsidir. Gürcüstan dost və qonşu olmaqla yanaşı, həm də Azərbaycanın strateji tərəfdaşıdır. Hakimiyyətlər dəyişəndir. Tərəfdaşlıq isə son dərəcə sabit, mühüm siyasi və mənəvi dividenddir. Ona hansısa iqtisadi fayda amili ilə zərər gətirilməsi qətiyyən yolverilməzdir. Ona görə güman edirik ki, qeydlərimiz Gürcüstanın müxalif siyasi fikri üçün önəmli olacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Davosdan sonrakı dünya

**Davos Forumu qlobal güc balansının, təhlükəsizlik arxitekturasının və normativ beynəlxalq nizamın transformasiyasının ideoloji laboratoriyasına çevrilib. Post-liberal beynəlxalq sistemin formalaşdığı mövcud mərhələdə Davos diskursları qlobal elitaların yeni prioritetlərini, risk qavrayışlarını və strateji adaptasiya mexanizmlərini aydın şəkildə ortaya qoyur. Son Davos müzakirələrinin əsas xətti qlobal sabitliyin parçalanması, regional münaqişələrin sistemli xarakter alması və böyük güclərin açıq hegemonluq davranışına qayıdışı ilə səciyyələnir.**




"Soyuq müharibə"dən sonra formalaşmış liberal beynəlxalq nizam uzun müddət universal model kimi təqdim olunsa da, onun struktur dayaqları artıq tədricən aşınma mərhələsinə daxil olub. Çoxtərəflilik mexanizmlərinin qərarvermə effektivliyini itirməsi, beynəlxalq hüququn selektiv tətbiqi və iqtisadi qarşılıqlı asılılığın siyasi təhlükəsizlik zəmanəti yaratmaq qabiliyyətinin zəifləməsi sistemin daxili paradokslarını açıq şəkildə üzə çıxarır. Qlobal idarəetmə institutlarının böhranı normativ legitimliyin eroziyası deməkdir.

ABŞ-ın strateji davranışında müşahidə olunan transformasiya bu dəyişimin aydın indikatorudur. "Soyuq müharibə"dən sonra Vaşinqton beynəlxalq sistemdə "normativ lider" rolunu oynayaraq demokratiya ixracı, azad bazar prinsipləri və institusional çoxtərəflilik üzərindən hegemonluğunu legitimləşdirməyə çalışırdı. Lakin son onillikdə bu yanaşma yerini daha praqmatik, maraq mərkəzli və açıq güc siyasətinə əsaslanan strategiyaya verib. Eyni zamanda, Çin və Rusiya liberal hegemonluğun yaratdığı boşluqları strateji fürsət kimi qiymətləndirərək alternativ güc mərkəzləri formalaşdırmaq xəttini gücləndirirlər. Çin iqtisadi ekspansiya, texnoloji standartların ixracı və infrastruktur layihələri vasitəsilə təsir coğrafiyasını genişləndirir, Rusiya isə daha çox klassik güc balansı məntiqinə əsaslanan hərbi-siyasi təsir mexanizmlərini ön plana çıxararaq regional təhlükəsizlik arxitekturasını yenidən dizayn etməyə çalışır.

*

Yaxın Şərq uzun müddət beynəlxalq sistemdə "qeyri-sabitlik zonası" kimi qəbul edilsə də, son mərhələdə bu regionun funksional mahiyyəti köklü şəkildə dəyişib. Əgər əvvəlki dövrlərdə münaqişələr daha çox lokal aktorların daxili siyasi, etnik və ideoloji ziddiyyətləri çərçivəsində izah edilirdisə, hazırkı mərhələdə Yaxın Şərq böyük güclərin struktur rəqabətinin sınaq laboratoriyasına çevrilib. Region artıq qlobal güc balansının formalaşdığı, enerji təhlükəsizliyinin yenidən dizayn edildiyi və beynəlxalq ticarət axınlarının həssas nöqtələr üzrə nəzarət altına alındığı strateji düyün rolunu oynayır.

Qırmızı dəniz və Hörmüz boğazı ətrafında artan təhlükəsizlik riskləri Yaxın Şərqin qlobal iqtisadi sistem üçün nə dərəcədə kritik tranzit zonası olduğunu bir daha sübut edir. Burada yaranan hər hansı destabilizasiya qlobal inflyasiya təzyiqləri, sığorta bazarlarında risklərin artması və təchizat zəncirlərinin gecikməsi kimi çoxşaxəli nəticələr doğurur.

ABŞ-ın Yaxın Şərq strategiyası son illər formal olaraq "resursların Asiya–Sakit okean regionuna yönəldilməsi" ilə səciyyələnsə də, praktik reallıq Vaşinqtonun regiondan tam çəkilməsinin mümkün olmadığını göstərir. Enerji marşrutlarının təhlükəsizliyi, İsrailin strateji müdafiəsi və İranın təsir radiusunun məhdudlaşdırılması ABŞ üçün struktur xarakterli prioritetlər olaraq qalır. İran isə klassik dövlətlərarası güc balansından fərqli olaraq asimmetrik təsir arxitekturası quraraq regional davranışını optimallaşdırır. Qarşıdurmanın ən təhlükəli tərəfi onun institusional nəzarət mexanizmlərindən kənarda formalaşmasıdır. Regional balansı tənzimləyən effektiv təhlükəsizlik platformalarının olmaması eskalasiyanı idarəolunan mexanizmdən spontan və situativ qərarların nəticəsinə çevirir.

*

Ukraynada davam edən müharibə isə Avropada İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik nizamının struktur böhranıdır. NATO-nun genişlənməsi ilkin mərhələdə kollektiv təhlükəsizliyin möhkəmləndirilməsi kimi təqdim edilsə də, strateji müstəvidə bu proses Rusiya tərəfindən təhlükəsizlik dilemması prizmasından qəbul edildi və qarşılıqlı etimadsızlıq spiralını dərinləşdirdi. Alyansın Şərqi Avropada hərbi mövcudluğunu artırması balanslaşdırma reaksiyasını stimullaşdırdı və regionu geosiyasi tampon zonadan birbaşa qarşıdurma xəttinə çevirdi.

Avropa ölkələrinin sürətlə hərbiləşməsi və müdafiə xərclərinin kəskin artımı normativ güc konsepsiyasının faktiki aşınmasını göstərir. Avropa İttifaqı uzun müddət beynəlxalq münasibətlərdə hüquq, institutlar və yumşaq güc vasitəsilə təsir göstərən aktor kimi mövqelənmişdi. Lakin müharibə şəraitində normativ arqumentlər təhlükəsizlik təminatı yaratmaq qabiliyyətini itirir və klassik güc siyasəti yenidən dominant alətə çevrilir.

*

Avropa İttifaqının son onillikdə intensiv şəkildə gündəmə gətirdiyi "strateji avtonomiya" konsepsiyası mahiyyət etibarilə Avropanın müstəqil təhlükəsizlik subyekti kimi formalaşmaq iddiasını əks etdirirdi. Lakin real təhlükəsizlik böhranı bu ideyanın institusional və siyasi məhdudluqlarını açıq şəkildə ortaya qoydu. Ukrayna müharibəsi fonunda Avropa dövlətlərinin əsas təhlükəsizlik refleksi yenidən NATO-ya yönəldi və kollektiv müdafiənin real təminatçısı olaraq alyansın alternativsizliyi təsdiqləndi. Üzv dövlətlərin təhlükəsizlik prioritetləri, tarixi təcrübələri və geosiyasi risk qavrayışları arasında ciddi fərqlər mövcuddur. Şərqi Avropa ölkələri üçün əsas təhlükə Rusiya faktorudur, Cənubi Avropa üçün miqrasiya və Aralıq dənizi sabitliyi, Qərbi Avropa üçün isə strateji balans və iqtisadi dayanıqlıq ön plandadır. Parçalanmış təhlükəsizlik qavrayışı vahid Avropa müdafiə identitetinin formalaşmasını struktur səviyyədə məhdudlaşdırır.

NATO-nun dominant təhlükəsizlik platforması olaraq mövqeyini gücləndirməsi Avropanın hərbi planlaşdırmasını faktiki olaraq transatlantik çərçivəyə bağlayır. Paradoksun digər tərəfi ondan ibarətdir ki, Avropa təhlükəsizlik sahəsində ABŞ-a daha çox bağlandıqca, özünü qlobal aktor kimi təqdim etmək imkanlarını azaldır. Transatlantik asılılığın dərinləşməsi, eyni zamanda, Avropa daxilində siyasi bölünməni gücləndirir. ABŞ-la münasibətlərdə daha sıx inteqrasiyanı müdafiə edən dövlətlərlə Avropanın strateji müstəqilliyini prioritet sayan aktorlar arasında konseptual uçurum yaranır. Belə bir konfiqurasiya Avropanın qlobal sistemdə parçalanmış identitetini daha da dərinləşdirir.

*

Mövcud beynəlxalq sistemin institusional böhranı BMT Təhlükəsizlik Şurasının funksional iflicində özünü aydın şəkildə göstərir. Veto mexanizminin siyasi alətə çevrilməsi, böyük güclər arasında konsensusun minimuma enməsi və qərarların icra mexanizmlərinin zəifləməsi qlobal təhlükəsizlik idarəçiliyinin legitimliyini ciddi şəkildə aşındırıb. Bu kontekstdə regional təhlükəsizlik mexanizmlərinin, qeyri-formal dialoq platformalarının və çevik koalisiya modellərinin aktuallaşması müşahidə olunur.

Sülh Şurası ideyası məhz bu legitimlik boşluğunu doldurmaq cəhdi kimi ortaya çıxır. Konseptual baxımdan bu təşəbbüs preventiv diplomatiyanın gücləndirilməsi, erkən xəbərdarlıq mexanizmlərinin institusionallaşdırılması və münaqişələrin eskalasiyaya keçmədən idarə olunması məqsədi daşıyır. Lakin real güc siyasətinin dominant olduğu mövcud geosiyasi mühitdə bu cür strukturların təsir imkanları obyektiv məhdudiyyətlərlə üzləşir. Böyük güclərin strateji maraqları normativ mexanizmlərdən daha üstün mövqedə dayanır və qərarvermə prosesində hüquqi arqumentlər çox zaman siyasi məqsədlərə tabe edilir.

Bununla belə, Sülh Şurası fenomenini tamamilə təsirsiz təşəbbüs kimi qiymətləndirmək də analitik baxımdan natamam yanaşma olardı. Bu cür platformalar birbaşa güc balansını dəyişməsə belə, beynəlxalq münasibətlərin diskursiv mühitini formalaşdırır və uzunmüddətli institusional transformasiyaların ideoloji əsasını yaradır.

Son olaraq qeyd edək ki, hegemonluq xəttinin qabarması beynəlxalq münasibətləri proqnozlaşdırılmaz və sərt hala gətirir. Bu mərhələdə dövlətlərin əsas çağırışı dəyişən qlobal prioritetlər fonunda strateji adaptasiya qabiliyyətini qorumaqdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Vaşinqton–Bakı tərəfdaşlığında strateji yön

## *Sülh, təhlükəsizlik və Azərbaycanın yaratdığı regional gerçəklik*

**"Keçən ilin avqustunda imzaladığımız Sülh Sazişinə əməl etdiklərinə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Ermənistan Baş naziri Nikol Paşinyana təşəkkür etmək istəyirəm". Bu barədə ABŞ Prezidenti Donald Tramp "Truth" sosial platformasında yazıb. O bildirib ki, bu pis müharibə onun son qoyduğu 8 müharibədən biri idi. Artıq rifah və sülh hökm sürür: "Biz Azərbaycanla strateji tərəfdaşlığımızı möhkəmləndirəcəyik. Ermənistanla sülhməramlı nüvə əməkdaşlığı üçün saziş imzalayacağıq. Böyük yarımkeçirici istehsalçılarımız üçün müqavilələrə imza atacağıq. ABŞ-da istehsal olunmuş müdafiə avadanlıqlarını, o cümlədən gödəkçə, qayıqlar və sairi Azərbaycana satacağıq".**



ABŞ rəhbərliyinin Azərbaycan Prezidenti İlham Əliyevə sülh öhdəliklərinə sadiqliyinə görə ifadə etdiyi təşəkkür və strateji tərəfdaşlığın möhkəmləndirilməsi barədə bəyanatları, əslində, Bakının illərdir apardığı çoxvektorlu və balanslı xarici siyasət kursunun rasional nəticəsidir. Bu diplomatik dəstək Azərbaycanın regional liderliyinin beynəlxalq səviyyədə tam legitimlik qazanmasının təsdiqdir.

Bu fonda diqqətçəkən məqamlardan biri ABŞ-ın Azərbaycanla müdafiə sahəsində əməkdaşlığıdır. ABŞ Prezidenti Donald Trampın açıqlaması göstərir ki, Vaşinqton Azərbaycanın təhlükəsizlik sahəsində müasir müdafiə texnologiyaları ilə təmin olunmasını prioritet hesab edir. Ona görə də ABŞ-da istehsal olunmuş gödəkçə, qayıqlar və digər müdafiə avadanlıqlarının satışı nəzərdə tutulub. Bu cür hərbi texniki əməkdaşlıq isə strateji tərəfdaşlığı gücləndirir, Azərbaycanın özünümüdafiə imkanlarının modernləşdirilməsinə xidmət etməklə yanaşı, həm də ölkənin təhlükəsizlik sahəsində alternativlərə malik olduğunu göstərir.

İki tərəf arasında hərbi sahədə əməkdaşlığa Ermənistandakı Rusiyanın hərbi varlığı da təsir göstərir. Çünki Ermənistan ərazisində Rusiyanın hərbi bazasının qalması İrəvanın müstəqil qərarvermə qabiliyyətini ciddi şəkildə məhdudlaşdırır. Bu, sülh prosesinə birbaşa təsir göstərir, xarici müdaxilələr və birtərəfli maraqlar vasitəsilə prosesin sabotaj olunması ehtimalını artırır. Belə bir mürəkkəb regional mühitdə Azərbaycanın ABŞ və digər Qərb aktorları ilə dialoqunu dərinləşdirməsi sülh prosesini beynəlxalq təminatlar sistemi ilə inteqrasiya etməyə xidmət edir. Həm də prosesi regional deyil, beynəlxalq səviyyədə tanınan və qorunan akt statusuna qaldırır. Bu yanaşma, eyni zamanda, ABŞ-ın Azərbaycanla hərbi əməkdaşlığına zəmin yaradır.

Bundan başqa, ABŞ-ın Zəngəzur dəhlizinin açılmasını birmənalı olaraq dəstəkləməsi və 2025-ci ilin avqustunda Ağ Evdə imzalanmış Birgə Bəyannamə, Bakı və Vaşinqtonun regional kommunikasiyaların bərpası məsələsində vahid mövqedən çıxış etməsi əməkdaşlığı gücləndirir.

Ümumiyyətlə, Azərbaycanın yürütdüyü müstəqil və balanslaşdırılmış xarici siyasət kursu, habelə Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar Vaşinqtonun regiona baxışını köklü surətdə dəyişib. Bakını regionun mütləq strateji aktoru və əsas dayaq nöqtəsi kimi ön plana çıxarıb. Bu strateji təkamül illər boyu tərəflər arasındakı hərbi-siyasi dialoqun qarşısını alan süni maneələrin, xüsusilə də 907-ci düzəlişin yaratdığı stereotiplərin qırılmasına səbəb olub.

Mövzu ilə bağlı **politoloq Tural İsmayılov** XQ-yə bildirdi ki, uzun müddət ABŞ Konqresində Azərbaycanın maraqlarına qarşı siyasi təzyiq vasitəsi kimi istifadə olunan bu düzəlişin artıq praktiki əhəmiyyətini itirməsi və tamamilə ləğvi istiqamətindəki fəaliyyətlər, Vaşinqtonun Azərbaycanı etibarlı və əvəzolunmaz təhlükəsizlik tərəfdaşı kimi qəbul etməsinin birbaşa təsdiqidir: "Siyasi etikada baş verən keyfiyyət dəyişikliyi hərbi əməkdaşlığın miqyasını genişləndirərək onu daha praqmatik və milli maraqlara xidmət edən formata keçirib. Əvvəllər münaqişə faktoruna görə ABŞ-ın birbaşa müdafiə dəstəyindən məhrum edilən Azərbaycan hazırda Vaşinqtonla hərbi təhsil, peşəkar kadr hazırlığı və ordunun modernləşdirilməsi sahəsində açıq və intensiv əməkdaşlıq imkanları əldə edib. Bu proses təkcə ikitərəfli əlaqələrin inkişafı deyil, həm də Azərbaycanın NATO standartlarına inteqrasiyası və qlobal sülhməramlı əməliyyatlarda, habelə terrorizmə qarşı mübarizədə oynadığı mühüm rolun beynəlxalq səviyyədə tanınmasıdır. ABŞ-ın regional təhlükəsizlik maraqları Azərbaycanın güclü hərbi potensialı və sabitləşdirici rolu ilə üst-üstə düşür ki, bu da



hərbi yardım məhdudiyyətlərinin aradan qaldırılmasını Vaşinqton üçün də strateji zərurətə çevirir".

Politoloq onu da qeyd etdi ki, Azərbaycanın xarici siyasətdə qazandığı diplomatik uğurlar regionda sülhün iqtisadi və texnoloji arxitekturasını da yenidən formalaşdırır: "ABŞ-ın regionda sülhün dividendini artırmaq, Ermənistanla nüvə enerjisi və yüksək texnologiyalar sahəsində əməkdaşlıq planları vasitəsilə tərəfləri qlobal texnoloji zəncirlərə bağlamaq cəhdləri Azərbaycanın yaratdığı sabitlik mühitinin nəticəsidir. Azərbaycan öz milli maraqlarını qoruyaraq həm regional liderliyini möhkəmləndirir, həm də ABŞ ilə münasibətləri hərbi-strateji müstəvidə yeni bir zirvəyə daşıyır. Bununla da Azərbaycan–ABŞ hərbi-siyasi əməkdaşlığı artıq, sadəcə, yardım və ya məsləhətləşmə formatından çıxaraq, Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və qlobal enerji təhlükəsizliyinin təminatına yönəlmiş bərabərhüquqlu tərəfdaşlıq modelinə çevrilib".

Beləliklə, ABŞ Prezidentinin 2025-ci ilin avqustunda paraflanmış sülh sazişinə sadiqliyinə görə Prezident İlham Əliyevə xüsusi təşəkkür etməsi və yaxın gələcəkdə ABŞ vitse-prezidentinin Bakıya planlaşdırılan səfəri ikitərəfli siyasi dialoqun ən yüksək səviyyəyə qalxdığını, Azərbaycanın regionda əsas tərəfdaş statusunun rəsmən təsdiqləndiyini göstərir.

Bu strateji tərəfdaşlıq hərbi müstəvidə daha praqmatik və texniki icra mərhələsinə qədəm qoyub. Yaxın aylarda ABŞ Silahlı Qüvvələrinin Avropa Komandanlığı (EUCOM) və Azərbaycan Müdafiə Nazirliyinin ekspertləri tərəfindən hazırlanacaq birgə fəaliyyət planları ordunun modernləşdirilməsi, terrorizmə qarşı mübarizə və texniki ekspert mübadiləsini əhatə edəcəkdir. Bu hərbi yaxınlaşma təkcə regional sabitliyi təmin etmir, həm də Azərbaycanın suverenliyini təhdid edən faktorlara qarşı qlobal təhlükəsizlik qalxanı funksiyasını yerinə yetirir.

ABŞ-ın Zəngəzur dəhlizinin açılmasını dəstəkləməsi və regionda sülhün iqtisadi dividendini artırmaq niyyəti Azərbaycanın formalaşdırdığı yeni regional reallıqların beynəlxalq səviyyədə qəbuludur. Bakının yürütdüyü çoxşaxəli və balanslı siyasət sülhün zəiflik deyil, məhz güclü hərbi potensial və ağıllı diplomatiya üzərində qurulmasını təmin edir. Bununla Azərbaycan–ABŞ hərbi-siyasi əlaqələrinin dinamik inkişafı həm ölkəmizin milli təhlükəsizliyini sarsılmaz edir, həm də Azərbaycanı Avrasiya regionunun ən etibarlı və əvəzolunmaz təhlükəsizlik aktorlarından birinə çevirir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ortaq maraqlara əsaslanan əməkdaşlıq

**Azərbaycan və İsrail arasında siyasi, iqtisadi və hərbi sahələrdə ardıcıl şəkildə inkişaf edən münasibətlər son illər Yaxın Şərq–Cənubi Qafqaz xəttində formalaşan yeni geosiyasi reallıqlar fonunda xüsusi əhəmiyyət kəsb edir. İki ölkə qarşılıqlı münasibətlərini praqmatik yanaşma, suverenliyə hörmət və milli maraqların uzlaşdırılması prinsipləri üzərində qurur. Əməkdaşlığı təkcə ikitərəfli çərçivədə deyil, daha geniş regional və qlobal kontekstlərdə də dərinləşdirməyə çalışılır.**



İki ölkə arasında siyasi dialoqun intensivliyi münasibətlərin institusional xarakter aldığını göstərir. İsrailin xarici işlər naziri Gideon Saarın rəhbərlik etdiyi nümayəndə heyətinin Bakı səfəri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Görüş çərçivəsində iki ölkə arasında münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə uğurlu inkişafı vurğulandı. Həmçinin kənd təsərrüfatı, su resurslarının idarə olunması, yüksək texnologiyalar, süni intellekt sahələrində əməkdaşlıq məsələləri qeyd edildi, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığın dərinləşdirilməsi işinə verdiyi töhfəyə toxunuldu. Digər tərəfdən, səfər çərçivəsində keçirilən Azərbaycan–İsrail biznes-forumunun ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafına təkan verəcəyi qeyd edildi. İsrail XİN başçısı sonda Azərbaycanda yəhudi icmasına dövlət səviyyəsində göstərilən qayğıya görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Son dövrlər iki ölkə arasında yüksək səviyyəli görüşlərin intensivləşməsi əlaqələrin getdikcə dərinləşdiyini deməyə əsas verir. Ötən həftə Azərbaycan və İsrail liderləri– İlham Əliyev və İsxak Hersoq Davos İqtisadi Forumu çərçivəsində keçirilən görüşü ikitərəfli münasibətlərin qlobal gündəmlə uzlaşdırılması baxımından mühüm siyasi mesaj kimi dəyərləndirilə bilər. Davos kimi qlobal platformada aparılan müzakirələr göstərdi ki, Bakı və Təl-Əviv münasibətləri təkcə regional maraqlar prizmasından deyil, beynəlxalq enerji təhlükəsizliyi, texnoloji transformasiya və geosiyasi sabitlik kontekstində də nəzərdən keçirir. Bu görüşlər həm də Azərbaycanın artan beynəlxalq nüfuzunun və İsrailin Cənubi Qafqaz siyasətində Bakıya verdiyi xüsusi önəmin göstəricisidir. Davosda aparılan dialoq tərəflərin qlobal iqtisadi və siyasi çağırışlara oxşar praqmatik yanaşma sərgilədiyini bir daha təsdiqlədi.

Bakı–Tel-Əviv əlaqələrinin əsas fərqləndirici cəhəti ondan ibarətdir ki, bu münasibətlər konkret maraqlara, real təhlükəsizlik çağırışlarına və qarşılıqlı faydaya əsaslanır. Enerji təhlükəsizliyi, müdafiə qabiliyyətinin gücləndirilməsi, texnoloji modernləşmə və iqtisadi şaxələndirmə kimi sahələr iki ölkənin strateji gündəliyində üst-üstə düşür. Təkcə onu demək kifayət edər ki, bu gün Azərbaycan 124 İsrail şirkəti ilə əməkdaşlıq edir.

Azərbaycan–İsrail münasibətlərinin həssas, eyni zamanda, strateji istiqamətlərindən biri hərbi-texniki əməkdaşlıqdır. 1990-cı illərdə əsası qoyulan əməkdaşlıq bu gün inkişaf edərək milyardlarla dollarlıq silah müqavilələrini, enerji asılılığını və yüksək texnologiyalar üzrə birgə layihələri əhatə edir. 2016–2021-ci illərdə Azərbaycanın silah idxalının 69 faizi İsrailin payına düşüb. Xüsusilə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın istifadə etdiyi İsrail istehsalı kamikadze pilotsuz uçuş aparatları və kəşfiyyat dronları döyüş əməliyyatlarının gedişində həlledici rol oynayıb. Hazırda əməkdaşlıq əsasən hava hücumundan müdafiə və radioelektron mübarizə, pilotsuz uçuş aparatları, peyk kəşfiyyatı və birgə istehsal istiqamətləri üzrə inkişaf edir.

İki ölkə arasında əməkdaşlıq süni intellekt sahəsində də getdikcə genişlənir və bu, artıq təkcə təhlükəsizlik gündəliyi ilə məhdudlaşmır. İsrailin startap ekosistemi və rəqəmsal innovasiyalar üzrə qabaqcıl təcrübəsi Azərbaycanın rəqəmsal iqtisadiyyatın qurulması və texnoloji inkişaf strategiyası ilə uzlaşır. Cari il yanvarın 8-də Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Ronen Krauszla keçirilən görüş iki ölkə arasında bu sahədə əməkdaşlığın dərinləşdiyini göstərir. Görüşdə Birgə Komissiyanın son iclasında razılaşdırılmış məsələlər üzrə görülən işlər, İsrailin “Technion” İnstitutu ilə birgə yaradılan Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin fəaliyyəti, eləcə də İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Azərkosmos və IAI-nin əməkdaşlığı ilə təsis edilmiş “Vistar” Mükəmməllik Mərkəzinin rolu müzakirə olunub. Tərəflər şəhər mobilliyi, nəqliyyatın rəqəmsallaşdırılması, süni intellekt, startap ekosisteminin inkişafı, kibertəhlükəsizlik və rəqəmsal bacarıqlara malik insan kapitalının formalaşdırılması kimi prioritet istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi perspektivlərini dəyərləndiriblər. Bu isə o deməkdir ki, Azərbaycan–İsrail tərəfdaşlığı texnologiya və innovasiya əsaslı, uzunmüddətli iqtisadi və institusional müstəvidə də kifayət qədər sürətlə inkişaf edir.

Ümumilikdə, Azərbaycan–İsrail münasibətləri klassik diplomatik əməkdaşlıq modelindən çıxaraq strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyub. Bu münasibətlərin gücü tərəflərin bir-birinə ideoloji deyil, rasional və maraqlara əsaslanan yanaşmasından qaynaqlanır. Məhz bu praqmatizm əlaqələrin regional təlatümlərə baxmayaraq davamlı və dayanıqlı olmasını təmin edir. Mövcud geosiyasi şəraitdə Azərbaycan–İsrail əməkdaşlığı həm regional sabitliyə, həm də qlobal enerji və təhlükəsizlik arxitekturasına töhfə verən mühüm amil kimi çıxış edir. Bu baxımdan, iki ölkə arasında inkişaf edən əlaqələr yalnız bu günün deyil, uzunmüddətli strateji gələcəyin mühüm sütunlarından biri hesab edilə bilər.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**Azərbaycan–İsrail**
**parlamentlərarası əlaqələr üzrə**
**işçi qrupunun üzvü, politoloq**



Mənim də üzvü olduğum Azərbaycan-İsrail parlamentlərarası işçi qrupunun Gideon Saar və digər şəxslərlə Milli Məclisdə görüşümüz kifayət qədər məhsuldar oldu. İsrailin XİN başçısı və nümayəndə heyəti Azərbaycan–İsrail münasibətlərini olduqca yüksək qiymətləndirdi və bu mövqe Azərbaycanın yanaşması ilə üst-üstə düşür.

Bizim energetika, hərbi sənaye, su ehtiyatlarının idarə olunması, kənd təsərrüfatı, kibertəhlükəsizlik və səhiyyə sahələrində son dərəcə uğurlu və qarşılıqlı faydaya əsaslanan əməkdaşlığımız mövcuddur və hesab edirəm ki, bu əməkdaşlıq gələcəkdə də qorunub saxlanılacaq. Bununla yanaşı, qeyd etmək istərdim ki, Azərbaycanın neft şirkəti SOCAR İsrailin enerji resurslarının istismarında iştirak edir və bu iştirakın genişləndirilməsi planlaşdırılır. Bu isə, düşünürəm ki, iki ölkə arasında qarşılıqlı investisiyaların artması üçün yeni imkanlar açacaq.

Parlamentlərarası əlaqələrimiz yüksək səviyyədədir. Demək olar ki, hər il bir neçə dəfə nümayəndə heyətimiz İsraildə, Knessetdə səfərdə olur. Eyni zamanda, Knessetdən gələn nümayəndələr Milli Məclisdə olur, görüşlər keçiririk. Əlaqələrimiz həm bu səfərlər çərçivəsində, həm də onlayn formatda davam edir.

Səfirliklər vasitəsilə də sıx əməkdaşlıq mövcuddur və dostluq qrupları arasında ən fəal qurumlardan biri məhz Azərbaycan–İsrail, Milli Məclis–Knesset işçi qrupudur. Şəxsən mən özüm bu xətt üzrə üç-dörd dəfə İsraildə olmuşam, Knessetdə həmkarlarımızla görüşlər keçirmişəm. Qeyd etmək istərdim ki, İsraildə parlament qrupları və siyasi partiyalar arasında kifayət qədər sərt mübarizə mövcud olsa da, Azərbaycanla münasibət məsələsində, demək olar ki, bütün tərəflər eyni mövqedən çıxış edirlər. Azərbaycan–İsrail dostluq qrupunda bütün siyasi partiyaların nümayəndələri təmsil olunur və onlar bu münasibətlərin qorunub saxlanılmasının və inkişaf etdirilməsinin tərəfdarıdırlar.

Məhz buna görə hesab edirəm ki, cənab Saarın və onu müşayiət edən böyük biznes və işgüzar dairələrin nümayəndələrinin Azərbaycana səfəri faydalı oldu. Mənim fikrimcə, ikitərəfli münasibətlərin genişlənmə perspektivləri hər iki tərəf üçün faydalı olacaq.

# Bəhreyn Azərbaycanın Yaxın Şərqə açılan yeni qapısıdır

## *Polisentrik dünya nizamında iki ölkənin koordinasiya olunmuş siyasəti*

**Cənubi Qafqazın lider dövləti statusunu qətiyyətlə daşıyan Azərbaycan Respublikası ilə Körfəz regionunun strateji əhəmiyyətə malik ölkəsi Bəhreyn Krallığı arasındakı münasibətlər Avrasiya və Yaxın Şərq arasındakı siyasi-iqtisadi körpülərin möhkəmlənməsində həlledici rol oynayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxvektorlu və milli maraqlara söykənən xarici siyasət kursu Azərbaycanı qlobal miqyasda etibarlı tərəfdaşa çevirib. Bu strategiyanın mühüm tərkib hissəsi kimi Körfəz Əməkdaşlıq Şurasına daxil olan dövlətlərlə, xüsusilə də Bəhreynlə əlaqələrin yüksələn xətt üzrə inkişafı diqqətəlayiqdir. 1996-cı il noyabrın 6-da əsası qoyulan diplomatik münasibətlərin 2026-cı ildə 30 illiyi qeyd edilərkən, tərəflər arasında formalaşan qarşılıqlı etimad mühiti, siyasi dialoqun intensivliyi və beynəlxalq platformalardakı həmrəylik əməkdaşlığın strateji məzmun kəsb etdiyinin göstəriciləridir.**



Diplomatik münasibətlərin qurulmasından ötən otuz il ərzində Azərbaycan və Bəhreyn arasındakı əlaqələr müxtəlif sınaqlardan uğurla çıxıb, hər iki dövlət ən çətin məqamlarda bir-birinə birmənalı dəstək nümayiş etdirib və xüsusilə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin təmin olunması məsələsində Krallığın sərgilədiyi prinsipial mövqe rəsmi Bakı tərəfindən hər zaman yüksək qiymətləndirilib. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və BMT çərçivəsində Bəhreynin Azərbaycanın haqlı mövqeyini müdafiə edən qətnamələri dəstəkləməsi, Manamanın beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyinin, eyni zamanda, İslam həmrəyliyinə verdiyi önəmin əyani təzahürüdür. İkinci Qarabağ müharibəsi dövründə və ondan sonrakı bərpa-quruculuq mərhələsində Bəhreyn rəhbərliyinin, xüsusilə Kral Həməd bin İsa Əl Xəlifənin Azərbaycan dövlətinə və xalqına ünvanladığı təbrik məktubları, siyasi dəstək bəyanatları iki ölkə arasındakı qardaşlıq bağlarının sarsılmazlığını nümayiş etdirir.

Bu ay Bəhreyn Krallığında keçirilən Asiya Parlament Assambleyasının 16-cı plenar sessiyasında Azərbaycan nümayəndə heyətinin, Milli Məclisin rəhbərliyinin iştirakı və Kral Həməd bin İsa Əl Xəlifə tərəfindən yüksək səviyyədə qəbul edilməsi münasibətlərin parlamentlərarası diplomatiya müstəvisində də yeni inkişaf mərhələsinə qədəm qoyduğundan xəbər verir.

Qlobal təhlükəsizlik arxitekturasının həssaslığı şəraitində Azərbaycan və Bəhreyn arasında təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığın dərinləşdirilməsi məsələsi də gündəlikdə duran vacib mövzulardandır. Manama Dialoqu kimi nüfuzlu platformalarda Azərbaycan rəsmilərinin mütəmadi iştirakı, regional və qlobal təhdidlərə qarşı birgə mübarizə mexanizmlərinin müzakirə edilməsi baxımından əhəmiyyətlidir. Terrorizmə, ekstremizmə və transmilli cinayətkarlığa qarşı mübarizədə tərəflərin nümayiş etdirdiyi həmrəylik regionda sülhün və sabitliyin təmin olunmasına mühüm töhfə verir.

Mövcud proseslərin məntiqi davamı olaraq, yaxın illərdə Azərbaycan-Bəhreyn münasibətlərinin yeni müstəviyə yüksələcəyini proqnozlaşdırmaq mümkündür. Bu yüksəliş, ilk növbədə, hər iki dövlətin rəhbərliyinin siyasi iradəsindən qaynaqlanır. Proseslərin təhlili göstərir ki, Bəhreyn Azərbaycanı Cənubi Qafqazda əsas strateji tərəfdaş kimi qəbul etməyə davam edəcək və rəsmi Bakı da öz növbəsində, Körfəz regionundakı maraqlarının təmin olunmasında Manama ilə əlaqələrinə xüsusi önəm verəcək. İqtisadi sahədə, bərpaolunan enerji mənbələri üzrə birgə layihələrin reallaşdırılması, Azərbaycanın yaşıl enerji potensialının Bəhreynin investisiya imkanları ilə birləşdirilməsi qlobal enerji keçidi prosesinə mühüm töhfə ola bilər. Həmçinin, rəqəmsal iqtisadiyyat, innovasiyalar və yüksək texnologiyalar sahəsində əməkdaşlıq gələcək münasibətlərin lokomotivi rolunu oynamaq potensialına malikdir.

Azərbaycanın Orta Dəhliz layihəsinin reallaşdırılmasında oynadığı aparıcı rol Bəhreyn üçün Asiya və Avropa bazarlarına çıxış alternativlərini şaxələndirmək baxımından strateji fürsətdir. Bəhreyn limanları ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı arasında əməkdaşlığın qurulması logistik zəncirlərin inteqrasiyasına şərait yaradacaq. Həmin əməkdaşlıq Çindən Avropaya uzanan ticarət yollarının səmərəliliyini artıracaq və Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini daha da möhkəmləndirəcək. Digər tərəfdən, Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsindəki potensialı səhra iqliminə malik Bəhreyn üçün həyati əhəmiyyət kəsb edən kənd təsərrüfatı məhsullarının idxalını şaxələndirmək imkanı yaradır.

Dünya siyasətində baş verən qütbləşmələr fonunda Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın qazandığı böyük nüfuz və təcrübə Bəhreynlə beynəlxalq təşkilatlar çərçivəsindəki əlaqələrin daha koordinasiyalı şəkildə həyata keçirilməsinə zəmin yaradır. BMT, İƏT və Qoşulmama Hərəkatı platformalarında tərəflərin vahid mövqedən çıxış etməsi hər iki dövlətin milli maraqlarının qlobal səviyyədə effektiv qorunmasına imkan verir. Xüsusilə, iqlim dəyişmələri ilə mübarizə, su resurslarının idarə olunması, ərzaq təhlükəsizliyi kimi qlobal çağırışlar qarşısında Azərbaycan və Bəhreynin səylərini birləşdirməsi bəşəriyyəti narahat edən problemlərin həllinə verilən töhfədir. Bakının ev sahibliyi etdiyi qlobal tədbirlərdə, o cümlədən COP konfranslarında Bəhreyn nümayəndə heyətlərinin fəal iştirakı ekoloji problemlərin həllində tərəflərin ortaq baxışa malik olduğunu təsdiqləyir.

2026-cı il və sonrakı dövr Azərbaycan-Bəhreyn münasibətlərində “qızıl dövr” kimi xarakterizə oluna bilər. Liderlərin qarşılıqlı inamı, xalqların dostluğu və iqtisadi maraqların uzlaşması, strateji tərəfdaşlığın davamlılığını təmin edən mühüm amillərdir. Regionda sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində Azərbaycanın atdığı qətiyyətli addımlar Bəhreyn tərəfindən hər zaman dəstəklənib. Siyasi dialoqun yüksək səviyyəsi, iqtisadi layihələrin miqyasının genişlənməsi və humanitar əlaqələrin dərinləşməsi Bakı ilə Manama arasındakı məsafəni simvolik olaraq qısaldır və iki dost ölkəni vahid hədəflər ətrafında birləşdirir.

Azərbaycan və Bəhreyn münasibətləri, coğrafi uzaqlığa baxmayaraq, xalqların və maraqların yaxınlığının bariz nümunəsidir. Prezident İlham Əliyevin və Kral Həməd bin İsa Əl Xəlifənin siyasi iradəsi xalqlarımızın rifahı naminə atılan addımların qarantıdır. Qarşıdakı illərdə biz bu əməkdaşlığın daha da şaxələndiyini, yeni sahələri əhatə etdiyini və hər iki dövlətin qüdrətinin artmasına xidmət etdiyini görəcəyik. Məhz bu cür tərəfdaşlıqlar müasir dünyanın fırtınalı okeanında dövlətlərin təhlükəsizliyini və inkişafını təmin edən “təhlükəsiz liman” rolunu oynayır. Hadisələrin sonrakı inkişafının bu proqnozumuzun doğruluğunu sübut edəcəyinə və Azərbaycan–Bəhreyn dostluğunun yeni uğurlara imza atacağına əminik.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan humanitar elmi və azərbaycanşünaslıq: konseptual kontekst



## II MƏQALƏ

**Bundan sonrakı təhlilimizi qəzet formatının imkan verdiyi çərçivədə iki istiqamətdə aparacağıq.**

Birinci istiqamət – "Azərbaycançılıq-Azərbaycançılıq məfkurəsi-Azərbaycanşünaslıq" semantik və məntiqi sahəsində Azərbaycan elmi humanitarlığının universal antropoloji konseptuallaşma imkanlarının axtarışları.

İkinci istiqamət – vurğulanan koqnitiv keçidin uğurlu olması üçün Azərbaycan elmi humanitar təfəkkürünün fəlsəfi epistemologiyasının hazırlanması perspektivlərinin müəyyən edilməsi.

### "Azərbaycançılıq – Azərbaycançılıq məfkurəsi – Azərbaycanşünaslıq" semantik və məntiqi sahəsi

Maraqlı və əhəmiyyətlidir ki, "Azərbaycançılıq-Azərbaycançılıq məfkurəsi-Azərbaycanşünaslıq" semantik və məntiqi sahəsinin elmi-filoloji obrazı artıq ədəbiyyat tarixinin dövrləşdirilməsi konsepsiyasında yaradılmışdır. Bu, uzunmüddətli tədqiqatların, böyük yaradıcılıq axtarışlarının məntiqi nəticəsidir. Həmin prosesdə müxtəlif tarixi mərhələlərdə çoxlu sayda Azərbaycan tədqiqatçıları iştirak etmişlər. Onların isimləri və verdikləri töhfələr müfəssəl şəkildə akademik İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri" (2019) adlı əsərində təqdim edilmişdir. Biz burada həmin süjetin sadəcə 3 epizoduna baxaq.

Səməd Vurğun hələ keçən əsrin ortalarında yazmışdır: "...tarixçilərimiz və ədəbiyyatşünaslarımız var qüvvələri ilə…əl-ələ verərək…Azərbaycanın ümumi tarixini, eləcə də Azərbaycan ədəbiyyatı tarixini yaratmalıdırlar". Bu ümumi yanaşma çərçivəsində böyük şairin aşağıdakı fikirləri tədqiqi və metodoloji "koqnitiv kompas" rolu oynayır. Bunu akademik İsa Həbibbəyli çox gözəl təqdim etmişdir. S.Vurğun yazmışdır: "Ədəbiyyat tarixinin dövrləşdirilməsi öyrənilən dövrün yaradıcılıq prosesinin daxili qanunauyğunluqlarının, ədəbiyyatın başlıca ideya-bədii mərhələlərinin ümumiləşdirilməsinə, onun keyfiyyət təkamülünün…əsas ideya-bədii nailiyyətlərinin tam şəkildə açılması ideyasına xidmət etməlidir".

Bu düşüncələrin işığında Yaşar Qarayevin aşağıdakı fikirləri də tam yerindədir: "...ədəbiyyat tariximizin bu vaxta qədərki bütün dərslərini, təcrübəsini, ənənələrini rəhbər tutsaq, onun tam və dolğun elmi tarixini yarada bilərik, millətlərin, xalqların bugünkü mənəvi-əxlaqi, bədii dəyərlər müsabiqəsində və yarışında milli mədəniyyətimizin özünü təsdiq edə bilməsinə kömək etmiş olarıq".

Bu cür nəzəri-konseptual bazanın bir sistem kimi mövcudluğunu sübut edən digər nümunələr kifayət qədərdir. Biz bu məqamda da dərin nəzəri qatlara baş vurmadan, ümumiyyətlə, Azərbaycançılığın elmi-filoloji obrazına diqqət edək. Həmin obrazı aşağıdakı fikirlərdə aydın görürük:

"Azərbaycançılıq – milli düşüncənin və Vətən anlayışının bir yerdə qavranılması təlimi kimi xalqın və ölkənin milli maraqlarının – maarifçilikdən milli azadlıq ideyalarına, istiqlal mübarizəsi düşüncəsinə, dövlət müstəqilliyi şüuruna qədərki bütün ideallarının ədəbiyyatın canında və qanında olmasını qaçılmaz həyati tələbat səviyyəsinə qaldıran ümummilli məfkurədir. Azərbaycançılıq – milli ədəbiyyatın axarını ölkə maraqlarına doğru istiqamətləndirən mühüm ədəbi-ictimai təlimdir. Azərbaycançılıq – ədəbiyyatda əsas hədəf kimi milli-mənəvi özünüdərk və vətənpərvərlik ideyalarının parlaq bədii təcəssümüdür, xalqın hərtərəfli inkişafına xidmət edən ümummilli məfkurədir. Nəhayət, Azərbaycançılıq – ədəbiyyatda milli istiqlal və müstəqil dövlətçilik ideallarının təcəssümü olan əbədiyaşar təlimdir!" (İsa Həbibbəyli).

Deməli, tam əminliklə elmi-filoloji aspektdə "Azərbaycançılıq-Azərbaycançılıq məfkurəsi-Azərbaycanşünaslıq" semantik və məntiqi sahəsinin mövcudluğundan danışa bilərik.

İndi bu yanaşmanın bütövlükdə Azərbaycan bədii təfəkkürünün transformasiya tarixinə və oradan da, ümumiyyətlə, Azərbaycan elmi humanitariyasının universal antropoloji obrazının yaradılmasına proyeksiyasının gerçək nəzəri, dünyagörüşü və metodoloji kriteriyalarının, epistemoloji xüsusiyyətlərinin müəyyən edilməsi aktualdır. Yeri gəlmişkən, bu prosesdə tarixi aspekti qətiyyən nə arxa plana atmaq, nə də kənara qoymaq olmaz. Tarixilik bütün hallarda fundamental olaraq Azərbaycan mənəvi-mədəni bütövlüyünün aparıcı komponentidir. Onun ayrıca tədqiqi zəruridir. Biz burada daha çox fəlsəfi səviyyədə nəzəri-konseptual, metodoloji və bütövlükdə epistemoloji tərəfə baxırıq. Həmin prizmada başqa bir əhəmiyyətli elmi problemə nəzər salaq.

### Bütövlük məsələsi

Heç şübhəsiz, Azərbaycan elmi humanitariyasının universal antropoloji obrazının yaradılması fəlsəfi-elmi proses kimi mürəkkəb fenomendir. O cümlədən, yuxarıda vurğuladığımız çox mühüm nəzəri-konseptual və metodoloji-dünyagörüşü xüsusiyyətlərindən də ümumi olan universal yanaşmanın hazırlanması tələb olunur.

Burada ilk addım Azərbaycan bədii təfəkkürünün "vahid, ümumi, bütöv bir manifest və yaddaş" (Y.Qarayev) kimi qəbul edilməsi ilə bağlıdır. Buradan ikinci mərhələyə ideya və yanaşma keçidi vardır: "Mənəvi mədəniyyət...yalnız vahid, ümumi, bütöv bir manifest və yaddaş tanıyır" (Y.Qarayev). Nəhayət, bitkin konseptuallıq və onun sosial funksionallığının kəsilməz olaraq aktuallaşdırılmasının "toplumsal, tarixi və ideoloji çərçivəsi": "Tarix boyu həmişə dövlət və elm (sənət, poeziya) milli şüurun və yaddaşın keşiyində qoşa dayanıb" (Y.Qarayev).

Buradan akademik İ.Həbibbəyli Y.Qarayevin fikirlərini sintez edərək, yanaşma bütövlüyünü konseptual səviyyədə təmin etməli olan metodoloji prinsiplərlə bağlı mühüm nəticələr çıxarır.

Birincisi, "bütövlük...köklə zirvə arasında vəhdətdən başlayır", ikincisi, "bütövlük həmin vəhdətin sabitliyi ilə təmin olunur", üçüncüsü, "kök Azərbaycanın zəngin ədəbi keçmişidir, Azərbaycanda (Şərqdə) iki min illik tərəqqinin milli-mənəvi tarixi irsi, bədii, fəlsəfi-estetik dəyər və sərvətidir", dördüncüsü, "zirvə – çağdaş suveren milli təfəkkürdür, istiqlal şüurudur, müstəqillik mentaliteti və statusudur".

Burada, təbii ki, "kök" və "zirvə" ideya obrazıdır. Əsas məsələ isə bütövlükdə Azərbaycan mənəvi-mədəni kimliyinə bütöv kimi baxmaqdan ibarətdir. Onun xüsusiyyətlərindən biri həmin bütövlüyün Azərbaycan elmi humanitariyasının universal antropoloji gerçəkliyə çevrilməsinin təməl şərti olması ilə bağlıdır. Həmin kontekstdə "zəngin ədəbi keçmişlə" "çağdaş suveren milli təfəkkür, istiqlal şüuru, müstəqillik mentaliteti və statusu"nun vəhdətinin təmini çox aktual nəzəri problem təsiri bağışlayır. Çünki əgər söhbət əsaslı elmi yanaşmadan gedirsə, onda müasir elmi kriteriyalarla "milli mənəvi-mədəni irs"lə çağdaş suveren milli təfəkkür, istiqlal şüuru, müstəqillik mentaliteti və statusu" arasında daxili məzmun və məntiqi əlaqənin Azərbaycanşünaslıq kontekstində elmi obrazını yaratmalıyıq. Bu obraz üzvi surətdə müasir Azərbaycan elmi humanitariyasının konseptual obrazının yaradılmasında aparıcı rol oynamalıdır. Belə alınır ki, iki miqyasda elmi problemləri həll etməliyik.

Birincisi, elmi-filoloji müstəvidə mövcud olan və Azərbaycanşünaslıq kontekstində aktuallaşan konseptioloji yanaşmanı ümumi elmi humanitar təfəkkür miqyasında tətbiq oluna biləcək müstəviyə proyeksiya etməliyik.

İkincisi, bu keçidi təmin edə bilən fəlsəfi mahiyyətli epistemnoloji təlimi yaratmalıyıq. Bu, faktiki olaraq Azərbaycanşünaslıq kontekstində yeni epistemoloji sistem yaratmaq anlamına gəlir!

### Bədii təfəkkürün dövrləşdirilməsi və elmi humanitarlığın universallığı

Burada əslində ədəbiyyatın tarixi dövrləşdirilməsi konsepsiyasının (akademik İ.Həbibbəyli anlamında) antropoloji universal elmi humanitariyanın yaradılması üçün necə uğurlu proyeksiya olunmasının vacib idraki şərtlərinin müəyyən edilməsi nəzərdə tutulur. Bu "nəzəri-konseptual miqrasiya"nın təməl şərti yuxarıda vurğuladığımız "bütövlük meyarıdır". Onun fonunda "Azərbaycançılıq–Azərbaycançılıq məfkurəsi–Azərbaycanşünaslıq" vəhdəti önəm kəsb edir. Bununla müasir Azərbaycan antropoloji universal elmi humanitariyasının semantik və funksional "nüfuz sahəsi" müəyyənləşir. Həmin sahə özlüyündə daha ümumi və istiqamətverici faktor – Azərbaycan üçün Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf kursunun ruhuna, mahiyyətinə, məzmununa və funksional hədəflərinə daxildir.

Məsələnin bu cür qoyuluşu bu mövzuda silsilə məqalələrin ana tezisini formalaşdırmağa imkan verir: yuxarıda ifadə edilən anlama konseptual keçidə nail olmaq üçün elmi-filoloji, bədii-tarixi yanaşma müstəvisini "aşaraq" (yəni transfənni keçid edərək) fəlsəfi epistemoloji yanaşma müstəvisinə "koqnitiv-metodoloji miqrasiya" edilməlidir. Qəzet formatının imkan verdiyi çərçivədə bunun izahı üzərində dayanaq.

Sinergetikada nəzəri olaraq sübut edilmişdir ki, hər hansı anlayışlar sistemi yarandığı "nəzəri ölçü" daxilində yeni mənalandırıla bilmir. Bunun üçün həmin anlayışlar sistemi daha çoxölçülü koqnitiv sahəyə proyeksiya olmalıdırlar. Bu halda yeni mənalar sistemi (və ya şəbəkəsi) yaranır ki, daha ümumi konsepsiya formalaşır.

Belə alınır ki, istənilən mövcud nəzəri konsepsiyada məna yükünə malik anlayışların daha geniş (bu anlamda nisbi universal) semantik sahədə "yeni məna" kimi özünütəsdiqi üçün mövcud olandan daha artıq "idraki ölçülərə" malik "sahəyə transfer edilməlidir" (bu ümumi tezisin fəlsəfi izahı burada imkansızdır, ona görə də onu fakt kimi qəbul edək). Lakin bizcə, ədəbiyyatın dövrləşdirilməsi konsepsiyasından bütövlükdə Azərbaycan elmi humanitariyasının antropoloji universal səviyyəyə keçidinin fəlsəfi yanaşma tələb etməsinin ümumi cizgiləri aydındır.

Digər məqam vurğulanan anlamda konseptual universallaşmanın idrak nəzəriyyəsi səviyyəsində yanaşma tələb etməsi ehtiyacı ilə bağlıdır. Bu da faktiki olaraq, Azərbaycan elmi humanitariyası üçün yeni epistemoloji sistemin hazırlanması anlamına gəlir. Aydındır ki, kifayət qədər mürəkkəb və çətin vəzifədir. Ancaq Azərbaycanşünaslıq çərçivəsində ciddi elmi yanaşmanı formalaşdırmaq istəyiriksə, başqa yol yoxdur. Azərbaycan elmi humanitariyasının universal antropoloji obrazı elə əsaslı olmalıdır ki, müasir dövrün elmilik tələblərinə tam cavab versin.

### Azərbaycanşünaslığın "AMEA məktəbi"

Yuxarıda vurğulanan məqamlardan görünür ki, artıq Azərbaycanşünaslığın "AMEA məktəbi" formalaşmaqdadır (yəni proses dinamikadadır). Onun ümumi nəzəri-konseptual və metodoloji sərhədlərini AMEA prezidentinin müəyyən etdiyi yeniləşmənin I prioritet istiqamətinin semantik, funksional və məqsəd özəllikləri müəyyən edir. Bu anlamda Azərbaycanşünaslığın "AMEA məktəbi"nin əsasını akademik İsa Həbibbəylinin qoyduğunu deyə bilərik.

Eyni zamanda, bu məktəbin formalaşması prosesində AMEA-nın sosio-humanitar elmlərinin alimləri iştirak edirlər. Burada problemin tarix, fəlsəfə, sosiologiya, filologiya, folklor, şərqşünaslıq, etnologiya və etnoqrafiya, antropologiya, arxeologiya və digər aspektləri üzrə çalışan zəhmətkeş alimlərimizin qiymətli araşdırmaları yer almaqdadır. Bu mənada Azərbaycanşünaslıq Akademiyanın yeniləşmə kursu çərçivəsində sosio-humanitar elmlərarası tədqiqatın mühüm istiqamətlərindən biridir. Bizcə, faktiki olaraq bu əsasda AMEA-da fənlərarası yaradıcı tədqiqat komandasının formalaşması mərhələsinə qədəm qoyulmuşdur.

Birincisi, Azərbaycanşünaslığın ideya, metodologiya, dünyagörüşü, biliklərin alınması və ekspertizasının başlıca prinsipləri AMEA-da sistemli və davamlı olaraq işlənməkdədir.

İkincisi, vurğulanan istiqamətdə elmi tədqiqat fəaliyyətinin təşkilatın strateji inkişaf konsepsiyası və "Yol Xəritəsi" çərçivəsində ideyası, konsepti, konsepsiyası, elmi yanaşması, məntiqi əsası, praktiki tətbiqi imkanları, biliklərin ekspertizasının təşkili və bütövlükdə tədqiqat hədəflərinin AMEA-da başa çatdırılması nəzərdə tutulmuşdur.

Bu məqamların prizmasında Azərbaycan elmi humanitariyasının antropoloji universallaşmasının bir sıra ümumi fəlsəfi-epistemoloji özəlliklərinə baxmaq mümkündür.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Ötən nömrəmizdə Davosda Avropa İttifaqına (Aİ) üzv ölkələrin görüşündən bəhs etmişdik. Maraqlıdır ki, həmin görüşdən sonra mediada 2026-cı ilin Aİ üçün "kritik il" kimi qiymətləndirildiyi barədə xəbərlər yayılmağa başlayıb. Şübhəsiz, bu qənaətin formalaşmasında Davos İqtisadi Forumu çərçivəsində Aİ liderlərinin keçirdiyi çoxsaylı təmaslar, qapalı müzakirələr, strateji sessiyalar, İttifaqa ünvanlanan tənqidlər mühüm rol oynayıb.**

# Aİ-nin "tərəfdaşlıq" modeli sual altında

## *Daxili zəifliklər xarici siyasətə təsir edir*

ABŞ Prezidenti Donald Trampın çıxışına Avropanın hazırkı siyasi və iqtisadi kursunu tənqid etməklə başlaması məsələni daha da alovlandırıb. O bildirib ki, Avropa düzgün istiqamətdə irəliləmir: "Biz Avropanın güclü olmasını istəyirik. ABŞ Avropa xalqlarına çox qayğı göstərir. Biz həqiqətən də qayğı göstəririk. Biz Avropa ilə paylaşdığımız bağlara dərindən inanırıq. Buna görə də enerji, ticarət, immiqrasiya və iqtisadi artım kimi məsələlər güclü və vahid Qərb görmək istəyən hər kəs üçün əsas narahatlıqlar olmalıdır". Əslində nəzərə alsaq ki, Davos uzun illərdir qlobal iqtisadi və siyasi gündəmin barometri kimi çıxış edir, burada səslənən mesajlar müxtəlif istiqamətlərin real göstəricisi sayılır. Aİ liderləri də açıq şəkildə etiraf edirlər ki, İttifaqın mövcud institusional və iqtisadi modeli artan geosiyasi təzyiqlər, daxili siyasi fraqmentasiya, eləcə də sosial radikallaşma fonunda əvvəlki kimi effektiv deyil.



Bu kontekstdə 2026-cı il bir növ "sınaq ili" kimi də dəyərləndirilə bilər. Aİ ya islahatlar yolu ilə iqtisadi birliyini və qərar qəbuletmə qabiliyyətini gücləndirməlidir, ya da daxili ziddiyyətlər qurumun qlobal aktor kimi rolunu zəiflədəcək. Ultra-millətçi və populist qüvvələrin bir sıra üzv dövlətlərdə siyasi üstünlük qazanması, təhlükəsizlik mülahizələri ilə bəzi aktiv siyasi fiqurların həbsi və ya prosesdən kənarlaşdırılması, eləcə də cəmiyyətlərdə dərinləşən radikallaşma kritik situsiyaya əlavə dinamika qatır. Digər bir düşündürücü məqam odur ki, proseslər Aİ-nin daxili strukturuna və xarici tərəfdaşları ilə münasibətlərinə necə təsir göstərəcək? Xatırlatmaqda fayda var ki, İttifaqın iqtisadi birliyi uzun müddət onun ən güclü dayağı hesab olunub. Vahid bazar, sərbəst kapital və işçi qüvvəsi axını Aİ-ni qlobal iqtisadiyyatın mərkəzi aktorlarından birinə çevirib. Amma son illərdə bu modelin ciddi çatışmazlıqları üzə çıxıb. Çünki üzv dövlətlər arasında iqtisadi inkişaf səviyyəsinin kəskin fərqlənməsi qərarların icrasında konsensusun əldə olunmasını çətinləşdirir. Şimal–Cənub, Qərb–Şərq ölkələri arasında fiskal intizam, sosial xərclər və sənaye siyasəti ilə bağlı baxışlar getdikcə daha çox parçalanır. Bununla yanaşı, enerji böhranı və inflyasiya dalğası Aİ-nin iqtisadi idarəetmə mexanizmlərinin çevik olmadığını göstərir. Bir sıra hallarda milli hökumətlər Brüsselin koordinasiyasını gözləmədən öz daxili bazarlarını qorumağa üstünlük verirdilər ki, bu da vahid bazar prinsiplərinə zidd idi. İslahat tələblərinin əsas səbəbi də budur. İqtisadi birliyin dərinləşdirilməsi olmadan siyasi birlik və strateji muxtariyyət mümkün görünmür.

Yeri gəlmişkən, Aİ-nin ən həssas nöqtələrindən biri qərar qəbuletmə mexanizmidir. Konsensus və ya yekdillik prinsipi üzv dövlətlərin suveren maraqlarını qorumaq baxımından mühüm olsa da, böhran anlarında bu mexanizm ləngllik yaradır. Xarici siyasət, təhlükəsizlik və vergi məsələlərində bir üzv dövlətin veto hüququ hətta bütöv İttifaqın mövqeyini iflic edə bilir. Bu baxımdan, səs çoxluğu mexanizminin genişləndirilməsi, Avropa Komissiyasının icra səlahiyyətlərinin artırılması və Avropa Parlamentinin rolunun gücləndirilməsi məsələsinin də gündəmdə olması təsadüfi deyil. Ultra-millətçi partiyaların yüksəlişi isə bu iradəni daha da zəiflədir. Çünki həmin qüvvələr Brüsselin səlahiyyətlərinin genişlənməsini milli suverenliyə təhdid kimi qəbul edirlər. Ümumiyyətlə, son onillikdə Avropada ultra-millətçi və populist qüvvələrin fəallaşması artıq struktur tendensiyaya çevrilib. Miqrasiya böhranı, iqtisadi qeyri-müəyyənlik, təhlükəsizlik qorxuları və milli kimlik məsələsi bu qüvvələr üçün münbit zəmin yaradıb. Maraqlıdır ki, sağ təmayüllü partiyalar bir tərəfdən Aİ institutlarını "xalqdan uzaq" və "bürokratik" kimi tənqid etsələr də, daxili bazarın və vahid siyasətin verdiyi üstünlüklərdən tam imtina etmirlər. Nəticədə, paradoksal vəziyyət yaranır: Aİ-nin resurslarından faydalanan, lakin onun dərinləşməsinə qarşı çıxan siyasi aktorlar güc qazanırlar.

Avropada son illər təhlükəsizlik mülahizələri ilə bəzi siyasi fəalların, radikal qrupların, hətta tanınmış ictimai fiqurların həbsi və ya siyasi prosesdən kənarlaşdırılması prosesi də müşahidə olunur. Rəsmi arqument terrorla mübarizə və ictimai asayişin qorunması olsa da, bu yanaşmanın ciddi riskləri də var. Yəni fərdlərə qarşı həyata keçirilən sərt tədbirlər cəmiyyətlərdəki struktur problemləri aradan qaldırmır. Əksinə, bəzi hallarda radikallaşmanı daha da dərinləşdirir.

Sonda qeyd edək ki, daxili zəifliklər Aİ-nin xarici siyasətinə birbaşa təsir göstərir. Qərar qəbuletmədəki parçalanma və siyasi qeyri-müəyyənlik Aİ-ni tərəfdaşlar üçün bəzən proqnozlaşdırılması çətin aktora çevirir. Bu kontekstdə enerji, ticarət və təhlükəsizlik sahələrində etibarlı tərəfdaşlıq anlayışı ön plana çıxır. Aİ üçün strateji tərəfdaşlarla münasibətlərin sabitliyi daxili islahatların uğurundan birbaşa asılıdır. Məsələn, Azərbaycan Aİ üçün mühüm enerji tərəfdaşıdır. Cənub Qaz Dəhlizi və digər enerji layihələri Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Xüsusilə Rusiya-Ukrayna müharibəsindən sonra Aİ-nin enerji diversifikasiyası strategiyasında Azərbaycanın çəkisi daha da artıb. Ən əsası birlik daxilindəki siyasi fraqmentasiya xarici tərəfdaşlarla münasibətlərə də təsirsiz ötüşməyə bilər. Çünki bəzi üzv dövlətlər enerji təhlükəsizliyini prioritet sayarkən, digərləri insan haqları və daxili siyasi prosesləri ön plana çəkir. Bu ikili yanaşma Aİ-nin vahid enerji diplomatiyasını zəiflədir. Əgər, Aİ-nin institusional islahatları uğurla həyata keçirilərsə, xarici tərəfdaşlarla münasibətlər daha praqmatik və uzunmüddətli strategiya əsasında inkişaf edə bilər. Əks halda, çoxtərəfli münasibətlərdə ziddiyyətlərin müşahidə olunması qaçılmazdır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*

**Yeganə HACIYEVA,**
**politoloq**



Avropa İttifaqının mövcud çağırışlardan çıxış yolu dərin və hərtərəfli institusional, iqtisadi və təhlükəsizlik islahatlarının həyata keçirilməsindən keçir. İlk növbədə, Aİ-nin qərarvermə mexanizmlərinin daha çevik və effektiv olması vacibdir. Xüsusilə üzv ölkələrin veto hüququnun tez-tez birlik daxilində iflic yaradan alətə çevrilməsini əngəlləmək üçün institusional islahatlar qaçılmazdır. İqtisadi sahədə Aİ-nin əsas məqsədi qlobal rəqabət qabiliyyətini qorumaqdır və bu sahəni Aİ-nin ən uğurlu sahəsi adlandıra bilərik. Enerji təhlükəsizliyi, sənaye siyasətinin gücləndirilməsi, strateji xammal və texnologiyalarda xarici asılılığın azaldılması bu islahatların əsas istiqamətlərindən ola bilər. Eyni zamanda, Aİ daxilində sosial-iqtisadi bərabərsizliklərin dərinləşməsi birlik daxilində narazılıqları artırdığı üçün bu sahədə də balanslı yanaşma çox vacibdir. Təhlükəsizlik müstəvisində isə Aİ-nin daha müstəqil və koordinasiyalı siyasət yürütməsi zəruridir. Ukrayna müharibəsi və artan qlobal risklər onu göstərdi ki, Avropa yalnız iqtisadi birlik olaraq qalmamalı, müdafiə, kiber təhlükəsizlik və hibrid təhdidlərə qarşı birgə mexanizmləri gücləndirilməlidir. Amma məsələ ondadır ki, sadaladığım bütün bu islahatlar texniki baxımdan mümkün olsa da, əsas həlledici amil siyasi iradədir.

Üzv dövlətlərin milli maraqları kənara qoyaraq ümumi Aİ maraqları ətrafında razılaşa bilməməsi islahatları ləngidəcək. Məhz bu baxımdan 2026-cı il Aİ üçün taleyüklü mərhələ sayılır və birlik iki seçim önündədir. Aİ ya özünü yeniləyərək qlobal təsir gücünü artıracaq, ya da daxili ziddiyyətlər fonunda sonunda təşkilatı parçalamaya gətirəcək zəifləmə prosesinə şahid olacağıq.

# Qlobal qeyri-müəyyənlik fonunda Azərbaycan iqtisadiyyatının üstünlükləri



*(əvvəli 1-ci səhifədə)*

## Qlobal iqtisadi kontekst: sabitlik vacibdir

Müasir makroiqtisadi düşüncədə son onilliyin ən mühüm dönüşü ondan ibarətdir ki, iqtisadi siyasətin uğuru artıq artımın sürəti ilə deyil, şoklar qarşısında davamlı olmaq qabiliyyəti ilə ölçülür. Dani Rodrikin institusional uyğunlaşma yanaşması, Olivier Blanşardın fiskal dayanıqlıq konsepsiyası və Josef Stiqlitsin riskə əsaslanan artım modeli fərqli nəzəri məktəblərə məxsus olsa da, eyni nəticəyə gəlir: qlobal qeyri-müəyyənlik şəraitində əsas üstünlük çevik institutlara, fiskal "bufer"lərə və daxili artım dayaqlarına malik olmaqdır.

Bu nəticə empirik faktlarla da təsdiqlənib. 2008–2009-cu illərin qlobal maliyyə böhranı göstərdi ki, böhran öncəsi yüksək artım tempinə baxmayaraq fiskal intizamı zəif və borc dinamikası nəzarətsiz olan ölkələr şok zamanı daha dərin resessiya, daha yüksək işsizlik və uzunmüddətli sosial itkilərlə üzləşdilər. Əksinə, ehtiyatlı fiskal siyasət aparmış və makroiqtisadi buferlər formalaşdırmış ölkələr böhranı nisbətən yumşaq trayektoriya ilə keçə bildilər. 2020-ci il pandemiyası isə bu fərqi daha da kəskinləşdirərək göstərdi ki, sabitlik böhrana reaksiya vermək deyil, böhranı əvvəlcədən qabaqlamaq qabiliyyətidir.

Məhz bu kontekstdə son illərdə qlobal ticarətin zəifləməsi, bazarlarda dəyişkənliyin artması və investorların inkişaf etməkdə olan bazarlara daha ehtiyatlı yanaşması əvvəlki iqtisadi modelin sərhədlərinə çatdığını göstərir. BVF-nin 2026-cı il icmalında vurğulanır ki, dünya iqtisadiyyatı artıq klassik tsiklik dalğalanma mərhələsində deyil. O, daha uzunmüddətli və struktur xarakterli "yeni normallaşma" dövrünə daxil olub. Bu mərhələdə iqtisadiyyatın artım templəri zəifləyir, qlobal ticarətin miqyas effekti kiçilir, iqtisadi fraqmentasiya isə istehsal zəncirlərini daha bahalı və daha riskli edir. BVF-ə görə, növbəti 3 ildə qlobal iqtisadi artım 2010–2019-cu illərin orta göstəricisindən təxminən 0,5–0,7 faiz bəndi aşağı olacaq. Bu şəraitdə yüksək artım tempinə nail olmaq ölkələr üçün çətinləşib. Çox vaxt isə buna fiskal genişlənmə və borclanmanın artması hesabına nail olunmuşdur. BVF məhz buna görə vurğulayır ki, qısamüddətli artım uğurları uzunmüddətli sabitlik bahasına əldə edildikdə iqtisadiyyat ilk ciddi şokda kəskin geriləyir. BVF bunu "iqtisadi siyasətə etimad boşluğu" anlayışı ilə izah edir: siyasətə etimadın zəif olduğu iqtisadiyyatlarda inflyasiya daha uzunmüddətli olur və gəlirlərin bərpası gecikir.

Eyni yanaşma Davos-2026 müzakirələrində də ön plana çıxır. Forumun gündəliyində artıq "istənilən artım" yanaşması tükənmiş konsepsiya kimi təqdim olunur və onun yerini dayanıqlılığa əsaslanan artım tutur. Pandemiya və sonrakı enerji-geosiyasi şoklar sübut etdi ki, yüksək borclanma, zəif fiskal intizam və qeyri-müəyyənlik şəraitində əldə olunan iqtisadi artım dayanıqlı olmur. BVF-nin son müqayisəli təhlilləri bu tezisi faktiki məlumatlarla möhkəmləndirir. 2020–2024-cü illərdə fiskal buferləri məhdud və borc yükü yüksək olan ölkələrdə inflyasiya dalğası daha uzunmüddətli olmuş, sosial xərclərin effektivliyi azalmış və gəlirlərin bərpası gecikmişdir. Əksinə, maliyyə ehtiyatları formalaşdırmış, fiskal qaydalara əməl edən və daxili artım mənbələrini qoruyan ölkələr böhrandan sonra normallaşma mərhələsinə daha effektiv keçə bilmişdir. 2026-cı il perspektivində diqqətçəkən məqam qlobal kapital axınındakı dəyişiklikdir. Kapital artıq nə ucuzdur, nə də geniş miqyasda risk götürməyə meyllidir. İnvestisiya qərarları daha çox idarəetmənin keyfiyyətinə, makroiqtisadi sabitliyə və uzunmüddətli müəyyənliyə əsaslanmağa başlayır. Bu isə riskləri effektiv idarə edə bilməyən iqtisadiyyatların investisiya üstünlüyünü itirdiyini göstərir.

Beləliklə, müasir makroiqtisadi nəzəriyyə və son onilliklərin təcrübəsi eyni nöqtədə kəsişir: sabitlik ölkələr üçün artıq passiv vəziyyət deyil, əksinə, strateji aktivə çevrilmişdir. O, iqtisadi siyasətə manevr imkanları yaradan, sosial rifahı qoruyan və uzunmüddətli investisiya qərarlarını mümkün edən kapital hesab olunur. Məhz buna görə BVF-nin 2026-cı il hesabatı və Davos-2026 çərçivəsində formalaşan konsensus göstərir ki, müasir dövrdə iqtisadiyyatın real üstünlüyü nə qədər sürətlə böyümədə deyil, böyüməni nə qədər davamlı, balanslı və idarə olunan şəkildə reallaşdıra bilməkdədir.

## Azərbaycan iqtisadiyyatı: sabitlik qorunur, struktur dəyişir

2025-ci ildə ölkə iqtisadiyyatı, demək olar ki, bütün sahələrdə artım nümayiş etdirmişdir. Qlobal iqtisadi mühitdə artım templərinin zəiflədiyi, bir çox inkişaf etməkdə olan ölkələrin ya iqtisadi durğunluqla, ya da texniki resessiya ilə üzləşdiyi bir dövrdə bu, ilk baxışdan təvazökar görünə bilər. Prezident İlham Əliyevin Davosda vurğuladığı kimi, qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə Azərbaycanın əsas prioriteti makroiqtisadi sabitliyin qorunması, fiskal intizam və iqtisadiyyatın neftdənkənar sahələr üzrə şaxələndirilməsidir. Bu yanaşma ölkənin uzunmüddətli və dayanıqlı inkişafı qısamüddətli risklər bahasına qurban verməmək prinsipinə əsaslanır. Eyni zamanda müasir makroiqtisadi təhlildə əsas meyar artıq artımın mütləq səviyyəsi deyil, müqayisəli dayanıqlıq və şoklara davamlılıqdır. Bu baxımdan ölkəmiz 2025-ci ildə qlobal zəifləmə fonunda makroiqtisadi sabitliyi qorumağa nail olan məhdud sayda dövlətlər qrupunda yer alır.

Beynəlxalq təcrübə göstərir ki, qlobal maliyyə şərtlərinin sərtləşdiyi və ticarət kanallarının zəiflədiyi dövrlərdə iqtisadi artımın dayanmasının qarşısını almaq özlüyündə mühüm nailiyyətdir. Xüsusilə iqtisadi siyasət üçün manevr imkanları məhdud olan ölkələrdə artımın kəskin şəkildə zəifləməsi sosial rifahda ciddi itkilərə yol açır. Azərbaycan nümunəsində isə ümumi artımın müsbət zonada saxlanılması iqtisadi siyasətin və əvvəlki illərdə formalaşmış "sabitlik buferi"nin nəticəsi kimi qiymətləndirilməlidir. Strateji baxımdan daha mühüm məqam ondan ibarətdir ki, bu artımın əsas lokomotivi artıq neft-qaz sektoru deyil. 2025-ci ildə qeyri-neft/qaz sektoru real ifadədə 2,7 faiz artaraq 92,3 milyard manata çatmışdır. Bu, o demədkri ki, iqtisadiyyatda ümumi əlavə dəyərin 72 faizi məhz qeyri-neft sektorunda yaranır. Bu dinamika iqtisadiyyatın tədricən balanslaşdığını və diversifikasiya xəttinin dərinləşdiyini göstərir. Başqa sözlə, artım artıq tək bir sektorun üzərində dayanmaqdan çıxır. Neft hasilatının təbii azalması fonunda ümumi iqtisadi artımın qorunması məhz qeyri-neft sektorunun genişlənməsi hesabına mümkün olmuşdur ki, bu da uzunmüddətli dayanıqlılıq baxımından həlledici əhəmiyyət daşıyır.

Təcrübədə müxtəlif ölkələr bu keçidi fərqli yollarla həyata keçirib. Məsələn, Cənubi Koreya 1980-ci illərdə ixrac yönümlü sənayeləşmə strategiyası hesabına iqtisadi artımın əsas mənbəyini aşağı məhsuldarlıqlı sahələrdən yüksək əlavə dəyərli emal sənayesinə keçirmişdir. Malayziya 1990-cı illərdə resurs gəlirlərindən istifadə edərək sənayeni və xidmət sektorunu gücləndirmiş, bununla da iqtisadi artımı daha balanslı etmişdir. Norveç isə neft gəlirlərini fiskal qayda və suveren fond mexanizmi vasitəsilə iqtisadiyyatın uzunmüddətli dayaqlarına çevirmişdir.

Azərbaycanın keçdiyi yolun bu modellərlə birbaşa konseptual oxşarlığı aydın görünür: iqtisadi artım tədricən daxili istehsal, xidmət, logistika və insan kapitalına əsaslanmağa başlayır. Bu, iqtisadiyyatın həm xarici qiymət şoklarına həssaslığını azaldır, həm də uzunmüddətli məşğulluq və gəlir yaratmaq imkanlarını gücləndirir. Adambaşına düşən gəlirlərdə artımın qorunması isə bu struktur dəyişikliyin sosial ölçüsünü əks etdirir. Demoqrafik artım şəraitində adambaşına düşən gəlirin azalması inkişaf etməkdə olan ölkələr üçün tipik haldır. Ötən il ölkəmizdə bu göstəricidə irəliləyiş onu göstərir ki, iqtisadi artım əhali artımı fonunda "ərimir", əksinə, sosial sabitliyi dəstəkləyən iqtisadi baza yaradır. Bu xüsusiyyət orta gəlirli ölkələr üçün strateji üstünlük hesab olunur, eyni zamanda ölkə iqtisadiyyatının struktur transformasiyasını itkisiz və idarə olunan şəkildə həyata keçirildiyini təsdiq edir.

## Qeyri-neft sektorunun strukturu və dinamikası

2025-ci ilin makroiqtisadi mənzərəsi Azərbaycan iqtisadiyyatında mühüm keyfiyyət dəyişikliyinin baş verdiyini göstərir: iqtisadi artımın mənbələri şaxələnir, iqtisadiyyatın daxili strukturu isə daha balanslı və dayanıqlı formaya doğru transformasiya olunur. Qeyri-neft sektorunun həcmi bu transformasiyanın gücləndiyini təsdiqləyir. 2021–2025-ci illərdə bu sahə orta hesabla hər il ortalama 6 faiz artmışdır. Bu göstərici dünya üzrə orta artım tempini əhəmiyyətli üstələyir. Burada üstünlük sektorun hansı sahələr hesabına formalaşmasıdır. Ötən il qeyri-neft sektorunda əlavə dəyərin 8.3 faizi qeyri-neft sənayesində yaranmış və bu sahə 5,5 faiz artmaqla əsas "məhsuldarlıq nüvəsi" kimi çıxış etmişdir. Bu sahənin əhəmiyyəti ondan ibarətdir ki, o, iqtisadi artımı texnologiya, emal və ixrac qabiliyyəti ilə dəstəkləyir. Daha da önəmlisi, qeyri-neft sənayesinə yönələn investisiyaların 26 faiz artmasıdır və göstərir ki, bu artım kapital dərinləşməsi və istehsal potensialının genişlənməsi ilə müşayiət olunur. Məhz belə üstün investisiya əsaslı iqtisadi artım inkişaf nəzəriyyəsində dayanıqlı artımın əsas şərti hesab olunur.

Bu kontekstdə ümumi sənaye məhsulunda qeydə alınan cüzi azalma struktur baxımdan yanlış şərh edilməməlidir. Neft hasilatının təbii azalması fonunda sənayenin ümumi həcminin azalması resurs iqtisadiyyatı üçün gözlənilən və idarə olunan prosesdir. Əsas təhlükə hasilatın azalması deyil, onu əvəzləyə biləcək alternativ istehsal bazasının formalaşıb-formalaşmamasıdır. Azərbaycanda ötən ilin göstəriciləri isə əksinə, emal və daxili istehsalın artım dinamikasında olduğunu göstərir. Bu, iqtisadiyyatın ikili strukturdan çıxdığını təsdiqləyən mühüm faktdır.

Əsas kapitala yönəldilmiş investisiyaların ümumi həcminin azalması da makroiqtisadi zəiflik kimi qiymətləndirilməməli, əksinə, investisiya tsiklinin mərhələli tamamlanmasının göstəricisidir. Daha əvvəl iri infrastruktur layihələrinə yönəlmiş investisiyaların payının azalması fonunda, kapitalın qeyri-neft sənayesi kimi daha yüksək məhsuldarlıq yaradan sahələrə yönəlməsi iqtisadi siyasətin keyfiyyətcə dəyişdiyini göstərir. Bu keçid, resurs gəlirlərinin fiziki obyektlərdən çox istehsal potensialı yaradan aktivlərə yönəlməsi deməkdir.

Struktur transformasiyanın digər mühüm dayağı kənd təsərrüfatı sektorudur. Ötən ildə bu sahənin 1 faiz artması sürətli genişlənmə anlamına gəlməsə də, sektorun funksional rolu baxımından əhəmiyyətlidir. Bitkiçilik və heyvandarlıq sahələrində paralel artım ərzaq təhlükəsizliyi risklərinin idarə olunduğunu, regionlarda gəlir bazasının qorunduğunu və inflyasiya şoklarının sosial təsirinin yumşaldıldığını göstərir. Dünya təcrübəsində kənd təsərrüfatı məhz yüksək inflyasiya və qeyri-müəyyənlik dövrlərində makroiqtisadi sabitliyin "səssiz amortizatoru" kimi çıxış edir. Azərbaycan üçün də bu sektor sosial sabitliyin əsas dayaqlarından biri olaraq qalır.

Xidmətlər sektorunda, xüsusilə nəqliyyat, logistika və informasiya-rabitə sahələrində müşahidə olunan dinamika isə iqtisadiyyatın yeni artım mərkəzlərinin formalaşdığını göstərir. Qeyd edək ki, 2025-ci ildə qeyri-neft ÜDM-nin 13 faizi bu sahələrin hesabına formalaşmışdır. Yük və sərnişin daşımalarının artması Azərbaycanın regional tranzit rolunun möhkəmləndiyini təsdiqləyir və Orta Dəhliz strategiyasının artıq abstrakt konsepsiya deyil, makroiqtisadi statistikada əks olunan real prosesə çevrildiyini göstərir. Logistika sektoru burada təkcə xidmət sahəsi kimi deyil, qeyri-neft ixracının maya dəyərini azaldan və iqtisadiyyatı regional dəyər zəncirlərinə bağlayan strateji infrastruktur funksiyası daşıyır. İnformasiya və rabitə xidmətlərində 8,7 faizlik artım isə müasir iqtisadiyyata keçidin ən vacib struktur göstəricilərindən biridir. Bu sektorun genişlənməsi iqtisadiyyatın texnoloji komponentinin gücləndiyini, məhsuldarlığın fiziki kapitalla yanaşı, bilik, rəqəmsallaşma və innovasiya vasitəsilə artdığını göstərir. Estoniya və Litva kimi ölkələrin orta gəlir tələsindən çıxmasında məhs bu amillər həlledici rol oynamışdır.

Bütün bu alt-sahə dinamikaları Azərbaycanın müasir iqtisadiyyata keçid modelinin konturlarını formalaşdırır. Bu model neft gəlirlərinin makroiqtisadi sabitlik → məqsədli investisiya → məhsuldarlıq artımı → qeyri-neft ixracı və yüksək dəyərli xidmətlər zənciri vasitəsilə milli rifaha çevrilməsi üzərində qurulur. 2025-ci ilin göstəricilərinə görə Azərbaycan artıq bu zəncirin ilk iki mərhələsini uğurla keçmiş, üçüncü mərhələdə, yəni məhsuldarlıq əsaslı struktur transformasiya mərhələsində güclənir. Beləliklə, mövcud mənzərə sürətli sıçrayışdan daha çox, dərin və idarə olunan keçid mərhələsini əks etdirir. Qlobal qeyri-müəyyənlik şəraitində belə keçid modeli uzunmüddətli iqtisadi təhlükəsizliyin, sosial sabitliyin və dayanıqlı rifahın ən etibarlı təminat mexanizmi kimi çıxış edir.

## Gəlirlər, inflyasiya və rifahın qorunması

2025-ci ilin sosial-iqtisadi mənzərəsi göstərir ki, Azərbaycanda iqtisadi artım yalnız statistik göstəricilərdə qalmır, əhalinin rifahında da hiss olunan nəticələr yaradır. Gəlirlərdə artımın inflyasiyanı üstələməsi və orta aylıq əməkhaqqınının 1089 manata çatması real gəlirlərin qorunduğunu, əksər sahələr üzrə isə davamlı artdığını göstərir. Qlobal miqyasda bir çox ölkələrdə inflyasiya şoklarının alıcılıq qabiliyyətini azaltdığı bir dövrdə ölkəmizin nail olduğu bu nəticə xüsusi diqqət çəkir.

Müqayisə üçün xatırlatmaq kifayətdir ki, 2022–2024-cü illərdə Avropa İttifaqının bir sıra ölkələrində, eləcə də Türkiyə və Latın Amerikasında gəlirlər nominal olaraq artsa da, inflyasiya bu artımı üstələmiş və nəticədə real ifadədə azalmışdı. Azərbaycan nümunəsində isə qiymət artımı əmək bazarını və gəlir dinamikasını sıxışdıra bilməyib. Bu fərqin əsas səbəbi daxili tələbatın süni fiskal genişlənmə ilə deyil, real alıcılıq qabiliyyəti hesabına formalaşmasıdır. Ölkəmizdə dövlət xərcləri qısamüddətli artım effekti yaratmağa yönəlmir, əksinə, gəlir və məşğulluğun qorunmasına yönəlib. Nəticədə gəlirlərin qiymətləri "təqib etdiyi" inflyasiya spiralı riski zəifləyib. Dünya Bankı və BVF təhlillərində də vurğulanır ki, məhz bu spiral bir çox ölkələrdə inflyasiyanın uzunmüddətli xarakter almasının əsas səbəblərindən biridir.

Real gəlirlərin qorunması iqtisadi gözləntilərin sabit qalmasına da xidmət edir. Təcrübə göstərir ki, gələcək gəlirlərə inam zəiflədikdə istehlak azalır, investisiyalar təxirə salınır və iqtisadiyyat öz-özünü zəiflədən mərhələyə daxil olur. 2008-ci ildən sonra Yunanıstan və İspaniya bu prosesin klassik nümunələridir. Azərbaycanda isə gəlir dinamikası bu cür iqtisadi "donma" risklərini məhdudlaşdırıb. Bu etimad bank əmanətlərinin 13,7 faiz artmasında da açıq görünür. Əmanətlərin artımı gəlirlərin yüksəlməsi, insanların maliyyə sisteminə və ümumi iqtisadi sabitliyə olan inamı ilə bağlıdır. Qlobal qeyri-müəyyənlik dövründə bir çox ölkələrdə yığımlar sistemdən kənara çəkildiyi halda, Azərbaycanda əks proses müşahidə olunur: vəsaitlər bank sektorunda qalır və iqtisadi dövriyyəni dəstəkləyir. Bu tendensiya bank sektorunun rolunu da tədricən dəyişir: de-dollarizasiya meyilləri güclənir, faiz mühiti yığımları stimullaşdırır və nağd vəsaitlər bank sisteminə keçir. Maliyyə sistemi yalnız istehlakı maliyyələşdirən mexanizm olmaqdan çıxaraq, yığım–investisiya zəncirinin əsas dayağına çevrilir. Almaniya, Cənubi Koreya və Yaponiya təcrübəsi göstərir ki, məhz bu mexanizm uzunmüddətli sənaye və texnoloji inkişafın maliyyə əsasını formalaşdırır. Azərbaycan üçün də bu proses qeyri-neft sektorunda məhsuldarlığın artması baxımından strateji əhəmiyyət daşıyır.

İqtisadi dayanıqlığın digər əsas sütunu fiskal balansdır. 2025-ci ildə dövlət büdcəsinin profisitlə icra olunması qlobal borclanma böhranı fonunda Azərbaycanın mühüm üstünlüyü kimi qiymətləndirilməlidir. Pandemiya və enerji şoklarından sonra bir çox ölkələrdə borc yükü kəskin artdığı halda, Azərbaycanda fiskal intizam və ehtiyatların qorunması iqtisadi siyasətin effektivliyini göstərir. Norveç və Çili təcrübəsinə görə fiskal profisit həm büdcə göstəricisi, həm də iqtisadi siyasət üçün manevr imkanı yaradan aktiv olmuşdur. Azərbaycanın fiskal mövqeyi də bu məntiq üzərində qurulub: sosial öhdəliklər qorunur, eyni zamanda gələcək şoklara hazırlıq saxlanılır.

Xarici sektorun dinamikası bu balansı tamamlayır. Qlobal ticarətin zəifləməsi fonunda ticarətin ümumi həcmində dəyişiklik gözləniləndir. Lakin qeyri-neft ixracının artması, çeşidinin və coğrafiyasının genişlənməsi struktur baxımdan müsbətdir. Bu, iqtisadiyyatın xammal qiymətlərindən asılı olmayan gəlir mənbələri formalaşdırdığını göstərir. Malayziya və Polşa nümunələrində olduğu kimi, ixracın strukturunun dəyişməsi milli valyutanın sabitliyini gücləndirir və iqtisadiyyatı xarici şoklara davamlı edir. Azərbaycan üçün qeyri-neft ixracının genişlənməsi məhz bu məntiqi daşıyır: tədiyə balansına təzyiqlər azalır, məzənnə sabitliyi möhkəmlənir və post-resurs dövrünə transformasiya daha dayanıqlı mərhələyə daxil olur.

## Strateji dövrün ideologiyası

Qlobal iqtisadiyyatda fragmentasiya, sürətli texnoloji dəyişikliklər və enerji transformasiyası ilə səciyyələnən yeni mərhələdə ölkələrin rəqabət üstünlüyü ayrı-ayrı sahələr üzrə artım templəri ilə yanaşı, strateji prioritetlərin vahid və əlaqəli sistem daxilində necə formalaşdırılmasından asılıdır. Dəyər zəncirlərinin qısaldığı, kapitalın riskə daha həssas yanaşdığı və enerji xərclərinin iqtisadi qərarlar üçün əsas amilə çevrildiyi bu şəraitdə dayanıqlı inkişaf modelləri sektorlararası sinerji üzərində qurulur.

Bu baxımdan Prezident İlham Əliyevin Davos platformasında vurğuladığı yaşıl enerji, data infrastrukturu və hasilat sənayesinin yeni mərhələsi Azərbaycanın müasir inkişaf modelinin əsas sütunları kimi çıxış edir. Qlobal təcrübə göstərir ki, bərpa olunan enerji təkcə iqlim öhdəliklərinin yerinə yetirilməsi aləti deyil, eyni zamanda sənayenin rəqabət qabiliyyətini formalaşdıran həlledici faktordur. Almaniya və Niderlandda yaşıl enerji əsaslı sənaye zonalarının formalaşması məhz enerji xərclərinin stabilliyi hesabına mümkün olub. Skandinaviya ölkələrində isə ucuz və "təmiz" enerji data mərkəzlərinin cəmləşməsində əsas üstünlüklərdən birinə çevrilib. Azərbaycan üçün yaşıl enerji eyni funksiyanı daşıyır: sənaye, logistika və data mərkəzləri üçün proqnozlaşdırılan enerji xərcləri yaratmaqla ölkəni regional miqyasda "yaşıl enerji ilə dəstəklənən istehsal və xidmət platforması" kimi mövqeləndirir.

Data və rəqəmsal infrastruktur bu arxitekturanın məhsuldarlıq və səmərəlilik nüvəsini təşkil edir. Qlobal kapital axınlarının son illərdəki dinamikası göstərir ki, investisiya qərarları artıq yalnız bazar ölçüsü və ya ucuz əmək üstünlükləri ilə məhdudlaşmır. Məlumat axınlarının etibarlılığı, rəqəmsal idarəetmənin keyfiyyəti və dövlət-biznes münasibətlərində şəffaflıq daha həlledici rol oynayır. Estoniya nümunəsində rəqəmsallaşma bütün iqtisadiyyat üzrə məhsuldarlıq sıçrayışına səbəb olub. İrlandiyada isə data mərkəzləri ölkənin xarici investisiya strategiyasının əsas dayaqlarından birinə çevrilib. Azərbaycan üçün data prioriteti də bu məntiqə əsaslanır: data mərkəzləri və rəqəmsallaşmış logistika İKT sektoru ilə yanaşı, bütövlükdə iqtisadiyyat üzrə məhsuldarlığı artırır və institusional etimadı gücləndirir.

Hasilat sahəsinə verilən prioritet isə klassik xammal yanaşmasından prinsipial şəkildə fərqlənir. Müasir iqtisadiyyatda hasilat sahəsinin inkişafı emal, texnologiya transferi və qlobal dəyər zəncirlərinə inteqrasiyaya da təsir göstərir. Norveç və Avstraliya təcrübəsində resurs sektorunun müasirləşdirilməsi sənaye bazasını genişləndirmiş və ixrac potensialını artırmışdır. Azərbaycan üçün də hasilat prioriteti resurs gəlirlərində modernləşməni və struktur dəyişikliyi dəstəkləyən alət kimi nəzərdə tutulur. Yaşıl enerji və data ilə sinxron işləyən hasilat sektoru resurs iqtisadiyyatını müasir inkişafın dayaq sütununa çevirir.

Bu üç prioritetin sintezi qlobal mühitdə geniş yayılmış "istənilən artım" yanaşmasından köklü şəkildə fərqlənir. Burada məqsəd qısamüddətli yüksək templər əvəzinə dayanıqlı artım, siyasətin müəyyənliyi və investisiya etimadının qorunmasıdır. Yaşıl enerji istehsal xərclərini və karbon risklərini azaldır, data idarəetməni və məhsuldarlığı yüksəldir, hasilat isə transformasiyanı dəstəkləyir. Nəticədə artım daha balanslı, iqtisadiyyat isə xarici şoklara qarşı daha davamlı olur. Nəticə etibarilə, bu yanaşma Azərbaycanın qlobal qeyri-müəyyənlik şəraitində fərqlənən üstünlüyünü formalaşdırır: sabitlik, transformasiya və rəqabət qabiliyyəti arasında tarazlıq yaranır. Davosda səsləndirilən bu prioritetlər göstərir ki, ölkəmizin 2025-ci ildəki makroiqtisadi nəticələri uzunmüddətli və düşünülmüş inkişaf strategiyasının mühüm nəticəsidir. Bu yanaşma Azərbaycanı nə sürətli, lakin kövrək artım yoluna, nə də durğun sabitlik tələsinə salır. Əksinə, idarə olunan dəyişiklik vasitəsilə rifaha aparan rasional inkişaf trayektoriyası yaradır.

Beləliklə, 2025-ci ilin nəticələri göstərir ki, qlobal qeyri-müəyyənliyin "yeni normallıq" kimi formalaşdığı bir mərhələdə Azərbaycanın iqtisadi üstünlüyü artımın sürətində deyil, onun dayanıqlığında və keyfiyyətində ifadə olunur. Qlobal miqyasda iqtisadi risklərin artdığı, kapitalın daha seçici davrandığı və ticarət əlaqələrinin zəiflədiyi şəraitdə ölkəmiz şoklara davamlı, balanslaşdırılmış və proqnozlaşdırıla bilən iqtisadi model qurmağı bacarıb. Qeyri-neft sektorunun genişlənməsi, məhsuldarlıq əsaslı artımın güclənməsi, logistika və rəqəmsal xidmətlərin iqtisadi dinamikanın mərkəzinə çevrilməsi göstərir ki, inkişaf modeli artıq struktur baxımdan möhkəmlənmə mərhələsinə daxil olub. 2025-ci ilin əsas dərsi ondan ibarətdir ki, çağırış artımın sürətini qısamüddətli artırmaq deyil, onun keyfiyyətini yüksəltməkdir: daha sabit və daha rəqabətqabiliyyətli böyümə.

Bu yanaşma qlobal investisiya mühitinin əsas meyarları – fiskal intizam, institusional etimad və uzunmüddətli müəyyənlik ilə tam uzlaşır. Yaşıl enerji, data infrastrukturu və hasilat sənayesinin yeni mərhələsi isə artıq ayrı-ayrı sektor seçimi deyil, Azərbaycanın iqtisadi modelinin dayaq sütunlarına çevrilir. Məhz bu balans – sabitliklə transformasiyanın uzlaşdırılması ölkənin qlobal qeyri-müəyyənlik fonunda əsas strateji üstünlüyünü formalaşdırır.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Azərbaycanın enerjisi, İsrailin texnologiyası

*Cənubi Qafqazdan Yaxın Şərqə uzanan iqtisadi körpü*

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 26-da İsrailin xarici işlər naziri Gideon Saarı qəbul edib. Xatırladaq ki, qısa zaman öncə Azərbaycan və İsrail prezidentləri Davosda iqtisadi, ticari və enerji sahəsində ikitərəfli əməkdaşlıq imkanlarını müzakirə etmişdi. Dünənki görüşdə də bu əməkdaşlıq gündəliyinə uyğun olaraq bir sıra məsələlərə toxunuldu. Enerji, süni intellekt və kənd təsərrüfatı sahələri üzrə əməkdaşlığın dərinləşdirilməsi qeyd edildi.**



Təsadüfi deyil ki, Saarın müşayiətində İsrailin 40-dan çox böyük biznes nümayəndəsi də olub. Onlar su və kənd təsərrüfatı sektorları, kiber təhlükəsizlik, mühəndislik, maliyyə və səhiyyə sahələrində fəaliyyət göstərən nəhəng şirkətləri təmsil edirlər. Digər tərəfdən, ölkəmizdə keçiriləcək Azərbaycan–İsrail biznes-forumuna da vurğu var idi. Bu forum ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına töhfə verəcək. Bu sammitlər və forumlar gələcək əməkdaşlıq üçün zəmin yaradaraq qarşılıqlı investisiyaların artırılmasını hədəfləyir.

Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və israilli həmkarı Gideon Saar ilə keçirilən brifinq də iqtisadi perspektivlər baxımından olduqca zəngin idi. Nəzərə alsaq ki, hazırda Azərbaycanda İsrail investisiyalı 130 kommersiya qurumu fəaliyyət göstərir və qarşılıqlı investisiyaların dəyəri təxminən 600 milyon dollardır. Cari ildə Azərbaycan ilə İsrail arasında ticarət dövriyyəsi isə 78 milyon dollardır. Yanvar-noyabr aylarında Azərbaycanın İsrailə qeyri-neft ixracı 27 faiz artaraq 2024-cü ilin eyni dövründəki 16 milyon dollardan təxminən 20,3 milyon dollaradək artıb.

İsrail xarici işlər nazirinin ölkəmizə səfəri Azərbaycan-İsrail biznes forumunun keçirilməsi çərçivəsində də olduqca əlamətdardır. Qeyd edək ki, forumda Azərbaycanın Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə İsrail İstehsalçılar Assosiasiyası (MAI) arasında Anlaşma Memorandumu imzalandı. Memorandumda iki ölkə arasında biznes missiyalarının səfərlərinin təşkili, qarşılıqlı investisiyaların yatırılması ilə bağlı araşdırmalar, B2B görüşlərin keçirilməsi, özəl sektor arasında əməkdaşlıq imkanlarının inkişafı və təcrübə mübadiləsinin həyata keçirilməsi və sair əməkdaşlıq istiqamətləri nəzərdə tutulur.

Münasibətlərdə, daha çox, enerji sektoru strateji əhəmiyyət kəsb edir. Türkiyə – Gürcüstan – Azərbaycan boru kəməri vasitəsilə Azərbaycan nefti İsrailə tədarük edilir. Azərbaycan Dövlət Neft Şirkəti ötən il İsrailin Aralıq dənizindəki Tamar qaz yatağında 10 faizlik pay alması da buna əyani misaldır. Bu yataq İsrailin elektrik enerjisinin təxminən 60–70 faizini ödəyir. SOCAR artıq BP və İsrailin "NewMed Energy" şirkəti ilə birgə İsrailin Xüsusi İqtisadi Zonasının blokları üzrə qaz kəşfiyyat lisenziyalarına malikdir. Bu addımlar Azərbaycanı Aralıq dənizindəki enerji layihələrinə daxil edir və regionda yeni ixrac yolları üzərində işləməyə imkan yaradır. Həmçinin, BTC kəməri vasitəsilə Azərbaycan nefti mütəmadi olaraq İsrailə nəql edilir. Enerji əməkdaşlığı digər istiqamətlərdə də özünü doğruldur. Məsələn, hər iki tərəf gələcəkdə bərpa olunan enerji (günəş, külək) və dayanıqlı texnologiyalar sahəsində yeni layihələrə üstünlük verməyi planlaşdırır.

Strateji tərəfdaşlıq enerji ilə məhdudlaşmır – yüksək texnologiyalar və startap sahəsində də sıx əlaqələr qurulur. Azərbaycan İnvestisiya Şirkəti ilə İsrailin "OurCrowd" investisiya platforması arasında 15 milyon ABŞ dolları məbləğində əməkdaşlıq sazişi imzalanıb. Bu saziş Azərbaycan startaplarına birbaşa investisiya cəlb etmək və onların sürətli inkişafını təmin etmək məqsədi daşıyır. Layihənin hədəf sahələri arasında energetika, səhiyyə texnologiyaları (healthtech), aqrar texnologiyalar (agtech), ərzaq texnologiyaları, təhsil texnologiyaları və kibertəhlükəsizlik var. Bu platforma vasitəsilə Azərbaycanın innovativ gənc şirkətləri İsrailin təcrübəli investorlarından mentorluq və maliyyə dəstəyi alacaq, ölkəmizin iqtisadiyyatında texnologiya transferini artıracaq.

Sənaye və texnologiya sahəsində digər mühüm addımlardan biri də İnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ilə İsrail Kosmik Sənayesi arasında imzalanan anlaşmadır. Bu memorandum çərçivəsində Azərbaycanda Yüksək Texnologiyalar Mərkəzi yaradılacaq, süni intellekt, kvant texnologiyaları, davamlı kosmik və enerji texnologiyaları üzrə birgə layihələr icra olunacaq. Bu kimi təşəbbüslər Azərbaycanı sənaye 4.0, "ağıllı şəhər" və kibertəhlükəsizlik sahələrində öncü hesab edilən İsrailin bilik və texnologiyaları ilə təmin edir.

İqtisadi əlaqələrin daha bir dayağı da şübhəsiz, turizmlə bağlıdır. 2025-ci ildə ötən illə müqayisədə Azərbaycana İsraildən gələn turistlərin sayı 2 dəfədən çox artıb. Birbaşa uçuş marşrutlarının çoxalması və vizaların sadələşdirilməsi bu artıma şərait yaradan amillərdəndir. İsrailli turistlər Azərbaycanı yeni və cəlbedici istiqamət kimi kəşf edirlər. Onlar Bakı şəhərinin tarixi məkanlarını, ölkəmizin bölgələrini və xüsusilə Quba rayonundakı dağ yəhudilərinin yaşayış məntəqəsi olan Qırmızı Qəsəbəni maraqla ziyarət edirlər. Eyni zamanda, azərbaycanlı turistlərin də İsrailin Tel-Əviv, Hayfa kimi şəhərlərinə səfərləri artmaqdadır. Turizm mübadiləsinin gücləndirilməsi xalqlar arasında dostluq və qarşılıqlı anlayışı dərinləndirməklə yanaşı, iqtisadi fayda da gətirir.

***Ekspert rəyi***

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Azərbaycan və İsrail arasında uzunmüddətli və davamlı bir tərəfdaşlıq formalaşıb. Nəzərə alsaq ki, iki ölkə arasındakı əlaqələr möhkəm təməllərə əsaslanır, bu əməkdaşlıq həm iqtisadiyyat, həm enerji, həm də bir sıra digər sahələri əhatə edərək getdikcə daha da gücləndirilir.

Ən vacib istiqamətlərdən biri, şübhəsiz ki, iqtisadi və enerji sahəsindəki əməkdaşlıqdır. Enerji sahəsində kifayət qədər ciddi əməkdaşlıq imkanları mövcuddur. Cənab Prezidentin Davos İqtisadi Forumundakı çıxışında da qeyd etdiyi kimi, Azərbaycan "ikinci neft bumunu" yaşaya bilər. Söhbət neft hasilatının artırılmasından gedir və təbii ki, İsrailin də bu sahədə, xüsusən də Azərbaycan neftinə olan tələbatı mövcuddur.

Bu baxımdan, ölkələr arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsi və Azərbaycan enerji məhsullarının İsrailə daha geniş şəkildə ixrac edilməsi üçün real imkanlar var. İqtisadi sahədə də potensial kifayət qədər böyükdür. Bir tərəfdən, kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və İsrailin qabaqcıl təcrübəsindən daha fəal istifadə edilməsi vacibdir. Digər tərəfdən, İsrail texnologiya və innovasiyanın transferi baxımından vacib tərəfdaşlardan biridir. Xüsusilə nəzərə alsaq ki, İsrail bu sahədə dünyada seçilən ölkələrdən biridir.

Bu xüsusda, sənayeləşmə prosesində İsrail texnologiyalarının transferindən daha geniş istifadə imkanları mövcuddur. Bütün bu amillər ölkələr arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə səbəb olur. Eyni zamanda, İsrail Azərbaycanın bir sıra məhsullarını ixrac etmək baxımından da əhəmiyyətli bazarlardan birinə çevrilə bilər.

İki ölkə arasında iqtisadi və ümumilikdə əməkdaşlığın gücləndirilməsi potensialı kifayət qədər böyükdür. Mövcud gedişat onu göstərir ki, qarşılıqlı səfərlər, aparılan müzakirələr, əldə edilən razılaşmalar və imzalanan sənədlər Azərbaycan–İsrail iqtisadi münasibətlərinin daha da dərinləşməsinə xidmət edəcək.

***Nurlan ABDALOV***
***XQ***

**ABŞ Ticarət Palatası, ABŞ Dövlət Departamenti və Ticarət Nazirliyi ilə birlikdə ilk dəfə Azərbaycana ikitərəfli biznes missiyası təşkil edir. Palatanın məlumatına görə, missiya fevralın 9–10-da Bakıda reallaşacaq. 2 günlük səfər çərçivəsində yüksək səviyyəli nümayəndə heyəti ABŞ şirkətlərinə Azərbaycan dövlət orqanları, dövlət şirkətləri və özəl sektorun aparıcı oyunçuları ilə birbaşa əlaqə qurmaq imkanı yaradacaq.**

# Amerika Birləşmiş Ştatları ilə iqtisadi tərəfdaşlığın hədəfləri

Bildirilir ki, əsas diqqət energetika və rəqəmsal transformasiya, müdafiə və nəqliyyat, kənd təsərrüfatı və səhiyyə, maliyyə və investisiyalar üzərində cəmləşəcək. Missiyanın proqramında Prezident Administrasiyası və Nazirlər Kabineti, müvafiq nazirliklər, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Azərbaycan Dövlət Neft Fondu, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), "PAŞA Holdinq" MMC, Azərbaycan Amerika Ticarət Palatası ("AmCham"), həmçinin digər dövlət və özəl qurumların nümayəndələri ilə görüşlər nəzərdə tutulub.

Prezident İlham Əliyevin ötən il avqust ayında ABŞ-a tarixi səfəri iki ölkə arasındakı münasibəti daha da istiləşdirib. 8 avqust 2025-ci il tarixli Anlaşma Memorandumunun imzalanmasından sonra Azərbaycan–ABŞ iqtisadi münasibətləri strateji investisiyalar və regional əməkdaşlıq baxımından keyfiyyətcə yeni müstəviyə qədəm qoyub. Əməkdaşlıq enerji və ticarət sahələri ilə yanaşı, tranzit marşrutları, regional infrastruktur layihələri, eləcə də süni intellekt və rəqəmsal infrastruktur istiqamətlərini əhatə edir. Həmçinin dövlət başçısının ABŞ-a səfəri çərçivəsində SOCAR ilə ExxonMobil arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanması mövcud tərəfdaşlığı möhkəmləndirib.



Yeri gəlmişkən, Azərbaycan ilə ABŞ arasında iqtisadi münasibətlər ikitərəfli tərəfdaşlığın əsas sütunlarından biridir. Bu əməkdaşlıq tarixən enerji və ticarət sahələrində formalaşmış ortaq strateji maraqlara söykənir. Məlum olduğu kimi, ABŞ şirkətlərinin ölkənin neft-qaz sənayesinin inkişafında fəal iştirakı bu əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynayıb. ABŞ həm "Əsrin müqaviləsi"ndə, həm də Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Azərbaycana dəstək göstərib.

ABŞ şirkətlərinin Azərbaycan üzrə enerji layihələrində, o cümlədən Azəri–Çıraq–Günəşli yataqları ilə bağlı təşəbbüslərdə iştirakını davam etdirməsi bu strateji tərəfdaşlığın uzunmüddətli xarakter daşıdığını təsdiqləyir. Hazırkı ABŞ Prezidenti Donald Tramp hələ ilk prezidentliyi dövründə Cənub Qaz Dəhlizinə siyasi və diplomatik dəstək göstərərək bu layihənin Avropanın enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyətini açıq şəkildə vurğulamışdı.

ABŞ-ın regionda ən böyük ticarət tərəfdaşı Azərbaycandır. 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 570,1 milyon ABŞ dolları təşkil edib. Bu dövrdə idxalın həcmi 479,8 milyon dollar, ixracın həcmi isə 90,3 milyon dollar olub. 2023-cü ildə isə idxal 888,1 milyon dollara çatıb. İxrac isə 16 milyon dollar səviyyəsində qeydə alınıb.

Nəticədə, ticarət dövriyyəsinin ümumi həcmi 904,1 milyon ABŞ dolları təşkil edib. 2024-cü ildə isə ticarət əlaqələrində əhəmiyyətli artım müşahidə olunub. Belə ki, idxal 1 milyard 617,93 milyon dollara, ixrac 135,03 milyon dollara yüksəlib. Bu da iki ölkə arasında ticarət dövriyyəsinin 1 milyard 752,96 milyon ABŞ dollarına çatmasına şərait yaradıb. 2025-ci ildə ticarət dövriyyəsi 1 milyard 556 milyon dollar olub.

Azərbaycanın ABŞ bazarına ixrac etdiyi məhsul çeşidinə xam neftlə yanaşı, təbii meyvə şirələri və mürəbbələr, xalça və tekstil məmulatları, dərman və ətir sənayesində istifadə olunan bitkilər, şərab məhsulları, müxtəlif avadanlıqlar və mexaniki qurğular, kimyəvi məhsullar, eləcə də radio və radar texnologiyaları daxildir. Eyni zamanda, Azərbaycan ABŞ-dan əsasən sənaye və yüksək texnologiya tutumlu məhsullar idxal edir. Bunlara maşın və avadanlıqlar, mülki təyyarələr, onların mühərrikləri və ehtiyat hissələri, avtomobillər, dərman preparatları, tibbi avadanlıqlar, kimyəvi məhsullar, istehlak malları və enerji ilə bağlı məhsullar aiddir.

ABŞ ölkəmizdə sərmayə həcminə görə ikinci aparıcı investor mövqeyindədir. Hazırda Azərbaycanda ABŞ kapitallı 200-dən çox şirkət fəaliyyət göstərir ki, bu da iqtisadi əməkdaşlığın miqyasını aydın şəkildə göstərir.

ABŞ – Azərbaycan Ticarət Palatası və Azərbaycandakı Amerika Ticarət Palatası kimi qurumlar iki ölkə arasında davamlı biznes münasibətlərinin formalaşmasına töhfə verən əsas institusional mexanizmlərdən biri kimi çıxış edir. Bu təşkilatlar ticarət missiyalarının təşkili, konfrans və biznes forumlarının keçirilməsi, eləcə də dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma funksiyasını yerinə yetirir.

Bu günlərdə Davosda keçirilən Dünya İqtisadi Forumu Azərbaycan-ABŞ münasibətləri baxımından uğurlu olub. Prezident İlham Əliyevin yanvarın 20-də Davosda "BlackRock" şirkətinin baş icraçı direktoru Larri Fink və "Global Infrastructure Partners" şirkətinin təsisçisi və icraçı direktoru Adebayo Oqunlesi ilə görüşü xüsusi əhəmiyyət daşıyıb. "BlackRock" baş ofisi Nyu-York şəhərində yerləşən ABŞ-ın qlobal investisiyaların idarəedilməsi şirkətidir.

Görüşün əsas nəticəsi ARDNF ilə "BlackRock" arasında uzunmüddətli əməkdaşlıq niyyətlərini əks etdirən protokolun imzalanması olub. Sənəd strateji tərəfdaşlığın qurulmasını və birgə investisiya layihələri üzrə 1,5 milyard ABŞ dollarınadək kapital qoyuluşu imkanlarının araşdırılmasını nəzərdə tutur. Bu əməkdaşlıq iqtisadi səmərə ilə yanaşı, Azərbaycanın beynəlxalq investisiya mühitində mövqeyinin möhkəmlənməsinə və siyasi-diplomatik çəkisinin artmasına xidmət edir.

Xatırladaq ki, yanvarın 22-də Davosda Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp ilə görüşü xüsusi önəm kəsb edir. Donald Tramp Dünya İqtisadi Forumunda nadir ölkə rəhbərləri ilə görüş keçirib ki, bunlardan biri də məhz Azərbaycan lideri olub. Söhbət zamanı dövlət başçıları ikitərəfli əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların münasibətlərin dərinləşdirilməsində rolunu qeyd ediblər.

***Musa BAĞIRLI***
***XQ***

# "Qərbi Abşeron" yatağında ən dərin yan quyusu

**Azərbaycan Dövlət Neft Şirkətinin Kompleks Qazma İşləri Tresti 2026-cı ilin qazma plan-qrafikinə uyğun olaraq qazma əməliyyatlarını davam etdirir. Qurum bugünlərdə "Azneft" İstehsalat Birliyinin sifarişi əsasında "Qərbi Abşeron" yatağında qazdığı 28a saylı quyuda növbəti uğurlu əməliyyat həyata keçirib. Belə ki, yan lülə quyusunda 522 metrlik qazma aparılıb ki, bu da şirkətin tarixində indiyədək ən uzun horizontal açıq lüləylə tamamlanan quyu kimi qeydə alınıb.**

Müqayisə üçün qeyd edək ki, bundan əvvəlki rekord nəticəyə (515 metr) 2025-ci ilin sonlarında eyni yataqda qazılmış 25a saylı quyuda nail olunub. Bu dəfə isə Kompleks Qazma İşləri Tresti 2025-ci ildə əldə etdiyi rekordu yeniləyərək tarixi bir uğura imza atıb.

Quyuda qazma prosesi Geoloji Xidmət tərəfindən təqdim edilmiş faktiki karotaj məlumatları əsasında və verilmiş tapşırıqlara uyğun olaraq geonaviqasiya müşayiəti xidməti formatında həyata keçirilib. Əldə olunan bu uğurlu nəticələr "Azneft" İstehsalat Birliyi, Kompleks Qazma İşləri Tresti və sözügedən qurumların əməkdaşlıq etdiyi servis şirkətlərinin yüksək peşəkarlığının, güclü texniki potensialının və davamlı inkişaf strategiyasının bariz göstəricisidir.



Xatırladaq ki, "Qərbi Abşeron" yatağı Xəzər dənizinin Abşeron arxipelaqının şimal-qərbində və Abşeron yarımadasının şimalında, Bakı şəhərindən 65 kilometr məsafədə yerləşir. 1958-ci ildə kəşf edilmiş bu yatağın arazisi sərt iqlim və meteoroloji şəraitlə xarakterizə olunur. Strukturun neftlə doyumluluğu məhsuldar zonanın Kirməki və Aşağı Kirməki layları ilə əlaqədardır. Həmin laylarda hasilata isə 1996-cı ildə başlanılıb.

***XQ***

# Dəniz daşımaları – 2,7 milyon ton !

**Ötən il Azərbaycanda dəniz nəqliyyatı ilə 2 milyard 564 milyon 663,7 min ABŞ dolları dəyərində 2 milyon 680 min 908,9 ton yük daşınıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, 2024-cü ilə nisbətən müvafiq olaraq 3,1 faiz və 4,5 faiz azdır.**



Hesabat dövründə dəniz nəqliyyatı ilə 171 milyon 460 min dollar (76,4 faiz çox) dəyərində 261 min 470,2 min ton (2,7 dəfə çox) yük ixrac olunub, 2 milyard 393 milyon 203,6 min dollar (6,2 faiz az) dəyərində 2 milyon 419 min 438,7 ton (11 faiz az) yük idxal olunub.

***XQ***

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir

# “Rəqəmsal dövlət maliyyəsi” informasiya sistemi haqqında ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə “Rəqəmsal dövlət maliyyəsi” informasiya sisteminin (bundan sonra – RDMİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. RDMİS rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, RDMİS-də saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. RDMİS-in formalaşdırılmasının məqsədi Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyət istiqamətlərinə aid sahələrin, o cümlədən büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər üzrə dividendlərin və digər büdcə daxilolmalarının, habelə audit, mühasibat uçotu (o cümlədən dövlət maliyyə və qeyri-maliyyə aktivlərinin uçotu), dövlət maliyyə nəzarəti, inzibati cərimələr üzrə daxilomalara dair məlumatların təhlili və həmin məlumatların düzgünlüyünə nəzarət, dövlət xəzinədarlığı, dövlət borcu və maliyyə öhdəliklərinin idarə edilməsi sahələrində dövlət idarəetməsinin optimallaşdırılması, analitik təhlillər aparılması, proqnozların və hesabatların hazırlanması və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsidir.

1.4. RDMİS-də yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. RDMİS-in sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

1.6. Fərdi məlumatların RDMİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların RDMİS-də toplanılması, işlənilməsi və mühafizəsi “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.7. RDMİS-in fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. RDMİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.9. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.10. Bu Əsasnamədə istifadə olunan anlayışlar “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. RDMİS-in texniki-texnoloji infrastrukturu**

2.1. RDMİS-in texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında “Mobil Prioritetli Tərtibat” prinsipi ilə qurularaq, RDMİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə RDMİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. RDMİS onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmət göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq, RDMİS-in telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. RDMİS-in fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları −Azərbaycan Respublikası Maliyyə Nazirliyinin struktur bölmələri tərəfindən;

2.4.2. RDMİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları −Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. RDMİS-də formalaşdırılan, ona daxil edilən və ötürülən məlumatlar

RDMİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli RDMİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə RDMİS, o cümlədən RDMİS-də toplanılan məlumatların ehtiyat nüsxələri “Hökumət buludu”nda saxlanılır.

2.8. RDMİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. RDMİS-in altsistemləri**

3.1. RDMİS-in strukturuna aşağıdakı altsistemlər daxildir:

3.1.1. “Büdcə məlumatlarını idarəetmə” altsistemi;

3.1.2. “Dövlət maliyyə nəzarəti” altsistemi;

3.1.3. “Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi” altsistemi;

3.1.4. “Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi” altsistemi;

3.1.5. “Dövlət müəssisələrinin rəqəmsal monitorinqi” altsistemi;

3.1.6. “e-azadolma” altsistemi;

3.1.7. “e-müqavilə” altsistemi;

3.1.8. “e-mühasibat” altsistemi;

3.1.9. “e-rüsum” altsistemi;

3.1.10. “e-mədaxil” altsistemi;

3.1.11. “Elektron ciddi hesabat blankları” altsistemi;

3.1.12. “Xəzinədarlığın rəqəmsal idarə edilməsi” altsistemi;

3.1.13. “İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi” altsistemi.

3.2. “Büdcə məlumatlarını idarəetmə” altsistemi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət büdcəsi və icmal büdcə layihələrinin və icmal büdcə göstəricilərinin tərtibi üçün zəruri məlumatların dövlət büdcəsindən maliyyələşən təşkilatlardan əldə edilməsini və dövlət büdcəsi göstəricilərinin, gəlir və xərclər bölgüsünün və digər məlumatların dövlət büdcəsindən maliyyələşən təşkilatlara təqdim olunmasını təmin edir.

3.3. “Dövlət maliyyə nəzarəti” altsistemi dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının vəsaitinin, dövlət zəmanəti ilə alınan və dövlət büdcəsinin vəsaiti hesabına verilən kreditlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitinin, habelə dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitinin əldə edilməsi və təyinatı üzrə məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təmin edir.

3.4. “Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi” altsistemi dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələrinin və digər infrastruktur layihələrinin maliyyə ekspertizasının aparılması, dövlət büdcəsində dövlət investisiya xərclərinin ortamüddətli göstəricilərinin, dövlət büdcəsinin əsaslı xərclərinin, habelə dövlət investisiya proqramına daxil olan layihələrin maliyyə təminatının müəyyən edilməsi, onların icra vəziyyətinin real vaxt rejimində izlənilməsi, sosial-iqtisadi inkişaf konsepsiyaları, strategiyaları və dövlət proqramları çərçivəsində icra olunan tədbirlərin maliyyə göstəricilərinin proqnozlaşdırılması və monitorinqi üçün məlumatların əldə edilməsini və onların emalını təmin edir.

3.5. “Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi” altsistemi dövlət borcu və zəmanəti üzrə öhdəliklər barədə məlumatların toplanılmasını, idarə olunmasını və real vaxt rejimində monitorinqini, dövlət orqanları (qurumları) və digər təşkilatlar tərəfindən hesabatların təqdim olunmasını, eləcə də vahid xəzinə hesabının qalığının və “Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu”nun vəsaitinin idarə edilməsinə dair məlumatların toplanılmasını təmin edir.

3.6. “Dövlət müəssisələrinin rəqəmsal monitorinqi” altsistemi dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin rüblük əsaslarla monitorinqini və icra göstəricilərinin təhlilini, həmçinin bu məqsədlə müəyyən edilmiş büdcə və maliyyə göstəriciləri barədə məlumatların əldə olunmasını təmin edir.

3.7. “e-azadolma” altsistemi vergi və gömrük sahələrində güzəştlərin və azadolmaların reyestrinin aparılmasını, həmin güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin, habelə büdcə, iqtisadi və sosial baxımdan səmərəliliyinin qiymətləndirilməsini təmin edir.

3.8. “e-müqavilə” altsistemi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mal, iş və xidmətlərin satın alınmasının elektron müqavilələr əsasında həyata keçirilməsini, bu müqavilələrin elektron qaydada bağlanılmasını və göndərilməsini təmin edir.

3.9. “e-mühasibat” altsistemi “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu subyektləri tərəfindən mühasibat uçotunun elektron qaydada aparılmasını, maliyyə hesabatlarının, o cümlədən birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının tərtib və təqdim edilməsini, mühasibat uçotu subyektləri tərəfindən istifadə üçün bu Qanunun 4.3.1-ci maddəsində nəzərdə tutulan beynəlxalq standartların Azərbaycan dilində dərc olunan rəsmi mətnlərinin, mühasibat uçotunu tənzimləyən hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində dərc edilmiş elektron mətnlərinə keçidini və maarifləndirici məlumatların yerləşdirilməsini təmin edir.

3.10. “e-rüsum” altsistemi dövlət rüsumu üzrə daxilolmaların dövlət büdcəsinə köçürülməsi üçün “e-bildiriş”in təqdim edilməsini, dövlət rüsumunun hesablanmış daxilolmaları üzrə məlumatların aidiyyəti orqan (qurum) tərəfindən real vaxt rejimində əldə edilməsini, artıq ödənilmiş və ya düzgün tutulmamış dövlət rüsumu ilə bağlı müraciətlərə dair məlumatların qəbulunu və aidiyyəti üzrə baxılmasını, habelə dövlət rüsumunun dövlət büdcəsinə köçürülməsinə elektron nəzarətin və uçotun həyata keçirilməsini təmin edir.

3.11. “e-mədaxil” altsistemi dövlət büdcəsi gəlirlərinin daha dəqiq və operativ şəkildə proqnozlaşdırılmasını, gəlir axınları üzrə analitik təhlilin səmərəliliyini təmin edir.

3.12. “Elektron ciddi hesabat blankları” altsistemi Azərbaycan Respublikasında təşkilati-hüquqi formasından asılı olmayaraq təşkilatların və fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini əks etdirən xüsusi seriya və nömrəyə malik ilkin uçot sənədi olan ciddi hesabat blanklarının elektron qaydada tərtib və təqdim edilməsini, habelə uçotunun aparılmasını təmin edir.

3.13. “Xəzinədarlığın rəqəmsal idarə edilməsi” altsistemi dövlət büdcəsinin kassa icrasının həyata keçirilməsini və həmin maliyyə əməliyyatlarının uçotunun aparılmasını, büdcə təşkilatlarının satın aldığı mal, iş və xidmətlərə görə yaranan kreditor borclarının ödənilməsini, dövlətə məxsus maliyyə vəsaitinin vahid mərkəzdən idarə edilməsini, bu vəsaitin daxil olmasını və məqsədyönlü xərclənməsi sahəsində cari nəzarətin həyata keçirilməsini təmin edir.

3.14. “İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi” altsistemi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilmiş cərimələrin dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh tədbirinin tətbiqi barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların (qurumların) hesablarına hesablanan və köçürülən hissəsinə dair məlumatların təhlil edilməsi və həmin məlumatların düzgünlüyünə nəzarətin həyata keçirilməsini təmin edir.

**4. RDMİS-ə ötürülən məlumatlar**

4.1. Məlumat mübadiləsinin operativliyini və səmərəliliyini artırmaq məqsədilə RDMİS, normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, digər dövlət informasiya sistemləri ilə əlaqəli fəaliyyət göstərir.

4.2. Sahibin normativ hüquqi aktlarla müəyyən edilən hüquqlarının həyata keçirilməsi, vəzifələrinin icrası, habelə dövlət xidmətləri göstərməsi zamanı tələb olunan aşağıdakı məlumatlar inteqrasiya yolu ilə ilkin mənbələrdən əldə edilir:

4.2.1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati xəta haqqında protokollar və inzibati xəta haqqında iş üzrə qərarlar (qərardadlar), o cümlədən elektron protokol və elektron qərarlar, inzibati xəta haqqında iş üzrə qərardan verilən şikayət və ya protest barəsində çıxarılmış qərarlar, itirilmiş, zədələnmiş (korlanmış) blanklar, unikal nömrə verildikdən sonra təsdiqlənməmiş və ya nömrələnmiş blanklarda çap edilməmiş sənədlər, “Elektron prokurorluq” informasiya sistemi vasitəsilə tərtib olunmuş, sanksiyasında inzibati cərimə növündə inzibati tənbeh tədbiri nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə qərar (qərardad), habelə inzibati cərimənin ödənilməsi barədə məlumatlar, səlahiyyətli orqanlar (vəzifəli şəxslər) və “Elektron məhkəmə” informasiya sisteminin tətbiq olunduğu məhkəmələr tərəfindən qərarların məcburi icraya yönəldilməsi barədə məlumatlar, inzibati xəta haqqında protokolların və inzibati xəta haqqında iş üzrə qərarların (qərardadların) izlənilməsi üçün status məlumatları;

4.2.2. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə dərc etməli olan mühasibat uçotu subyektləri barədə məlumatlar (mühasibat uçotu subyektinin adı, VÖEN-i, hüquqi ünvanı, təşkilati-hüquqi forması, əlaqə məlumatları, illik gəliri, işçilərinin orta sayı, törəmə cəmiyyətlərinin adı, VÖEN-i, hüquqi ünvanı, əlaqə məlumatları, illik gəliri və işçilərinin orta sayı);

4.2.3. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri barədə məlumatlar (qurumun adı, qeydiyyat tarixi, qeydiyyat nömrəsi, təşkilati-hüquqi forması, hüquqi ünvanı, fəaliyyət məqsədi, təsisçiləri və qanuni təmsilçisi);

4.2.4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası”na əsasən ortamüddətli xərclər çərçivəsinin və nəticəəsaslı büdcə mexanizminin tətbiqi məqsədilə sektorlar üzrə tələb olunan məlumatlar;

4.2.5. dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatların ştat cədvəli və işçiləri barədə məlumatlar (işçinin soyadı, adı, atasının adı, cinsi, doğum tarixi, əməyin ödənilməsi forması, vəzifəsinin (peşəsinin) adı, təhsil səviyyəsi, şəxsiyyətini təsdiq edən sənədin növü, əmək müqaviləsinin bağlanıldığı tarix və onun bitmə tarixi, əmək müqaviləsinin statusu, həmçinin iş stajı, sosial sığorta haqları, pensiya üçün müraciət tarixi və pensiya təyinatı tarixi, pensiya növü və ödəniş statusu, işəgötürənin adı və hüquqi ünvanı);

4.2.6. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, dövlət satınalmalarının vahid internet portalı üzrə satınalma planına dair məlumatlar, satınalmanın nəticələri haqqında qalibin qiymət cədvəli, əsas şərtlər toplusunda yer alan xüsusi şərtlərə və yekun protokola, icra və avans təminatına, həmçinin satınalma metodlarının tətbiqi barədə nəzarət orqanının verdiyi razılığa dair məlumatlar;

4.2.7. ətraf mühit və aqrar sahə üzrə dövlət büdcəsindən ayrılan xərclər hesabına ödənilən məqsədli vəsaitin, tətbiq olunan güzəştlərin təhlili ilə bağlı tələb olunan məlumatlar (sayı, həcmi, sahəsi, ölçüsü, məbləği);

4.2.8. büdcə təşkilatlarının, büdcənin tərtibi prosesində iştirak edən təşkilatların, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin kommunal xidmətlərdən (elektrik, qaz, istilik, su) istifadəsi üzrə borcları və ödəniş tarixçələri barədə məlumatlar;

4.2.9. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin emissiya etdiyi qiymətli kağızlar barədə reyestr məlumatları;

4.2.10. dövlət xəzinədarlığı tərəfindən ödənilən vəsaiti qəbul edən tərəfin bank hesabına dair məlumatlar;

4.2.11. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin xarici hökumətlərdən və beynəlxalq təşkilatlardan aldıqları qrantlar barədə məlumatlar, həmçinin dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələri və digər infrastruktur layihələri, o cümlədən onların ehtimal olunan dəyəri, layihə-smeta sənədləri və texniki-iqtisadi əsaslandırmaları barədə məlumatlar;

4.2.12. vergi ödəyicisi barədə məlumatlar (hüquqi və fiziki şəxsin adı, VÖEN-i, fəaliyyət növü, vergi ödəyici statusu, dövlət qeydiyyatına alındığı tarix, hüquqi ünvanı, hesabat təqdimetmə tarixi, təsdiqlənmiş vergi bəyannamələri), həmçinin vergi sahəsində güzəşt və azadolmaların qiymətləndirilməsi üçün zəruri məlumatlar, borc məlumatı, habelə dövlət satınalmalarının iştirakçısı olan vergi ödəyicisi tərəfindən malların, işlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı tərtib edilən elektron qaimə-fakturalar barədə məlumatlar;

4.2.13. daşınmaz dövlət əmlakının reyestr məlumatları, dövlət əmlakının özəlləşdirilməsi və icarəsi, torpaq kateqoriyası, hüquqi məhdudiyyətlər, Azərbaycan Respublikası ərazisində yerinə yetiriləcək kompleks yerquruluşu, torpaq kadastrı işlərinin proqnoz planı (o cümlədən yerquruluşu, daşınmaz əmlakın elektron kadastr uçotu, bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması, torpaq tədqiqatları, geobotaniki tədqiqat, bonitirovka/iqtisadi qiymətləndirmə, ünvan işləri), eləcə də həmin işlər üzrə ümumi sahə (ha), icra ediləcək parsellərin, ədədlərin sayı, smeta dəyəri barədə məlumatlar;

4.2.14. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin qüvvəyə minmiş məhkəmə qərarları üzrə maliyyə öhdəlikləri, eləcə də icra sənədləri barədə məlumatlar;

4.2.15. dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda nəqliyyat vasitələri barədə məlumatlar (markası, modeli, rəngi, növü, buraxılış ili, mühərrik həcmi, texniki baxış (saz, nasaz) məlumatları);

4.2.16. gömrük bəyannaməsinin nömrəsi, malın adı və kodu, miqdarı, mənşə ölkəsi, gömrük dəyəri, hesablanan və ödənilən gömrük ödənişləri, o cümlədən vergi və gömrük sahələrində güzəşt və azadolmaların qiymətləndirilməsi üçün zəruri məlumatlar, habelə gömrük borcları barədə məlumatlar;

4.2.17. təhsil müəssisəsinin adı və kodu, təhsilalanın təhsil pilləsi, qəbul ili, təhsil forması, təhsil statusu, buraxılış ili və dövlət büdcəsi hesabına maliyyələşdirilən təqaüdlər və təhsil xərcləri barədə məlumatlar;

4.2.18. sahibkarlıq subyektlərinin fəaliyyət sahəsi, işçi sayı, illik dövriyyəsi və regional bölgüsü barədə məlumatlar;

4.2.19. dövlət rüsumu ödəyicisi barədə məlumatlar (fiziki şəxs olduqda – soyadı, adı, atasının adı, qeydiyyatda olduğu ünvan, FİN kodu, telefon nömrəsi (olduğu halda), əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda – soyadı, adı, atasının adı (olduğu halda), müvafiq sərhədkeçmə sənədinin seriyası və nömrəsi, telefon nömrəsi (olduğu halda);

4.2.20. torpaq sahəsi, əkin növü, subsidiyanın məbləği, verilmə tarixi, müqavilə nömrəsi, fermer təsərrüfatının statusu barədə məlumatlar;

4.2.21. auditi aparılmış təsərrüfat subyektləri barədə məlumatlar;

4.2.22. peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinə daxil edilməsi üçün tələb olunan məlumatlar (peşəkar mühasib sertifikatı almış şəxsin soyadı, adı, atasının adı, əlaqə telefonu, elektron poçt ünvanı, peşəkar mühasib sertifikatının seriyası və nömrəsi, peşəkar mühasib sertifikatının növü, verilmə tarixi, qüvvədəolma müddəti, peşəkar mühasib sertifikatı almış şəxsin üzv olduğu peşəkar mühasib təşkilatının adı barədə məlumatlar).

4.3. RDMİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.4. RDMİS ilə digər dövlət informasiya sistemləri və ehtiyatları arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) RDMİS-ə, aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə, onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.5. RDMİS-də formalaşdırılan sənədlər “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib edilir və rəsmiləşdirilir.

**5. RDMİS-dən istifadə qaydası**

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların RDMİS-dən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra – EHİS) inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin RDMİS-dən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumun və digər hüquqi şəxsin rəhbəri tərəfindən RDMİS-də qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər EHİS-in “Vahid Giriş” altsisteminin vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq, həmin informasiya ehtiyatlarından və sistemlərindən istifadə edirlər.

5.3. Fiziki şəxslər EHİS-in “Vahid Giriş” altsistemi vasitəsilə RDMİS-də identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq RDMİS-dən istifadə edirlər.

5.4. RDMİS vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə RDMİS-in rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödənişlərin edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. RDMİS vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və s.) istifadəçilərin RDMİS-in fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər, istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. RDMİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. RDMİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. RDMİS-in dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların RDMİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. RDMİS-in təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə RDMİS-ə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və testetmə imkanlarını təmin etmək;

6.1.5. RDMİS-in informasiya təhlükəsizliyini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra – DTX), XRİTDX və operator ilə,

EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. RDMİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə, XRİTDX-yə, EHİS-in və “Hökumət buludu”nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. RDMİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. RDMİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

*(ardı 10-cu səhifədə)*

# Klinik təcrübədə süni intellekt

## *AIdMD AI-platformasının təcrübəsi və onun Azərbaycan səhiyyəsinin rəqəmsal transformasiyası üçün əhəmiyyəti*

**Dünya səhiyyə sistemi eyni vaxtda klinik məlumatların həcminin artması, tibbi halların mürəkkəbləşməsi və ciddi zaman məhdudiyyətləri şəraitində qərarların qəbul edilməsi zərurəti ilə şərtlənən artan struktur yükü ilə üz-üzədir. Bu proseslər tibbi informasiyanın miqdarı ilə onun klinik düşüncə prosesində operativ istifadəsi imkanları arasında sistemli uyğunsuzluğu getdikcə daha aydın şəkildə üzə çıxarır. Bir çox hallarda klinik anlayış əsas qərarlar qəbul edildikdən sonra formalaşır.**

Tibbin data-driven modelə keçidi fonunda əsas vəzifə pasiyentə dair əlavə məlumatların toplanması deyil, bu informasiya ilə klinik anlayış arasındakı məsafənin azaldılmasıdır. Toplanmış məlumatlarla praktiki tibbi qərar arasında yaranan boşluğu minimuma endirmək qabiliyyəti bu gün səhiyyə sisteminin effektivliyi baxımından həlledici əhəmiyyət kəsb edir.

Bu çağırışa cavab olaraq AIdMD süni intellekt platforması yaradılmışdır. ABŞ-da hazırlanmış və dünyanın ən tələbkar səhiyyə sistemlərindən birində praktiki klinik qiymətləndirmədən keçən bu tibbi AI-platforma azərbaycanlı tərtibatçılar Vaqif və Yunus Kazımlı, Yusif Qurbanlı və Həmzə Şah tərəfindən təsis olunmuşdur. Platformanın meydana çıxması Azərbaycan mütəxəssislərinin real klinik, tənzimləyici və əməliyyat standartlarına cavab verən texnoloji həllər yaratmaq potensialını nümayiş etdirir.

AIdMD həkimlərin kompleks klinik informasiya ilə işləməsini dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Platforma pərakəndə tibbi məlumatları strukturlaşdırılmış klinik icmallara çevirir, AI-scribe vasitəsilə pasiyent qəbulunu avtomatik sənədləşdirir, tibbi sənədləri formalaşdırır və ilkin məlumatların sistemləşdirilməsi yolu ilə klinik düşüncəni dəstəkləyir. Sistem differensial diaqnostik hipotezlərin formalaşdırılmasını, "assessment and plan" üçün ilkin variantların hazırlanmasını, həmçinin tibbi yardımdakı potensial risk və boşluqların aşkarlanmasını əhatə edir. Bununla yanaşı, həkimin aparıcı rolu və qəbul edilən klinik qərarlara görə tam məsuliyyəti prinsipial şəkildə qorunur. (Ətraflı: www.aidmdusa.com)

Dar ixtisaslaşmış proseslərin avtomatlaşdırılmasına yönəlmiş həllərdən fərqli olaraq, AIdMD başlanğıcdan bütöv klinik AI-lay kimi layihələndirilmişdir. İstər mövcud tibbi informasiya sistemləri üzərində intellektual əlavə kimi, istərsə də tam AI-native platforma şəklində tətbiq edilsin, sistem klinik anlayışın sürətləndirilməsinə, informasiyanın şəffaflığının artırılmasına və həkim qəbulunun gedişində əsaslandırılmış qərarların dəstəklənməsinə yönəlib. Bu yanaşma klinik intellektin keyfiyyət itkisi olmadan fraqmentləşdirilə bilməyəcəyi anlayışını əks etdirir.

Müasir tibb böyük həcmdə məlumat istehsal etsə də, klinik anlayış çox vaxt gecikmə ilə formalaşır. AIdMD konsepsiyası bu boşluğu minimuma endirməyi hədəfləyir və həkimi tibbi qərara real təsir göstərən anda aydın, strukturlaşdırılmış və klinik baxımdan əhəmiyyətli informasiya ilə təmin edir.

AIdMD-nin formalaşması klinik praktika ilə sahibkarlıq təcrübəsinin kəsişməsində baş vermişdir. İnkişafın ilkin mərhələlərindən etibarən platforma praktiki həkimlər, texnoloji həllərin qurulması və miqyaslandırılması sahəsində təcrübəsi olan mütəxəssislərlə sıx əməkdaşlıq şəraitində hazırlanmışdır. Bu, sistemin arxitekturasında real klinik ssenarilərin əks olunmasına və gündəlik tibbi praktikada tətbiq üçün zəruri əməliyyat dayanıqlığının təmin edilməsinə imkan vermişdir.

Platformanın əsas xüsusiyyətlərindən biri klinik qərarların qeyri-şəffaf avtomatlaşdırılmasından imtina edilməsidir. Sistem klinik cəhətdən əhəmiyyətli konteksti ön plana çıxarır, potensial risklərə diqqət yönəldir və rutin tapşırıqları dəstəkləyərək həkimin kognitiv yükünü azaldır. Əməliyyatların sayının azaldılması, interfeyslər arasında keçidlərin minimallaşdırılması və informasiyanın daha dəqiq prioritetləşdirilməsi həkimin klinik mühakimənin əsas elementlərinə – diaqnostika, müalicə planlaşdırılması və pasiyentlə qarşılıqlı əlaqəyə – fokuslanmasına şərait yaradır.

Platformanın fəlsəfəsi tibbin mahiyyətinin klinik mühakimədən ibarət olduğu anlayışına əsaslanır. AIdMD-nin arxitekturası bu mühakiməyə mane olan amilləri aradan qaldırmaq və həkimə praktik qərarvermə prosesinə fokuslanmaq imkanı vermək üçün qurulmuşdur. Məhz bu həkim – mərkəzli yanaşma platformanın konseptual mərhələdən praktiki klinik qiymətləndirmə mərhələsinə keçidini təmin edir.

Hazırda AIdMD ABŞ səhiyyə sistemində iştirakını genişləndirir. Platforma Florida ştatında yerləşən özəl tibbi praktikalar və klinik komandalar tərəfindən qiymətləndirilir. Bu region pasiyent müxtəlifliyi, müstəqil klinikaların üstünlüyü və mürəkkəb tənzimləyici mühit baxımından ABŞ səhiyyəsinin əsas xüsusiyyətlərini cəmləşdirir.

Klinik qiymətləndirmə əsasən praktik nəticələrə – tibbi sənədləşmə yükünün azaldılması, pasiyent tarixçəsinin daha sürətli qavranılması və sistemin mövcud iş axınlarına üzvi inteqrasiyasına yönəlmişdir. Bu yanaşma tibbi təşkilatların konservativ xarakterini əks etdirir; onlar üçün texnoloji yenilikdən daha çox etibarlılıq, proqnozlaşdırıla bilənlik və real praktikaya uyğunluq önəmlidir.

AIdMD-nin inkişafı marketinq göstəricilərinə deyil, sistemin real tətbiqi dəyərinə əsaslanır. Şirkət təşviqat hesabına aqressiv miqyaslandırmadan şüurlu şəkildə imtina edərək sistemli klinik geribildiriməsinə, funksionallığın mərhələli təkmilləşdirilməsinə və platformanın əməliyyat hazırlığına üstünlük verir. Platformanın inkişafı ilə bağlı yeniliklər AIdMD-nin rəsmi LinkedIn səhifəsində paylaşılır: https://www.linkedin.com/company/aidmd/

AIdMD-nin mühəndis yanaşması maksimal yüklənmə şəraitində belə sabit fəaliyyət göstərməli olan kritik sistemlər üçün tələblər əsasında formalaşdırılmışdır. Komanda üzvlərinin NASA, JPMorgan, M3 USA və Amazon kimi təşkilatlarda iş təcrübəsi platformanın arxitekturasına, etibarlılığına və təhlükəsizliyinə birbaşa təsir göstərmişdir.

Platforma pasiyentin tibbi tarixçəsini, laborator nəticələri, təyinatları və əvvəlki qəbul məlumatlarını təhlil edərək klinik baxımdan əhəmiyyətli siqnalları aşkar edir. Sistemlə qarşılıqlı əlaqə təbii dil üzərindən qurulur, nəticələr isə klinik sənədlərə və iş proseslərinə inteqrasiya olunur. Süni intellekt burada insan ekspertizasını əvəz etmək üçün deyil, mürəkkəbliyi nizamlamaq və əməliyyat sürtünməsini azaltmaq üçün istifadə edilir. (Qısa izahlı video:
https://youtu.be/1t-017-lyks)

ABŞ bazarına yönəlməsinə baxmayaraq, AIdMD-nin inkişaf trayektoriyası Azərbaycan üçün də strateji əhəmiyyət daşıyır. Bir çox ölkələr hazırda parçalanmış tibbi İT sistemlərin mərhələli modernləşdirilməsi ilə analitika və süni intellekt üçün ilkin olaraq nəzərdə tutulmuş vahid bulud klinik platformalarının yaradılması arasında seçim qarşısındadır.

Elektron tibbi qeydlərin tətbiqi natamam və ya fragmentar olan ölkələr üçün bu, mövcud modelləri sadəcə təqlid etmək deyil, birbaşa AI-dəstəklənən növbəti nəsil səhiyyə sistemlərinə keçid imkanı yaradır. Mərkəzləşdirilmiş idarəetmə modeli və rəqəmsal prioritetləri nəzərə alındıqda, Azərbaycan bu cür yanaşmaların qiymətləndirilməsi üçün struktur baxımından hazırdır.

İntellektual klinik infrastrukturun tətbiqi resurslardan daha səmərəli istifadəyə, inzibati xərclərin azaldılmasına və əhali səviyyəsində risklərin daha erkən aşkarlanmasına şərait yarada bilər. Bununla yanaşı, bu sistemlər uzunmüddətli əməliyyat xərclərinin azaldılması, xidmətlərin təkrarlanmasının qarşısının alınması və tibbi məlumatların bütövlüyü əsasında planlaşdırma keyfiyyətinin yüksəldilməsi kimi iqtisadi və strateji üstünlüklər təqdim edir. Eyni zamanda məlumat təhlükəsizliyi və rəqəmsal suverenlik məsələləri milli maraqlara uyğun şəkildə möhkəmləndirilir.

AIdMD-nin tarixi təkcə bir şirkətin uğur hekayəsi deyil, azərbaycanlı mütəxəssislərin qlobal səviyyədə yüksək yüklü və mürəkkəb sistemlərin yaradılmasında iştirakının göstəricisidir. Səhiyyə sahəsində zaman, dəqiqlik və qərarların keyfiyyəti uzunmüddətli nəticələrə birbaşa təsir göstərdiyindən, məhz bu cür yanaşmalar rəqəmsal tibbin növbəti mərhələsini formalaşdıracaqdır.

Azərbaycan üçün bu kimi layihələr təkcə peşəkar tanınma deyil, həm də həkim-mərkəzli, miqyaslana bilən və intellektual inteqrasiya olunmuş səhiyyə modellərinin öyrənilməsi, qiymətləndirilməsi və potensial tətbiqi üçün real imkan yaradır.

***XQ***

# "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə

*(əvvəli 9-cu səhifədə)*

6.1.9. RDMİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. RDMİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti qurumların RDMİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətləri göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) RDMİS-ə daxil etmək;

6.1.16. RDMİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. RDMİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. RDMİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. RDMİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. RDMİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. RDMİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. RDMİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. RDMİS-in informasiya təhlükəsizliyini DTX, XRİTDX və sahiblə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. RDMİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə və XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə DTX, XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. RDMİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. RDMİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. RDMİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə RDMİS-in "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. RDMİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla texniki tədbirlər görmək və bu barədə RDMİS-in fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. RDMİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə RDMİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) RDMİS-ə daxil etmək;

7.1.9. RDMİS-i EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. RDMİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. RDMİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında RDMİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. RDMİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. RDMİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. RDMİS-dən istifadəni, habelə onun üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək;

7.1.17. aidiyyəti qurumların RDMİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. RDMİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. RDMİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. RDMİS ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. RDMİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər RDMİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, RDMİS-ə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. RDMİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. RDMİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə RDMİS-ə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. RDMİS-dən, habelə RDMİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. RDMİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun RDMİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. RDMİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsü ilə, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. RDMİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. RDMİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin RDMİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. RDMİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahibə və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. RDMİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. RDMİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Elektron Rəqabət İnformasiya Sistemi haqqında ƏSASNAMƏ

**1. Ümumi müddəalar**

1.1. Bu Əsasnamə Elektron Rəqabət İnformasiya Sisteminin (bundan sonra – ERİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. ERİS rəqabət və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində (bundan sonra – müvafiq sahə) istehlakçıların və bazar subyektlərinin müraciətlərinin (vəsatətlərinin) qəbulunu, emalını, onlara əlavə edilməli olan sənəd və məlumatların real vaxt rejimində digər dövlət orqanlarından (qurumlarından) sorğu əsasında əldə olunmasını, həmin müraciətlərə (vəsatətlərə) dair qərar və məlumatların elektron qaydada təqdim edilməsini, habelə qeyd olunan sahələrdə məlumatların istifadəçilər üçün əlçatanlığını təmin edir.

1.3. ERİS-in formalaşdırılmasının məqsədi müvafiq sahədə tənzimləmə və nəzarətin həyata keçirilməsi, analitik təhlil və hesabatların hazırlanması ilə bağlı proseslərin rəqəmsallaşdırılmasından və avtomatlaşdırılmasından, eləcə də səmərəliliyinin və effektivliyinin artırılmasından, habelə xidmətlər göstərilməsində əlçatanlığın, şəffaflığın və operativliyin təmin edilməsindən ibarətdir.

1.4. ERİS-də yaradılan, əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.5. Fərdi məlumatların ERİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların ERİS-də toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.6. ERİS-in yaradılması və saxlanılması ilə bağlı xərclər Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin büdcədənkənar gəlirləri hesabına həyata keçirilir.

1.7. ERİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.8. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.9. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

**2. ERİS-in texniki-texnoloji infrastrukturu**

2.1. İnformasiya sisteminin texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, ERİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə ERİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. ERİS onun fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. ERİS-in qurulma topologiyasına uyğun olaraq, telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. ERİS-in fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları – sahibin müvafiq struktur bölmələri tərəfindən;

2.4.2. ERİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları – Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. ERİS-də formalaşdırılan, ERİS-ə daxil edilən və ötürülən məlumatlar ERİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli ERİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən ERİS-dən istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə ERİS, o cümlədən ERİS-də toplanılan məlumatlar, eləcə də ERİS-in və həmin məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. ERİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

**3. ERİS-in altsistemləri**

3.1. ERİS aşağıdakı altsistemlərdən ibarətdir:

3.1.1. "Təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarəti" altsistemi;

3.1.2. "Təsərrüfat subyektlərinin təmərküzləşməsinə dair müraciət" altsistemi;

3.1.3. "Antidempinq" altsistemi;

3.1.4. "İstehlakçı" altsistemi;

3.1.5. "Digər müraciətlər" altsistemi.

3.2. "Təbii inhisar subyektlərinin fəaliyyətinə dövlət nəzarəti" altsistemi vasitəsilə Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 36.4-cü, 36.5-ci, 39.2-ci və 39.7-ci maddələrinə əsasən təbii inhisar subyektləri tərəfindən müraciətlərin (vəsatətlərin) və onlara əlavə edilməli olan sənədlərin qəbulu, emalı və həmin müraciətlərə dair qərar və məlumatların elektron qaydada təqdim edilməsi təmin olunur.

3.3. "Təsərrüfat subyektlərinin təmərküzləşməsinə dair müraciət" altsistemi vasitəsilə Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin 7-ci fəslinə əsasən təsərrüfat subyektlərinin təmərküzləşməsi ilə bağlı müraciətlərin (vəsatətlərin) və onlara əlavə edilməli olan sənədlərin qəbulu, emalı və həmin müraciətlərə dair qərar və məlumatların elektron qaydada təqdim edilməsi təmin olunur.

3.4. "Antidempinq" altsistemi vasitəsilə iqtisadi maraqların müdafiəsi üçün yerli istehsal sahəsinə zərər vuran və ya zərər vurma təhlükəsi yaradan dempinqli, subsidiyalaşdırılmış və ya artmış idxala qarşı antidempinq, kompensasiya və mühafizə tədbirlərinin təşkili ilə bağlı müraciətlərin (vəsatətlərin) və onlara əlavə edilməli olan sənədlərin qəbulu, emalı və həmin müraciətlərə dair qərar və məlumatların elektron qaydada təqdim edilməsi təmin olunur.

3.5. "İstehlakçı" altsistemi vasitəsilə istehlakçıların hüquqlarının pozulması ilə bağlı müraciətlərin (vəsatətlərin) və onlara əlavə edilməli olan sənədlərin qəbul edilməsi, emalı və həmin müraciətlərə dair qərarların və məlumatların elektron qaydada təqdim edilməsi təmin olunur.

3.6. "Digər müraciətlər" altsistemi vasitəsilə rəqabət qanunvericiliyinin tələblərinin pozulması və ya rəqabət qanunvericiliyi ilə əlaqədar digər müraciətlərin (vəsatətlərin) və onlara əlavə edilməli olan sənədlərin qəbulu, emalı və həmin müraciətlərə dair qərar və məlumatların elektron qaydada təqdim edilməsi təmin olunur.

**4. ERİS-ə daxil edilən və ötürülən məlumatlar**

4.1. İnformasiya sisteminə daxil edilən məlumatlar aşağıdakılardır:

4.1.1. altsistemlərdən müraciətlər (vəsatətlər) və onlara əlavə edilməli olan sənədlər;

4.1.2. rəqabətə və istehlakçıların hüquqlarının müdafiəsinə dair normativ sənədlər;

4.1.3. müvafiq sahədə məmnunluğun qiymətləndirilməsi üzrə istifadəçilərin rəyləri;

4.1.4. müvafiq sahədə həyata keçirilən tənzimləmə və nəzarətin nəticələri.

4.2. Sorğu əsasında Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra – EHİS) inteqrasiya vasitəsilə ilkin mənbələrdən əldə edilən məlumatlar aşağıdakılardır:

4.2.1. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi məlumatları (şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, qeydiyyat ünvanı, fotoşəkli, FİN-i);

4.2.2. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

4.2.3. təsərrüfat subyektinin fəaliyyət növləri üzrə topdansatış və ya pərakəndə satış məlumatları (elektron qaimə-faktura və nəzarət-kassa aparatlarına əsasən satış dövriyyəsi);

4.2.4. təsərrüfat subyektlərinin mənfəət (gəlir) vergisinin, sadələşdirilmiş vergisinin və əlavə dəyər vergisinin bəyannamələri;

4.2.5. hüquqi şəxslərin dövlət reyestrindən çıxarış (kommersiya hüquqi şəxslərinin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar daxil olmaqla);

4.2.6. istehsalat təqvimi barədə məlumatlar;

4.2.7. bankların, həmçinin bank olmayan ödəniş xidməti təchizatçılarının Hökumət Ödəniş Portalına inteqrasiya olunmuş internet və mobil xidmətləri vasitəsilə həyata keçirilən ödəniş məlumatları;

4.2.8. təsərrüfat subyektinin məhkəmə işləri barədə məlumat;

4.2.9. kommersiya hüquqi şəxsinin, onun filial və nümayəndəliyinin, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə), rəhbərin (qanuni nümayəndənin) soyadı, adı, atasının adı, vergi orqanlarında uçotda olan təsərrüfat subyektləri olduqda onların ünvanı və kodu;

4.2.10. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin soyadı, adı, atasının adı, fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə), vergi orqanlarında uçotda olan təsərrüfat subyektləri olduqda onların ünvanı və kodu;

4.2.11. təsərrüfat subyektinin uçota alınması və uçotdan çıxarılması tarixləri;

4.2.12. təsərrüfat subyektinin vergi ödəyicisi kimi statusu (aktiv, dayandırılmış, bağlı) barədə məlumatlar;

4.2.13. təsərrüfat subyektinin idxal-ixrac əməliyyatları üzrə məlumatlar;

4.2.14. təsərrüfat subyektinin nizamnaməsi (dəyişikliklər əlavə edilməklə);

4.2.15. təsərrüfat subyektinin maliyyə vəziyyətinə, maliyyə vəziyyətinin nəticələrinə və digər iqtisadi göstəricilərinə dair, malların istehsalı və təqdim edilməsi, obyektlərin tikintisi və xidmətlər göstərilməsi haqqında rəsmi statistika hesabatları;

4.2.16. təsərrüfat subyektinin mikro, kiçik, orta və iri sahibkar meyarları üzrə aid edildiyi kateqoriya.

4.3. ERİS-in digər dövlət informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.4. ERİS ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) həmin informasiya ehtiyatlarına və sistemlərinə aidiyyəti orqanlar (qurumlar) tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.5. ERİS-də formalaşdırılan sənədlər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

**5. ERİS-dən istifadə qaydası**

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan orqanların (qurumların) ERİS-dən istifadəsi Qaydaların 4-cü hissəsinə və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (bundan sonra – EHİS) inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin ERİS-dən istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda dövlət orqanlarının (qurumlarının) və hüquqi şəxslərin rəhbər şəxsi tərəfindən ERİS-də qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq ERİS-dən istifadə edirlər.

5.3. Fiziki şəxslər EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə ERİS-də identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq ERİS-dən istifadə edirlər.

5.4. ERİS vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə ERİS-in rəsmi internet informasiya ehtiyatı (EHİS-ə keçid verilməklə) və EHİS vasitəsilə, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir.

5.5. ERİS vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) istifadəçilərin ERİS-in fəaliyyətində iştirakını və onlardan istifadəsini, habelə elektron xidmətlərdən yararlanmasını təmin edir. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. ERİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. ERİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. ERİS-in dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinə, o cümlədən fərdi məlumatların toplanıldığı, işlənildiyi və mühafizə edildiyi ("Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 3.2-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) halda isə fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin dövlət reyestrinə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. fərdi məlumatların ERİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin fərdi məlumatlar sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. ERİS-in təşkili və fəaliyyəti üzrə qiymətləndirmə aparmaq üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (bundan sonra – Nazirlik) zəruri şərait yaratmaq, o cümlədən normativ hüquqi aktların tələblərinə uyğun olmasına nəzarət etmək məqsədilə ERİS-ə çıxış, habelə onun texnoloji infrastrukturu ilə tanışlıq (baxış) və test etmə imkanlarını təmin etmək;

6.1.5. ERİS-in informasiya təhlükəsizliyini XRİTDX və operator ilə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

6.1.6. ERİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.7. ERİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.8. ERİS-ə müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.9. ERİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və operatorla birlikdə tədbirlər görmək;

6.1.10. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.11. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsindəki məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.12. ERİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.13. aidiyyəti orqanların (qurumların) ERİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.14. dövlət xidmətlərinin göstərilməsi üçün tələb edilən sənədlər barədə informasiya digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin informasiyanın ilkin mənbədən əldə edilməsi üçün operator və Nazirliklə birlikdə tədbirlər görmək;

6.1.15. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) ERİS-ə daxil etmək;

6.1.16. ERİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.17. ERİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.18. ERİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.19. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. ERİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. ERİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. ERİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. ERİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti orqanlara (qurumlara) sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. ERİS-in informasiya təhlükəsizliyini XRİTDX və sahiblə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə habelə Nazirliklə birlikdə təmin etmək;

7.1.2. ERİS-in informasiya təhlükəsizliyi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə bu barədə məlumatları dərhal XRİTDX-yə, EHİS-in və "Hökumət buludu"nun informasiya təhlükəsizliyinə münasibətdə isə həmçinin Nazirliyə təqdim etmək, habelə XRİTDX və Nazirlik tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. ERİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. ERİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin "Hökumət buludu"nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün Nazirlik və sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. ERİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlıqlarında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə ERİS-in "Hökumət buludu"nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün Nazirliklə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. ERİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla texniki tədbirlər görmək və bu barədə ERİS-in fəaliyyətində iştirak edən aidiyyəti dövlət orqanlarını (qurumlarını) məlumatlandırmaq;

7.1.7. ERİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə ERİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) ERİS-ə daxil etmək;

7.1.9. ERİS-i EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək;

7.1.10. ERİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.11. ERİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üçün profilaktik iş aparmaq;

7.1.12. Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında ERİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.13. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.14. ERİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə və Nazirliyə təqdim etmək;

7.1.15. ERİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.16. ERİS-dən istifadəni, habelə onun üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi "elektron marketlərdə" yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.17. aidiyyəti orqanların (qurumların) ERİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. ERİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti orqanlara (qurumlara) sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. ERİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. ERİS-lə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. ERİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər ERİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, ERİS-ə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. ERİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. ERİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə ERİS-ə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. ERİS-dən, habelə ERİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. ERİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun ERİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. ERİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə və Nazirliyə məlumat vermək;

8.1.10. öz təşəbbüsləri, habelə Nazirliyin və sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdikləri təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. ERİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. ERİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin ERİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. ERİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barədə olan məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. ERİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. ERİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlardan irəli gələn digər hüquqları həyata keçirmək.

*Elmlər Akademiyası – zəka xəzinəsi*






**Ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Heydər Əliyevin elm və təhsil strategiyası

## *Milli intellektual potensialın gücləndirilməsi*

**Azərbaycan Prezidenti İlham Əliyev Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqdakı proqram xarakterli, dərin məzmunlu çıxışında ölkəmizdə ötən dövrdə formalaşmış elmi mühitə və yaradılmış intellektual potensiala yüksək qiymət verdi. Dövlət başçısı gələcək dayanıqlı milli inkişafa yönəlmiş fəaliyyətin müasir çağırışlarla uzlaşdırılması baxımından alimlərimizin qarşısında duran mühüm vəzifələrə də aydınlıq və konkretlik gətirdi.**

Ölkə rəhbəri elmin cəmiyyətin strateji inkişafında oynadığı rolu, milli-mənəvi dəyərlərin qorunması və intellektual potensialın gücləndirilməsi zəruriliyini vurğulamaqla yeni bir elmi proqram müəyyənləşdirdi. Prezident İlham Əliyevin elmi ictimaiyyətə ünvanladığı mülahizələr Azərbaycan elminə daim böyük diqqət və qayğı ilə yanaşmış ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi və ideoloji xəttin yeni mərhələdə davamı kimi səsləndi.

Dövlət başçısı siyasi rəhbərlikdəki bu varisliyi belə ifadə etdi: "Sirr deyil ki, ulu öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi". Məhz bu yanaşma elmə dövlət səviyyəsində göstərilən qayğının konseptual əsaslarını formalaşdırmış, elmi düşüncənin inkişafı üçün əlverişli institusional mühitin yaranmasına imkan yaratmışdır.

Prezident İlham Əliyevin çıxışında toxunulan mühüm məsələlərdən biri də milli dilin elmi və ictimai həyatda rolu ilə bağlı oldu. Dövlət başçısı bu mövzuda əvvəlki çıxışlarına istinad edərək qeyd etdi: "10 il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir".

Bu fikirlər ümummilli lider Heydər Əliyevin dilə, elmə və milli kimliyə dair strateji baxışları ilə səsləşir. Heydər Əliyev elmi inkişafı yalnız texnoloji və intellektual tərəqqi kimi deyil, eyni zamanda, milli dövlətçiliyin, mədəni özünüdərkin və mənəvi bütövlüyün əsas dayaqlarından biri kimi qiymətləndirirdi. Məhz bu ardıcıllıq Azərbaycan elminin bu gün də dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi inkişaf etməsini təmin edən fundamental ideya xəttini təşkil edir.

Dövlət başçısı İlham Əliyevin sözügedən çıxışında səsləndirdiyi konseptual müddəalardan irəli gələn bu məqalənin yazılması mövzunun elmi və ictimai baxımdan aktuallığı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin çoxşaxəli və titanik fəaliyyətində elm siyasəti istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə milli dövlət quruculuğu strategiyasının əsas və prioritet istiqamətlərindən birini təşkil etmişdir.

Bu yanaşma təsadüfi deyildi. Ulu öndər Heydər Əliyev dahi siyasi xadim kimi elmin cəmiyyətin sosial-iqtisadi, mədəni və mənəvi inkişafında oynadığı həlledici rolunu dərindən dərk edir, onu xalqın gələcəyini müəyyən edən əsas amillərdən biri kimi qiymətləndirirdi. Bununla yanaşı, onun elmə olan xüsusi münasibətinin formalaşmasında "ailə məktəbi"nin də mühüm rolu olmuşdur.

Ümummilli liderin qardaşları – akademiklər Həsən Əliyev və Cəlal Əliyev, AMEA müxbir üzvü Aqil Əliyev və bacısı akademik Rəfiqə Əliyeva Azərbaycan elminin inkişafında müstəsna xidmətləri olan görkəmli şəxsiyyətlər kimi tanınmışlar. Onların elmi dünyagörüşü, tədqiqat mədəniyyəti və elmə sədaqəti, şübhəsiz, Heydər Əliyevin intellektual formalaşmasına və elmə strateji yanaşmasının dərinləşməsinə güclü təsir göstərmişdir. Ailə ənənəsindən bəhs edərkən Ümummilli liderin həyat yoldaşı, akademik Zərifə Əliyevanın da xüsusi yerini qeyd etmək zəruridir. Zərifə xanım XX əsr Azərbaycan elm tarixinin ən görkəmli, yaradıcı və fədakar simalarından biri kimi milli elmi fikrin inkişafına əvəzsiz töhfələr vermişdir. Onun elmi irsi bu gün də aktualdır və böyük hörmətlə xatırlanır.

Ulu öndər Heydər Əliyevin Azərbaycan elminin inkişafına dair strategiyasının əsasında məsələyə kompleks və fəlsəfi yanaşma dayanırdı. O, dərindən anlayırdı ki, sovet dövründə ayrı-ayrı elm sahələrinin inkişafına nail olmaqla kifayətlənmək mümkün deyil. Qarşıda duran əsas vəzifə Azərbaycanın milli elm sisteminin formalaşdırılması, bu sistemin dünya elmi ilə inteqrasiyasının təmin edilməsi idi. Əslində, Heydər Əliyevin elm sahəsində həyata keçirdiyi bütün məqsədyönlü tədbirlərin məğzində məhz bu strateji hədəf dayanırdı.

Bu baxımdan milli kadr potensialının formalaşdırılması Heydər Əliyevin elm siyasətində bir nömrəli vəzifə kimi müəyyən edilmişdi. Sovet hakimiyyəti illərində onun bilavasitə rəhbərliyi və təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyasının maddi-texniki bazası möhkəmləndirilmiş, elmi-tədqiqat institutlarının fəaliyyəti genişləndirilmiş, alim və tədqiqatçıların sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Heydər Əliyevin düşünülmüş kadr siyasəti elmi mühitdə sağlam rəqabət mühitinin yaranmasına, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına və elmi potensialın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə şərait yaratmışdır.

Ümummilli lider milli kadr hazırlığının təməlinin orta məktəbdən qoyulduğunu, ali təhsil mərhələsində isə daha da inkişaf etdiyini öz fəaliyyəti ilə ardıcıl şəkildə nümayiş etdirmişdir. Onun orta məktəblərdə və ali təhsil müəssisələrində müəllim və tələbələrlə keçirdiyi çoxsaylı görüşlər, ali məktəblərə yeni qəbul olunmuş gənclərlə apardığı səmimi söhbətlər və dərin məzmunlu çıxışlar bu gün də təhsil və elm sahəsində aparılan islahatlar üçün mühüm ideya mənbəyi və yol xəritəsi kimi dəyərləndirilir.

Bu məqalədə AMEA-nın ölkədə elm və təhsilin inkişafına verdiyi töhfələri, eləcə də akademiya əməkdaşlarına göstərilən diqqət və qayğını əks etdirən bir sıra materialların yer almasını məqsədəuyğun hesab etdik. Burada ulu öndər Heydər Əliyevin akademiyanın ayrı-ayrı üzvlərinə ünvanladığı təbriklər, görkəmli alimlərin vida mərasimlərində söylədiyi çıxışlardan seçilmiş fikirlər, elm və təhsilin vəhdətini əks etdirən konseptual tezislər təqdim olunur. Eyni zamanda, Azərbaycan xalqının elm tarixinin qədim qaynaqlara söykənən kökləri, milli elmi düşüncənin formalaşması və inkişafı barədə Heydər Əliyevin dərin fəlsəfi mülahizələri də bu materiallarda əksini tapıb.

Bu baxımdan təqdim olunan mətn yalnız tarixi faktların toplusu deyil, həm də Ümummilli liderin elmə, təhsilə və milli intellektual potensiala verdiyi yüksək dəyərin parlaq ifadəsidir.

### 25 yanvar 1999-cu il: Ankara, Gülhanə Tibb Akademiyası

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 25 yanvar 1999-cu il tarixində Ankarada, Gülhanə Tibb Akademiyasında Azərbaycanın nümayəndələri ilə görüşündə Elçin Əfəndiyev, Arif Rəhimzadə, Bəxtiyar Vahabzadə, Əli Nağıyev və Zeynəb Xanlarova iştirak etmişlər. Akademik Bəxtiyar Vahabzadə söhbət zamanı demişdir: "Bizdə, Azərbaycanda da təbabət aşağı səviyyədə olmayıb, bu barədə söhbət eləmişik. İstər təbabət, istərsə də başqa elm sahələri üzrə ən gözəl professorlarımız Moskva məktəbini keçiblər və onların biliyi də aşağı olmayıbdır. Ancaq axır vaxtlar müasir avadanlıq, aparatlar bizdə yoxdur. Mən deyərdim ki, bizim həkimlərimizdə fəhm heç də bunlardan əskik deyildir".

Deyilən fikri müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əliyev belə əsaslandırmışdır: "Bu fikrə tamamilə şərikəm. Keçmiş zamanlarda bizim həkimlərimiz aparatsız-filansız müalicə edirdilər, buradakılar bu xüsusiyyətlərə malikdirlər. Amma, həqiqətən, bizim müxtəlif sahələrdə olan həkimlərimiz, alimlərimiz çox savadlı, bilikli, təcrübəlidirlər".

### 26 noyabr 1994-cü il: BDU-nun 75 illik yubiley mərasimi

***Həmin təntənəli mərasimdə Prezident Heydər Əliyev bildirmişdi:*** "Azərbaycan elmi dünyanın qabaqcıl elmləri sırasındadır. Onun inkişafında Bakı Dövlət Universitetinin fəaliyyəti əvəzsizdir. Bakı Dövlət Universiteti yarandığı gündən Azərbaycanda elmi inkişaf etdirən mərkəzə çevrilmişdir. Sonrakı dövrlərdə Azərbaycanda yaranmış elmi tədqiqat institutlarının əksəriyyəti, elmi ocaqların hamısı öz başlanğıcını Bakı Dövlət Universitetindən götürmüşdür.

Təsadüfi deyil ki, 1945-ci ildə Azərbaycanda ilk Dövlət Milli Akademiyasının yaranması da Bakı Dövlət Universitetinin və onun əsasında, onun şaxələri olaraq yaranmış başqa ali məktəblərin yetişdirdiyi alimlərin fəaliyyəti nəticəsində mümkün olmuşdur. Ona görə də biz Bakı Dövlət Universiteti haqqında danışanda Azərbaycanın həm elmini, həm təhsilini, həm mədəniyyətini, həm də bütün xalqımızın savadlanmasını düşünürük".

Bu qiymətli fikirlər Azərbaycan elminin formalaşmasında və inkişafında Bakı Dövlət Universitetinin tarixi və strateji rolunu dolğun və əsaslandırılmış şəkildə əks etdirir. Burada Bakı Dövlət Universitetinin təkcə ali təhsil müəssisəsi deyil, eyni zamanda, milli elmi fikrin beşiyi, elmi məktəblərin və institutların əsas mənbəyi olduğu aydın şəkildə vurğulanır. Xüsusilə qeyd edilməlidir ki, mətn universitetin ölkədə elmi infrastrukturların yaradılmasında oynadığı aparıcı rolu tarixi faktlarla əsaslandıraraq oxucuda dərin təəssürat yaradır.

1945-ci ildə Dövlət Milli Akademiyasının yaranmasının Bakı Dövlət Universitetinin yetirdiyi alimlərin fəaliyyəti ilə əlaqələndirilməsi universitetin elmi potensialının miqyasını və təsir gücünü açıq şəkildə nümayiş etdirir. Bu yanaşma Bakı Dövlət Universitetinin Azərbaycan elminin institusionallaşmasında həlledici rol oynadığını bir daha təsdiqləyir. Mətnin əsas üstünlüklərindən biri də onun Bakı Dövlət Universitetini elmin, təhsilin və mədəniyyətin vəhdətdə formalaşdığı ümummilli dəyər kimi təqdim etməsidir.

Ümumilikdə, bu fikir və mülahizələr Bakı Dövlət Universitetinin Azərbaycan cəmiyyətinin intellektual inkişafında əvəzsiz xidmətlərini yüksək qiymətləndirir və onun milli tərəqqidəki rolunu obyektiv, qürurverici və ilhamverici şəkildə ifadə edir. Mətn həm tarixi yaddaşın qorunmasına, həm də gələcək nəsillərdə elmə və təhsilə hörmət hissinin gücləndirilməsinə xidmət edən dəyərli bir mənbə kimi səciyyələndirilə bilər.

### 1 sentyabr 2000-ci il: Bakı, 82 saylı məktəbdə Bilik Günü

***Bu görüşdə isə Prezident Heydər Əliyev demişdi:*** "Azərbaycanda xalqımızın geniş mənada təhsilli, bilikli olması və çox geniş məktəb şəbəkələrinin, universitetlərin yaranması böyük, çətin və ağır yollar keçmişdir. Vaxt var idi ki, biz 1919-cu ildə Azərbaycanda ilk dəfə universitet yaradarkən orada dərs demək üçün milli müəllim, professor kadrlarına möhtac idik. Belə kadrlar yox idi, çox az idi, çatışmırdı. Ona görə də başqa ölkələrdən gəlib Azərbaycanda universitetin qurulmasında və təhsilin ilk illərində təhsil sisteminin yaranmasında bizə kömək etdilər.

Bizim ilk dünyəvi məktəblərimiz də elə bu əsrin əvvəlindən yaranmışdır. Ancaq onlar da çox məhdud bir miqdarda gənclərin, uşaqların oxuması imkanına malik idi. Geniş kütlələr isə təhsildən, demək, biliklənmək, elmi mənimsəmək, dünyada gedən tərəqqiyə qoşulmaq imkanlarından məhrum idi.

Tarixi nöqteyi-nəzərdən qısa bir zamanda Azərbaycan xalqı böyük bir yol keçdi. Demək olar ki, 20 il ərzində Azərbaycanda hər yerdə məktəblər, ali təhsil müəssisələri yarandı. Ondan sonra elmi müəssisələr, elmi tədqiqat institutları yarandı. Nəhayət, 1945-ci ildə Azərbaycan elminin ən yüksək zirvəsini təşkil edən Azərbaycan Elmlər Akademiyası yarandı.

Azərbaycan dili! Bu gün iftixar hissi ilə deyə bilərik ki, Sovet hakimiyyəti illərində biz Azərbaycan dilini qoruduq, saxladıq və inkişaf etdirdik. Azərbaycan dili indi çox yüksək səviyyədə, yəni onun qrammatik quruluşu, başqa sahələri yüksək səviyyədə olan bir dildir. Sizə deyə bilərəm ki, başqa ölkələrdə müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".

### 9 mart 1994-cü il: Pekin, İctimai Elmlər Akademiyasında görüş

***O zaman Çin alimləri qarşısında çıxışında Azərbaycan lideri xalqımızın dünya sivilizasiyasına layiqli töhfəsindən söz açmışdı:*** "Azərbaycan kifayət qədər iqtisadi potensiala, zəngin yeraltı və yerüstü sərvətlərə, güclü intellektual, elmi-texniki potensiala malikdir. Respublikamızın çox əlverişli coğrafi-siyasi mövqeyi var, bildiyiniz kimi, Azərbaycan Avropa və Asiyanın qovuşuğunda yerləşir, Rusiya, İran, Türkiyə və hazırda müstəqil dövlət olan Gürcüstanla və müharibə vəziyyətində olduğumuz – bu barədə sonra danışacağam – Ermənistanla həmsərhəddir. Bütün bunlar Azərbaycanın müstəqil dövlət kimi yaşaması üçün şərait yaradır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan çox zəngin tarixi olan qədim ölkədir, Azərbaycan xalqı dünya sivilizasiyasına xeyli töhfə vermişdir. Azərbaycanın ədəbiyyatı, incəsənəti, mədəniyyəti qədim dövrlərdən başlayaraq Şərqdə, həm də təkcə Şərqdə deyil, habelə Qərbdə, Avropada da məlumdur. Bütün bunlar bizim bu günümüz və gələcəyimiz üçün etibarlı bünövrə yaradır".

Bu nitqlər Azərbaycan xalqının təhsil, elm, dil və milli-mənəvi dəyərlər əsasında formalaşan inkişaf yolunun dərin fəlsəfi təhlilini əks etdirir və ümummilli lider Heydər Əliyevin strateji dövlətçilik baxışlarının parlaq ifadəsidir. Bakı şəhərində yeni dərs ilinin başlanması münasibətilə söylənilən nitqdə Heydər Əliyev Azərbaycanın təhsil tarixini real faktlar və tarixi müqayisələr əsasında təqdim edərək, xalqın savadlanma yolunda keçdiyi çətin, lakin şərəfli mərhələni yüksək qiymətləndirir. O, milli müəllim və alim kadrlarının formalaşmasının necə böyük zəhmət bahasına başa gəldiyini xatırladaraq, bu gün əldə olunan nailiyyətlərin dəyərini bir daha cəmiyyətin diqqətinə çatdırır.



***Arif HƏŞİMOV,***
***akademik***

Ulu öndərin çıxışında Azərbaycan təhsil sisteminin qısa tarixi dövrdə geniş məktəb və ali təhsil şəbəkəsinə çevrilməsi xalqın maariflənməsində və elmi potensialın formalaşmasında mühüm dönüş nöqtəsi kimi təqdim olunur. Xüsusilə Azərbaycan Elmlər Akademiyasının yaradılması milli elmin ən yüksək mərhələsi kimi dəyərləndirilir və bu fakt Heydər Əliyevin elmə, elmi institusiyaların möhkəmləndirilməsinə verdiyi strateji əhəmiyyəti açıq şəkildə nümayiş etdirir.

Prezident Heydər Əliyevin Azərbaycan dili ilə bağlı fikirləri isə milli kimliyin və dövlət müstəqilliyinin ideoloji əsaslarını əks etdirən son dərəcə dəyərli mülahizələrdir. Azərbaycan dilinin qorunması, inkişaf etdirilməsi və dövlət dili səviyyəsinə yüksəldilməsi Heydər Əliyevin milli dövlətçilik konsepsiyasının əsas sütunlarından biri kimi təqdim olunur. O, ana dilinin estetik gözəlliyini, zənginliyini və beynəlxalq miqyasda rəğbətlə qarşılanmasını vurğulamaqla, gənc nəsildə dilə sevgi, hörmət və məsuliyyət hissinin formalaşdırılmasına xüsusi önəm verir.

Pekin İctimai Elmlər Akademiyasında səsləndirilən fikirlər isə Heydər Əliyevin Azərbaycanın beynəlxalq imicinə və geosiyasi mövqeyinə dair uzaqgörən baxışlarını əks etdirir. Burada Azərbaycan yalnız təbii sərvətləri ilə deyil, eyni zamanda, güclü intellektual və elmi-texniki potensiala malik müasir dövlət kimi təqdim olunur. Azərbaycanın Avropa ilə Asiyanın qovşağında yerləşməsi, zəngin tarixi, mədəniyyəti və dünya sivilizasiyasına verdiyi töhfələr ölkənin bugünkü və gələcək inkişafı üçün möhkəm təməl kimi dəyərləndirilir.

Ümumilikdə, bu nitqlər Heydər Əliyevin təhsili, elmi, dili və mədəniyyəti milli dövlət quruculuğunun əsas dayaqları kimi qəbul etdiyini aydın şəkildə göstərir. Onun fikirləri həm tarixi yaddaşın qorunmasına, həm milli qürur hissinin gücləndirilməsinə, həm də müasir və müstəqil Azərbaycanın gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə xidmət edən dərin məzmunlu ideya qaynağı kimi böyük əhəmiyyət daşıyır.

***(ardı var)***

*Azərbaycan Mədəniyyəti – 2040*

# Zəngin mədəni irsdən sivil tərəqqinin zirvələrinə

## *Milli-mənəvi yüksəlişin konseptual hədəfləri*

**Bu günlərdə Prezident İlham Əliyev "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sənədin qısa xülasəsində qeyd olunur ki, hüquqi, dünyəvi və demokratik dövlət, sosial rifah və mədəni müxtəliflik prinsiplərinin dərin kök saldığı müasir Azərbaycanda mədəniyyətin intibahı dövrün regional və qlobal çağırışları müstəvisində mühüm əhəmiyyət daşıyır.**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında yeni milli ideologiyanın və buna əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılmasını şərtləndirir. Konsepsiya qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrinin genişləndirilməsi üçün dövlət mədəniyyət siyasətinin istiqamətlərini müəyyən edən və mədəniyyət sahəsi ilə bağlı fəaliyyətə vahid, sistemli və dayanıqlı yanaşmanı təmin edən strateji planlaşdırma sənədidir.

Əsasən, 3 mərhələdə gerçəkləşməsi nəzərdə tutulan, qlobal çağırışlara əsaslanan bu uzunmüddətli yol xəritəsi Azərbaycan dili, davranış və bilgi mədəniyyəti, ədəbiyyat, incəsənət, mədəni irs kimi əsas sahələri əhatə edir. Konsepsiya çərçivəsində Azərbaycan dilinin və ədəbiyyatının inkişafı, milli mədəni və təbii irsinin qorunması, incəsənətin, audiovizual sənayenin, davranış və bilgi mədəniyyətinin, yaradıcı sənayenin inkişafı ilə bağlı dövlət proqramları hazırlanacaq.

Əsas hədəflərdən biri də Azərbaycanın öz tarixi coğrafiyasına mədəni qayıdışını, xalqın məhv edilmiş tarixi mədəni irsinin bərpasını təmin etmək, birləşdirici amil kimi Azərbaycan dilinin regional rolunun bərpasına nail olmaqdır. Təşkilatlanmış mədəni iştirakçılıq respublikamızın regional maraqlarının səmərəli şəkildə təmin edilməsində və qonşu ölkələrlə dostluq münasibətlərinin gücləndirilməsində mühüm rol oynayacaq.

Konsepsiyada mədəniyyət sahəsində mövcud vəziyyət ətraflı təhlil olunub, idarəetmə, Azərbaycan dili, davranış mədəniyyəti, milli-mədəni irs, yaradıcılıq sənayesi, sahəvi diplomatiya ilə bağlı çağırışlar da diqqətə çatdırılır. Bir sıra digər prioritet istiqamətlər, konkret reallaşdırılacaq tədbirlər göstərilir. Müsahiblərimizin bu barədə təhlili fikir və mülahizələrini təqdim edirik.

**Timuçin Əfəndiyev, mədəniyyətşünas, professor:**



– "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ölkəmizin mədəni siyasətinin gələcək onilliklər üzrə strateji istiqamətlərini müəyyənləşdirən mühüm sənəddir. Konsepsiya milli-mədəni irsimizin qorunması və yaşadılması ilə yanaşı, mədəniyyət və incəsənət sahəsinin müasir çağırışlara uyğun şəkildə inkişafına xidmət edir.

Sənəddə mədəniyyətin cəmiyyətin inkişafında aparıcı rolunun xüsusi vurğulanması, yaradıcı potensialın üzə çıxarılması, innovativ yanaşmaların təşviqi və mədəni təhsilin gücləndirilməsi məsələlərinin ön plana çəkilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası yalnız bu günü deyil, gələcək nəsillərin mədəni düşüncə və estetik zövqünün formalaşmasını da hədəfləyən uzaqgörən bir baxışın ifadəsidir.

Bu mühüm strateji sənədin mədəniyyət və incəsənət təhsilinin keyfiyyətinin yüksəldilməsinə, yaradıcı gənclərin yetişdirilməsinə, milli mədəniyyətimizin beynəlxalq miqyasda daha geniş təbliğinə ciddi töhfələr verəcəyinə inanırıq. Əminik ki, "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasının ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi ölkəmizin mədəni həyatında yeni bir inkişaf mərhələsinin başlanğıcı olacaq.

Konsepsiya Azərbaycan mədəniyyətinə yalnız dövlət səviyyəsində qayğı kimi baxılmasını ehtiva etmir, həm də milli dəyərlərin mühafizəsi, inkişafı və gələcək nəsillərə ötürülməsi üçün konkret mexanizmlər gətirir. Sənədin həyata keçirilməsi milli mədəniyyətimizin yüksəlişinə və dünya mədəni mühitində layiqli rol almasına xidmət edəcək.

**Ceyran Mahmudova, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor:**



– Bu konsepsiya milli-mədəni irsimizin qorunması və yaşadılması ilə yanaşı, mədəniyyət və incəsənət sahəsinin müasir çağırışlara uyğun şəkildə inkişafını təmin etməyə xidmət edir.

Sənəddə mədəniyyətin cəmiyyətin inkişafında aparıcı rolunun xüsusi vurğulanması, yaradıcı potensialın üzə çıxarılması, innovativ yanaşmaların təşviqi və mədəni təhsilin gücləndirilməsi məsələlərinin ön plana çəkilməsi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası yalnız bu günü deyil, gələcək nəsillərin mədəni düşüncə və estetik zövqünün formalaşmasını da hədəfləyən uzaqgörən bir baxışın ifadəsidir.

Mühüm sənədin hazırlanması prosesində Mədəniyyət Nazirliyi tərəfindən mədəniyyət və incəsənət xadimləri, ali təhsil müəssisələrinin nümayəndələri, yaradıcı şəxslərlə keçirilən çoxsaylı görüşlər, forumlar və geniş müzakirələr onun əhatəli, praktik və real ehtiyaclara uyğun məzmunda formalaşmasına mühüm töhfə verib. Bu yanaşma mədəniyyət sahəsində açıq dialoqun, yaradıcı mühitlə dövlət strukturları arasında səmərəli əməkdaşlığın bariz nümunəsidir.

Bu önəmli strateji sənədin mədəniyyət və incəsənət təhsilinin keyfiyyətinin yüksəldilməsinə, yaradıcı gənclərin yetişdirilməsinə, milli mədəniyyətimizin beynəlxalq miqyasda daha geniş təbliğinə ciddi töhfələr verəcəyinə inanırıq. Əminik ki, "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasının ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi ölkəmizin mədəni həyatında yeni bir inkişaf mərhələsinin başlanğıcı olacaq.

**Elnarə Akimova, Milli Məclisin deputatı, filologiya elmləri doktoru:**



– Konsepsiyada öz əksini tapan məsələlərdən biri də Azərbaycan ədəbiyyatının, o cümlədən Azərbaycan elmi ədəbiyyatının tanıdılması, Birləşmiş Millətlər Təşkilatının rəsmi dillərinə, türk dillərinə və digər dillərə sistemli tərcüməsi və yayılması məqsədilə "Azərbaycan ədəbiyyatı xaricdə" layihəsinin təsis edilməsidir. Həmin layihə bu sahədəki boşluğun doldurulmasında mühüm addımdır.

Prezident İlham Əliyevin Mədəniyyət Konsepsiyasını təsdiqləməsi mədəniyyət siyasətində uzunmüddətli və sistemli yanaşmanın formalaşdığını göstərir. Konsepsiyada mədəniyyətin bütün sahələri ilə yanaşı, ədəbiyyatın inkişafı, qorunması və beynəlxalq müstəvidə tanıdılması xüsusi yer tutur. Xüsusilə Azərbaycan ədəbiyyatının xarici dillərə tərcüməsi ilə bağlı nəzərdə tutulan "Azərbaycan ədəbiyyatı xaricdə" layihəsi illərdir müzakirə olunan, lakin tam şəkildə institusional həllini tapmayan bir boşluğun doldurulması baxımından mühüm addım kimi dəyərləndirilə bilər.

Hazırda Azərbaycanda tərcümə fəaliyyəti sahəsində vəziyyət bir qədər qeyri-müəyyəndir. Bir tərəfdən, tərcüməyə ehtiyac heç vaxt indiki qədər böyük olmayıb: Azərbaycan ədəbiyyatının, elmi fikrinin, humanitar irsinin dünyaya çıxarılması dövlətin mədəni diplomatiyasının əsas istiqamətlərindən birinə çevrilib. Digər tərəfdən isə bu sahədə uzun illər əsas yükü daşıyan Azərbaycan Dövlət Tərcümə Mərkəzinin ləğvindən sonra mərkəzləşdirilmiş, vahid strategiya ilə işləyən bir qurum faktiki olaraq mövcud deyil. Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi fəaliyyət göstərsə də, onun əsas profili daha çox rəsmi və texniki sənədlərin tərcüməsinə yönəlib və ədəbi tərcümə bu fəaliyyətin mərkəzində dayanmır.

Bu boşluq müəyyən qədər dövlət nəşriyyatları və ayrı-ayrı qurumlar tərəfindən kompensasiya olunur. "Azərnəşr" müxtəlif illərdə Azərbaycan ədəbiyyatının xarici dillərdə nəşrində iştirak edib, Milli Kitabxana isə beynəlxalq kitab mübadiləsi və əməkdaşlıq çərçivəsində ölkə ədəbiyyatının yayılmasına töhfə verməyə çalışır. Bununla yanaşı, özəl nəşriyyatlar və fərdi təşəbbüslər də mövcuddur, lakin bu işlər əsasən sistemsiz, davamlı maliyyə və dövlət sifarişi olmadan həyata keçirilir. Nəticədə tərcümə olunan əsərlərin seçimi, keyfiyyəti və yayımı vahid konsepsiyaya əsaslanmır.

Məhz bu mənzərədə "Azərbaycan ədəbiyyatı xaricdə" layihəsi təkcə yeni bir təşəbbüs deyil, həm də strukturlaşdırıcı mexanizm rolunu oynaya bilər. Əgər bu layihə çərçivəsində prioritet dillər, janrlar və müəlliflər müəyyənləşdirilsə, klassik və müasir ədəbiyyat balansı qorunsa, elmi və humanitar əsərlər ayrıca xətt kimi nəzərdə tutulsa, nəticə daha təsirli olar. Tərcümənin keyfiyyətinə ciddi nəzarət, redaktə və ekspertiza mexanizmləri yaradılmalıdır. Çünki dünya oxucusu üçün Azərbaycan ədəbiyyatının ilk təəssüratı məhz bu tərcümələrin səviyyəsi ilə formalaşacaq.

İcra modeli olacaq bu layihə yalnız dövlət qurumlarının üzərində qalmamalı, özəl nəşriyyatlar, müstəqil tərcüməçilər, universitetlər və xarici tərəfdaşlarla açıq əməkdaşlıq formatında həyata keçirilməlidir. Qrant proqramları, müsabiqələr və rezidentura tipli təşəbbüslər həm gənc tərcüməçilərin yetişməsinə, həm də peşəkar ədəbi tərcümə məktəbinin formalaşmasına xidmət edə bilər. Paralel olaraq rəqəmsal platformaların yaradılması, e-kitab və audiokitab formatlarının istifadəsi Azərbaycan ədəbiyyatının daha geniş auditoriyaya çıxışını təmin edər.

Nəticə etibarilə, "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası çərçivəsində nəzərdə tutulan bu layihə düzgün qurulduğu halda, təkcə tərcümə fəaliyyəti ilə məhdudlaşmayacaq, Azərbaycanın mədəni imicinin formalaşmasında strateji alətə çevriləcək. Əsas məsələ onu formal bir proqram kimi deyil, uzunmüddətli, davamlı və peşəkar şəkildə işləyən bir sistem kimi qurmaqdır. Bu baş verərsə, Azərbaycan ədəbiyyatı ilk dəfə olaraq təsadüfi deyil, planlı və məqsədyönlü şəkildə dünya oxucusunun diqqətinə təqdim oluna bilər.

**Ülviyyə Həmzəyeva, Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri:**



– 2026-cı il yanvarın 14-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ölkənin mədəni inkişafının uzunmüddətli strateji istiqamətlərini müəyyən edən fundamental sənəddir. Bu konseptual sənəd qlobal çağırışlar, regional proseslər və milli maraqlar nəzərə alınmaqla hazırlanıb, Azərbaycan mədəniyyətinin milli kimliyə əsaslanan müasir modelinin formalaşdırılmasını qarşıya məqsəd qoyub.

Müasir Azərbaycan hüquqi, dünyəvi və demokratik dövlət kimi sosial rifahın və mədəni müxtəlifliyin təmin edilməsini əsas prioritetlərindən biri sayır. Dövlət suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasına əsaslanan yeni mədəniyyət siyasətinin formalaşdırılmasını zəruri edib. Bu baxımdan konsepsiya milli-mənəvi dəyərlərin qorunması ilə yanaşı, mədəniyyətin müasir sosial, iqtisadi və texnoloji proseslərə inteqrasiyasını təmin edir.

Fərdin yaradıcı potensialının inkişafında, cəmiyyətin sosial birliyinin möhkəmləndirilməsində və dövlətin strateji məqsədlərinə çatmasında mədəniyyət mühüm rol oynayır. Bu model dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşmasına, eyni zamanda, rəqabətli insan kapitalının və innovativ mühitin yaranmasına xidmət edir.

"Azərbaycan Mədəniyyəti – 2040" konsepsiyası Azərbaycan dili, davranış və bilgi mədəniyyəti, ədəbiyyat, incəsənət və mədəni irsi əhatə edir. Sənəddə milli-mənəvi dəyərlər, tolerantlıq, tarixi şüur, dövlətçilik, hüququn aliliyi və azadlıq kimi dəyərlər Azərbaycan mədəniyyətinin əsas dayaqları kimi müəyyən edilib. Xüsusi vurğu Azərbaycan dilinin qorunmasına, inkişafına və beynəlxalq səviyyədə təbliğinə yönəldilib.

Burada qlobal trendlər də xüsusi yer tutur. BMT-nin 2030 Dayanıqlı İnkişaf Gündəliyi, UNESCO-nun mədəni müxtəlifliyin qorunması ilə bağlı sənədləri, COP29 çərçivəsində irəli sürülmüş "İqlim üçün mədəniyyət" təşəbbüsü və Türk Dövlətləri Təşkilatının "Türk Dünyası – 2040" Vizyonu Azərbaycanın mədəniyyət siyasətinin beynəlxalq kontekstini müəyyən edir. Bu yanaşma mədəniyyətin yalnız milli deyil, həm də qlobal inkişaf amili kimi rolunu gücləndirir.

Nəhayət, "Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyası milli kimliyin qorunması ilə müasir inkişaf arasında tarazlığı təmin edən, Azərbaycan mədəniyyətini qlobal mədəni proseslərin fəal iştirakçısına çevirən strateji sənəddir. Konsepsiyanın uğurla həyata keçirilməsi Azərbaycan mədəniyyətinin beynəlxalq nüfuzunun artmasına, mədəni irsin qorunmasına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verəcək.

**Zaur Əliyev, Bakı Dövlət Universiteti hüquq fakültəsinin dekanı, dosent:**



– Prezidentin təsdiq etdiyi bu konsepsiya ölkəmizin mədəni inkişaf tarixində mühüm hüquqi və mədəni hadisə kimi qiymətləndirilməlidir. Çünki sözügedən sənəd hüquqi və mədəni inkişafın strateji yol xəritəsidir.

Konsepsiya qlobal və daxili çağırışlar nəzərə alınmaqla Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin formalaşdırılması, inkişaf etdirilməsi və 2040-cı ilədək digər mədəniyyətlərlə qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədi daşıyan strateji planlaşdırma sənədidir. Sənəd mədəniyyət sahəsində vahid, sistemli və dayanıqlı dövlət siyasətini təmin edir.

Mühüm sənəd mədəniyyət sahəsinin vahid mövqedən çıxış etməsini nəzərdə tutur ki, bu da Azərbaycanın beynəlxalq arenada güclü və dayanıqlı regional aktor kimi mövqeyinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Çünki mədəniyyət milli suverenliyin qorunmasında həlledici amildir və hər bir xalqın mövcudluğu, ilk növbədə, onun dili və mədəni kimliyi ilə bağlıdır.

Bu baxımdan konsepsiyada Azərbaycan dilinin milli kimliyi müəyyən edən əsas mədəni ünsür kimi təqdim olunması yüksək qiymətləndirilməlidir. Sənəd, eyni zamanda, mədəniyyət diplomatiyasının inkişafını, mədəniyyətdən beynəlxalq münasibətlərdə "yumşaq güc" aləti kimi istifadəni və qloballaşma dövrünün çağırışlarına adekvat cavab mexanizmlərini nəzərdə tutur.

Konsepsiya mədəniyyətə sistemli yanaşma sərgiləyir və Azərbaycan mədəniyyətinin əsas sahələrini əhatə edir. Xüsusilə davranış və bilgi mədəniyyətinin ayrıca istiqamət kimi müəyyən edilməsi mühüm yenilikdir. Sənəddə mədəniyyətin həm mənəvi, həm də iqtisadi tərəfləri qarşılıqlı şəkildə təqdim olunur, mədəni və yaradıcı sənayenin inkişafının əhəmiyyəti vurğulanır. Mədəniyyətlə hüququn vəhdəti əsas prinsip kimi çıxış edir, mədəni fəaliyyətin hüququn aliliyi və insan hüquqları kontekstində həyata keçirilməsi ön plana çəkilir.

Sənədin mühüm cəhətlərindən biri də mədəni hüquqların canlandırılması, onların təbliği və qorunmasıdır. Bu hüquqlar III nəsil insan hüquqlarının əsas komponentlərindən biri olmaqla, uzun müddət kölgədə qalmış sahə hesab edilirdi.

Konsepsiya hüququn ali prinsiplərindən olan insan ləyaqətinə hörməti də özündə ehtiva edir: İnsan hüquqları məhz ləyaqətdən irəli gəlir və ləyaqətin əsasını mədəniyyət təşkil edir. Bu prinsip həm Azərbaycan Respublikası Konstitusiyasında, həm də beynəlxalq hüquqi sənədlərdə təsbit olunub. Konsepsiya multikulturalizm, tolerantlıq və mədəniyyətlərarası dialoqu Azərbaycanın əsas dəyərləri kimi təqdim edir. Prezident İlham Əliyevin vurğuladığı kimi, multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir və bu yanaşma konsepsiyada da öz əksini tapır.

Sənəddə mədəniyyətin rəqəmsallaşdırılması, rəqəmsal mədəniyyətin inkişafı, bilgi mədəniyyətinin təşviqi və bilik cəmiyyətinə keçid kimi məsələlər xüsusi yer tutur. Bu yanaşma UNESCO-nun müasir çağırışları ilə tam uzlaşır və rəqəmsal bərabərsizliyin aradan qaldırılmasına xidmət edir.

Konsepsiyanın hədəfləri Bakı Dövlət Universitetinin hüquq fakültəsi üçün də mühüm əhəmiyyət daşıyır. Fakültədə artıq 2-ci ildir ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Mədəniyyət hüququ" üzrə magistratura ixtisaslaşması uğurla tədris olunur. Konsepsiya bu sahədə hüquqşünas kadrların hazırlanmasına və mədəniyyət hüququnun elmi əsaslarla inkişafına mühüm töhfə verəcək.

**Fəridə Mirişova, "İz Mədəniyyətin İnkişafına Dəstək" İB-nin sədri, AMEA Memarlıq və İncəsənət İnstitutunun əməkdaşı:**



– Konsepsiyanın 2040-cı ilə qədər mərhələlərlə həyata keçirilməsi də onu göstərir ki, burada qısaömürlü kampaniyalardan yox, uzunmüddətli düşüncədən söhbət gedir. Amma hər bir strateji sənəddə olduğu kimi, əsas məsələ onun yazılması yox, necə həyata keçirilməsidir.

"İz Mədəniyyətin İnkişafına Dəstək" İctimai Birliyinin sədri kimi, bu konsepsiyanı oxuyarkən bir məqam xüsusilə diqqətimi çəkdi: sənəd mədəniyyətin məsuliyyətini yalnız dövlətin üzərində saxlamır. Burada açıq mesaj var: mədəniyyət onu daşıyan cəmiyyət olmadan yaşaya bilməz. Bu isə vətəndaş cəmiyyətinin, xüsusilə mədəniyyət sahəsində çalışan QHT-lərin rolunu artırır.

Məncə, konsepsiyanın uğuru bir neçə sadə, amma vacib məqamdan asılıdır. Əvvəla, mədəni irsi, sadəcə, toplamaq və rəqəmsallaşdırmaq kifayət deyil. İrsimizin tarixi-mədəni əhəmiyyətini başa düşməli, qiymətləndirməliyik. İnsan anlamadığı, dərk etmədiyi dəyəri yaşada bilməz. İkincisi, qeyri-maddi mədəni irs – folklor, musiqi, şifahi ənənələr – yalnız sənəd kimi yox, canlı ünsiyyət yolu ilə ötürülməlidir. Ustad-şagird münasibəti, canlı yaddaş bu baxımdan həlledici əhəmiyyət daşıyır. Üçüncüsü, konsepsiyada vurğulanan davranış və bilik mədəniyyəti cəmiyyətdə formal yanaşma ilə məhdudlaşmamalıdır. Mədəniyyət təkcə nə oxuduğumuz deyil, necə danışdığımız, necə dinlədiyimiz, fərqli olana necə yanaşdığımızdır.

Onu da bildirək ki, dövlətlə QHT-lər arasında münasibətlər formal xarakter daşımamalıdır. Mədəniyyət sahəsində çalışan QHT-lər sadəcə icraçı yox, düşünən və məsuliyyət daşıyan tərəfdaş kimi qəbul edilməlidir.

Sonda vurğulayım ki, sözügedən konsepsiya mədəniyyətə münasibəti dəyişən real bir yol xəritəsinə çevrilməlidir. Bu isə artıq təkcə dövlətin yox, hamımızın seçimidir. Mədəniyyət qorunan bir əşya deyil, yaşadılan dəyərdir. Bu dəyəri yaşatmaq isə hər birimizin üzərinə düşən ortaq məsuliyyətdir.

*Hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

*I Türkoloji Qurultay*

# Türk dünyasının ilk ortaq elmi platforması

**1926-cı ilin 26 fevral – 6 martında Bakıda keçirilmiş I Türkoloji Qurultay XX əsrdə türk xalqlarının, xüsusilə də azərbaycanlıların mədəni və elmi həyatında dönüş nöqtəsi sayılan hadisələrdən biri olmuşdu. Məhz bu mötəbər toplantıda SSRİ məkanında yaşayan türk xalqlarının tarixi, dili, ədəbiyyatı, etnoqrafiyası və mədəni irsi ilə bağlı bir sıra önəmli qərarlar qəbul olunmuş, xüsusilə latın qrafikalı əlifbaya keçidin elmi və metodoloji əsasları formalaşdırılmışdı. Mövzu ilə bağlı müsahibimiz Əməkdar jurnalist, tarix üzrə fəlsəfə doktoru, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlıdır.**



**– Sovet Azərbaycanının paytaxtında 1 əsr keçirilmiş Türkoloji qurultayın ideoloji və siyasi hədəfləri də var idi. Sovet hakimiyyəti bu mötəbər toplantıya ev sahibliyi üçün Bakını şübhəsiz, səbəbsiz seçməmişdi...**

– Bu məsələ ilə bağlı həm dövrü mətbuatda, həm də arxiv materiallarında müəyyən məlumatlara rast gəlinir. Araşdırmalar göstərir ki, Bakının mərkəz kimi seçilməsinin bir neçə əsas səbəbi olub. Akademik Bartold (V.V. Bartold) Qurultayın keçirilməsi ərəfəsində "Kommunist" qəzetində çap olunan məqaləsində bu məsələ ilə bağlı qeyd edirdi ki, Azərbaycan sovetləşəndən sonra türk cümhuriyyətləri arasında elmi və akademik həyatın sürətlə inkişaf etdiyi məkanlardan biri məhz Bakı idi. Burada darülfünun ənənələri, universitet mühiti, elmi və tələbə həyatı digər türk dövlətləri ilə müqayisədə daha çox formalaşmışdı. Mühüm amillərdən biri də Bakının coğrafi mövqeyi idi. Azərbaycan Cümhuriyyəti Anadolu, Mərkəzi Asiya və digər Türk bölgələrinin əksəriyyətinə nisbətən mərkəzdə yerləşir, qurultay nümayəndələrin gəlişini asanlaşdırırdı.

Qurultayın keçirilməsi üçün müxtəlif məkanlar müzakirə olunsa da, siyasi şərait, təşkilati çətinliklər və maddi məhdudiyyətlər bu variantların reallaşmasına imkan verməmişdi. Əvvəllər qurultayın Şərqşünaslığın mərkəzi olaraq qəbul edilən Leninqradda (Sankt-Peterburq) keçirilməsi nəzərdə tutulmuşdu, Bakı isə neft şəhəri kimi iqtisadi baxımdan daha əlverişli imkanlara malik idi.

Bakının seçilməsində kiçik bir siyasi məqam da var idi, Leninqraddan fərqli olaraq Bakı bir Türk şəhəri idi, xaricdən bu qurultayın keçirilməsinə diqqət yönəldilən mərkəzlərə sovet ideoloqlarının mesajı idi ki, imperiya adlandırılsa da sovetlər tərkibindəki xalqların inkişafına çalışır, ruslaşdırma siyasəti yeritmir.

Ümumilikdə, I Türkoloji Qurultayın əsas məqsədi ərəb əlifbasının islahı, latın qrafikalı yeni türk əlifbasına keçidilə bağlı elmi əsaslandırılmış qərarların qəbul edilməsi idi və bu baxımdan mühüm platforma rolunu oynadı. Qurultay təkcə hərf inqilabı ilə yadda qalmadı, ortaq türk tarixi, etnoqrafiyası, arxeologiyası, ortaq türk tarixi muzeyinin yaradılması, dilin sadələşdirilməsi barədə intellektual müzakirə və qərarların qəbulu ilə tarixləşdi.

Bu müzakirələr çərçivəsində bəzi alimlər ərəb əlifbasını qoruyub saxlamağı, lakin onun üzərində ciddi islahatlar aparmağı təklif edirdilər. Tatar alimi, ictimai-siyasi xadim Ayaz İsaki bu mövqeyə tənqidi yanaşaraq qeyd edirdi ki, artıq "köhnəlmiş və quyruğu kəsilmiş" ərəb əlifbası üzərində aparılacaq islahatlar səmərəli nəticələr verməyəcək. Onun fikrincə, əgər doğrudan da islahat aparılacaqsa, bu, köklü şəkildə baş verməli və yeni əlifba modeli nəzərdən keçirilməli idi. Məhz bu baxımdan o, ərəb əlifbası ilə bağlı islahatlar aparılmasından çox, latın qrafikalı əlifbaya keçidin tərəfdarı idi.

**– Azərbaycan alimlərinin və rəsmilərinin əlifba islahatında tutduqları mövqe necə idi?**

– Ərəb əlifbasının latın qrafikasına keçidlə bağlı böyük mütəfəkkir Mirzə Fətəli Axundzadənin fəaliyyəti tarixi baxımdan bizim üçün çox önəmlidir. Onun həyat və yaradıcılığına nəzər saldıqda görürük ki, dahi mütəfəkkir 1850-ci ildən sonra ömrünün böyük bir hissəsini əlifba islahatlarına həsr edib, bu məqsədlə Osmanlı dövləti, İran və digər ölkələrə səfərlərdə olub, ərəb əlifbasının dəyişdirilməsi ilə bağlı layihələr irəli sürüb.

Amma Sovetlər dönəmində əlifba islahatı ideoloji xarakter daşıyırdı. Həmin dövrdə uzun müddət köhnə təhsil sistemlərinin təsiri altında qalmış türk xalqlarının mədəni-elmi inkişafı və dünyəvi elmlərə çıxışının genişləndirilməsi üçün əlifba islahatı zəruri hesab edilirdi. Ərəb əlifbasının fonetik uyğunsuzluğu insanları savadsızlaşdırır, elmi biliklərin yayılmasına mane olurdu. Bu səbəbdən əlifba islahatı türk xalqlarının mədəni tərəqqisi baxımından vacib addım kimi dəyərləndirilirdi.

Bu mövzu ilə bağlı Leninqradda Şərqşünaslıq Universitetində də mümkün variantlardan biri kimi əlifba islahatı müzakirə olunmuşdu. Şərqşünaslıq sahəsində aparıcı mövqeyə malik olan bu şəhərdə tanınmış alimlər olsa da, təşkilatçılar türk dilləri üzərində əlifba islahatının aparılması prosesinin mütləq bir türk ölkəsində reallaşdırılmasını daha məqsədəuyğun sayırdılar. Əlifba islahatı təkcə Azərbaycanda deyil, bütün Türk coğrafiyalarında müzakirəyə çıxarılmışdı, Özbəkistan bu məsələdə öncüllük edirdi.

**– O zaman yeganə müstəqil türk dövləti olan Türkiyə yeni əlifba məsələsinə necə yanaşırdı?**

– Türkiyədə də əlifba islahatı barədə elmi müzakirələr keçirilirdi, amma onlar tələsmirdilər, sovetlərin niyyətini öyrənmək də məqsədlərdən biri idi. Qurultayda fəal iştirak edən məşhur türkoloq, professor Fuad Köprülü Azərbaycan jurnalistlərinə verdiyi qısa açıqlamada bildirirdi ki, Türkiyədə 15 ildir ki, ərəb əlifbasının islahı ilə bağlı elmi müzakirələr keçirilir, amma hərf inqilabı təkcə elmi deyil, həm də ictimai əhəmiyyət daşıdığından bu barədə ortada konkret mövqe yoxdur.

Türkiyə Cümhuriyyəti Sovet Rusiyası ilə dövlətlərarası dostluq, əməkdaşlıq müqaviləsi imzalasa da, əlaqələr yüksək səviyyədə olsa da, xaricdə yaşayan türk xalqlarının taleyinə biganə deyildi. Sovetlərlə ideoloji fərqlilikləri də unutmaq olmazdı. Sovet Rusiyası əsarət altına aldıqları Türk Cümhuriyyətlərinin Türkiyə ilə mənəvi bağlarını qırmaq üçün əlifba islahatını da tezləşdirirdi. Çünki Azərbaycan da daxil olmaqla, Türkistan, Şimali Qafqaz mühacirlərinin böyük əksəriyyəti Türkiyədə idi, bolşevizmə qarşı mübarizə aparırdı, qəzetlər, dərgi və məcmuələr çap edirdilər. Bu nəşrlər ərəb əlifbasında idi, çətinliklə də olsa gizli yollarla Azərbaycana, Türkistana gətirilir, yayılırdı. Sovetlərin ideoloji niyyətlərindən biri də bu fakt idi.

Türkiyədən qurultaya dəvət olunan alimlər – Professorlar Fuad Köprülü və Əli bəy Hüseynzadə Bakıda çox diqqətlə və yüksək səviyyədə qarşılandılar. Bu alimlərdən "Kommunist", "Yeni fikir" qəzetləri açıqlamalar aldı, Fuad Köprülü "Yeni Fikir" qəzetinə qısa, amma mesajlarla dolu müsahibə verdi, fikirlərinin təhrifi ilə bağlı etiraz etdi.

Sovet tərəfi üçün əsas maraq doğuran məsələ Əli bəy Hüseynzadənin, Fuad Köprülünün əlifba islahatı ilə bağlı hansı mövqedən çıxış edəcəkləri idi. Xüsusilə ərəb əlifbasının tamamilə ləğv edilməsi məsələsində onların açıq və konkret fikir bildirəcəkləri gözlənilirdi. Lakin onlar bu mövzuda olduqca ehtiyatlı mövqe tutmuşdular. Bunun əsas səbəbi qardaş ölkənin özündə bu prosesin hələ davam etməsi idi.

Bundan əlavə, Sovet hakimiyyəti 1920-ci illərin əvvəllərindən etibarən dinə qarşı sistemli mübarizəyə başlamışdı. Əlifbanın dəyişdirilməsi vasitəsilə dini inancla bağlı emosional və mənəvi bağların zəiflədiləcəyi düşünülürdü. Açıq şəkildə vurğulanırdı ki, ərəb əlifbası bir növ "Quran əlifbası" kimi qəbul olunur və onun dəyişdirilməsi insanların dini düşüncə tərzindən uzaqlaşdırılmasına xidmət edəcək.

Türkiyədə latın qrafikasına keçid 1928-ci ildə baş verdi. Lakin bu proses sovetlər üçün müəyyən riskləri də artırdı. Çünki Türkiyə ilə ideoloji və mədəni əlaqələrin davam etməsi sovetlərin maraqlarına uyğun deyildi. Məsələn, İstanbulda Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə nəşr olunan "Yeni Qafqaziya", "Azəri türk", "Odlu yurd" jurnallarında bu mövzuya toxunulur. Bu dərgilərin əsas ideyası bolşevizmə qarşı mübarizə, sovet hakimiyyətinin türk xalqlarına, xüsusilə Azərbaycana və Cənubi Qafqaza qarşı apardığı assimilyasiya və milli kimliyi zəiflətmə siyasətinin ifşası idi.

**– Türkoloji qurultayda qəbul olunan qərarlardan hansıları bu gün də aktualdır?**

– Əslində, qurultayda qəbul edilən qərarlar yalnız əlifba məsələsi ilə məhdudlaşmırdı. Əsas hədəflərdən biri türk dillərinin ərəb və fars mənşəli ağır sözlərdən təmizlənməsi, dilin sadələşdirilməsi idi. Bununla yanaşı, ortaq türk tarixinin yazılması ideyası da qurultayın əsas mövzularından idi. Bu gün də bu məsələ Türk Dövlətləri Təşkilatında (TDT) aktualdır. Çünki ortaq türk tarixi yazmaq üçün ortaq arxeoloji ekspedisiyalara, ümumi arxiv materiallarına və koordinasiyalı elmi fəaliyyətə ehtiyac var.

Qurultayda bu istiqamətdə də ciddi müzakirələr aparılmışdı. Hətta ortaq türk muzeyinin yaradılması məsələsi belə gündəmə gətirilmişdi. Yəni bu gün qarşılaşdığımız problemlərin böyük bir qismi hələ yüz il əvvəl Türkoloji Qurultayda müzakirə olunmuşdu.

**– Qurultayda iştirak edən şəxslərin bir çoxunun sonradan repressiyaya məruz qalmasının səbəbləri nə idi?**

– Qurultaya, ümumilikdə, 300-ə yaxın nümayəndə dəvət olunmuşdu. Onların, təxminən, 130-u əsas iştirakçı idi və sonrakı illərdə bu şəxslərin böyük əksəriyyəti – müxtəlif mənbələrə görə, 100-ə yaxını – repressiyalara məruz qaldı. Bu, təsadüfi deyildi. Türk xalqlarının tarixini və dillər arasındakı yaxınlığı elmi əsaslarla araşdıran alimlər ümumtürk dil birliyi ideyasını irəli sürürdülər ki, bu da sovet ideologiyası tərəfindən açıq millətçilik kimi qiymətləndirilirdi. Xüsusilə Bəkir Çobanzadənin türk dillərinin müqayisəli təhlili, ədəbi dilin formalaşması və ümumtürk ədəbiyyat tarixi ilə bağlı tədqiqatları ideoloji məna daşıyırdı.

Qazax alimi Əhməd Baytursun və Qazaxıstan nümayəndələri də latın qrafikasına keçidə ehtiyatla yanaşır, Krım tatarları isə ərəb əlifbası ilə formalaşmış mədəni irsin itirilə biləcəyindən narahat olurdular. Özbəkistan nümayəndələrindən Alimcan Şərəfov latın qrafikasının qəbulunun əleyhinə idi, qurultayda bir saatdan çox latınçılarla mübarizə




apardı. Məruzələrdə əlifba islahatının texniki tərəflərinə də daha çox diqqət yönəldilirdi.

Bundan başqa, latın qrafikasına keçid ciddi maddi-texniki imkanlar tələb edirdi. Qurultayda kommunist ideoloqlar, ərəb əlifbasının tərəfdarları və latın dilinə keçidin tərəfdarları arasında açıq mübahisələr gedir, proses nəzarət altında saxlanılırdı. Buna baxmayaraq, məsələlərin əvvəlcədən müəyyən edilmiş qərarlar olmadan, müzakirə yolu ilə həll edildiyi vurğulanırdı. Məsələn, Səməd Ağamalıoğlu "Kommunist" qəzetində dərc olunan məqaləsində qeyd edirdi ki, burada əvvəlcədən şərtləndirilmiş qərarlar yoxdur və qurultay hansısa qərarı zorla qəbul etdirmək məqsədi daşımır. Bu da təsadüfi deyildi. Çünki qurultayda dünya miqyasında tanınan, qəbul edilən alimlər iştirak edirdilər.

Bu cür nüfuzlu elm adamları üzərində açıq təzyiq göstərmək mümkün deyildi. 1926-cı ilin martn 3-ü və 4-də səhər və axşam iclasları ərəb hürüfatının islahına həsr olundu, bu mövzuda 19 məruzə dinlənildi, qızğın çəkişmələr, fikir dartışmaları oldu. 7 nəfər əleyhinə, 101 nəfər lehinə olmaqla türk xalqları üçün vahid Yeni Türk Əlifbası qəbul olundu.

**– Türkoloji qurultayın tarixi əhəmiyyəti nədən ibarətdir? Bu nadir toplantı Azərbaycan elmi, mədəni və ictimai fikrinin formalaşmasına necə təsir göstərdi?**

– Bizim üçün qurultayın ən mühüm qərarlarından biri Azərbaycan mətbuatı ilə bağlı idi. Jurnalistika tarixi baxımından bu dövr xüsusi əhəmiyyət daşıyır. Məhz həmin illərdə latın qrafikasına keçid prosesi yaşanırdı. "Əkinçi" qəzetinin nəşri ilə başlayan milli mətbuat ənənəsinin 1925-ci ildə yeni əlifba ilə davam etdirilməsi məsələsi gündəmə gətirilmişdi. Xüsusi qərar qəbul olunmuşdu ki, Azərbaycan milli mətbuatı "Əkinçi" ilə başlanan yolu latın qrafikası əsasında davam etdirsin.

Bu məqsədlə geniş hazırlıq işləri aparılmışdı, tədqiqatçılar Tbilisi, Leninqrad, Moskva, Kazan və digər mərkəzlərə ezam olunmuş, Azərbaycan mətbuatına aid qəzet, jurnal və kitab nümunələrinin toplanması işi həyata keçirilmişdi. Məqsəd həmin nəşrlərin qorunub saxlanılan nüsxələrini Bakıya gətirmək və 1925-ci ildə Azərbaycan milli mətbuatının 50 illik yubileyini keçirmək idi. Bununla bağlı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və hökumət qərar qəbul etmişdi. Amma sonradan, nədənsə, milli mətbuatın 50 illiyinin Türkoloji Qurultay çərçivəsində keçirilməsi qərarlaşdırıldı.

Qurultayın ilk günü, yəni fevralın 26-da, "İsmailiyyə" binasında Azərbaycan milli mətbuatına həsr olunmuş ayrıca sərgi də təşkil olundu. Sərgidə 80-dən çox qəzet, jurnal və dərgi nümayiş etdirildi, "Əkinçi"dən başlayaraq "Ziya", "Kəşkül" , "Şərqi-Rus", "Molla Nəsrəddin" qəzet və dərgilərlə yanaşı, bir çox bolşevik nəşrlər də nümayiş olunurdu.

Amma bu qəzetlərin seçimində də ideoloji yanaşma tətbiq olunduğu sezilirdi. Səbəb də aydın idi: ya həmin materiallar əldə olunmamış, ya da ideoloji baxımdan məqsədəuyğun sayılmamışdı. Milli mətbuatımızın təməlini təşkil edən nəşrlərdən olan "Həyat", "İrşad" , "Füyuzat" sərginin eksponatları sırasında deyildi. Lakin "İnqilab və mədəniyyət" jurnalı, "Şərq qadını" kimi sovet dövründə nəşr edilən mətbu orqanlar sərgidə təqdim olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövrünü birbaşa əks etdirən qəzetlər sərgidə yox idi. Əlbəttə, ideoloji baxımdan "Azərbaycan" qəzetinin sərgidə yer almaması müəyyən mənada başadüşüləndir. Əgər Əli bəy Hüseynzadə uzun müddətdən sonra Bakıya dəvət olunurdusa, bu ali akademik tədbirin adı Türkoloji Qurultay idisə, türkoloji hərəkatdan, türkçülüyün başlanğıc mərhələsindən danışılırdısa və bu baxımdan "Həyat" qəzeti əsas baza kimi qəbul edilirdisə, o zaman belə nəşrlər də mütləq şəkildə təqdim olunmalı idi.

Əli bəy Hüseynzadənin qurultay çərçivəsindəki çıxışı və ziyafətdə söylədikləri isə xüsusilə diqqətəlayiqdir. Qurultay günlərində təşkil olunan ziyafətlərdə "Kommunist", "Yeni Fikir" kimi qəzetlərin əməkdaşları onlardan müsahibələr alırdılar. Onlar qısa, diplomatik tərzdə cavab verirdilər ki, Azərbaycanda baş verən yenilikləri görmək sevindirici haldır. Hətta Əli bəy Hüseynzadəyə sual verirlər ki, siz bu əlifba islahatının tərəfdarısınızmı? Cavabında bildirir ki, ümumilikdə türk dünyasında hər cür yeniliyin, inqilabın tərəfdarıdır.

Əli bəy Hüseynzadə çox maraqlı bir xatirə də danışır. O deyir ki, vaxtilə Leninin qardaşı Saşa Ulyanovla birlikdə eyni vaxtda, eyni təhsil ocağında oxuyub. Həmin illərdə çar rejiminə qarşı fəaliyyət göstərmək, xalqların azadlığı uğrunda mübarizə aparıblar.

Bu cəhdlərin nəticəsiz qaldığını, lakin həmin ideyaların sonradan reallaşdığını, indiki Sovet Azərbaycanının timsalında həyata keçdiyini diplomatik tərzdə ifadə edir. Əlavə məqamlara isə toxunulmurdu, çünki həmin dövrdə Sovet Rusiyası ilə Türkiyə arasında artıq müəyyən siyasi razılaşma formalaşmışdı. 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsi bu münasibətlərin əsasını qoymuşdu. Sonrakı illərdə tərəflər arasında bir-birinə qarşı ittihamların irəli sürülməməsi və ideoloji təxribatlardan istifadə edilməməsi barədə də qarşılıqlı öhdəliklər qəbul etmişdilər. Bu qərarlar mətbuat və ideoloji mühitə də birbaşa təsir göstərmişdi.

***Müsahibəni qələmə aldı:***
***Ləman TƏHMƏZ***
***XQ***

*Dünyadan gələn sorağımız*

# Azərbaycan teatrının Çingiz Aytmatov mükafatçısı

## *İftixar Piriyev insan ruhuna xeyir toxumu səpən sənətkardır*



**Elə tanışlıqlar var ki, uzun-uzadı "siz kimsiniz?" və "haradansınız?" suallarına ehtiyac duymur. Sanki, iki insan çoxdan – başqa bir ölkədə, özgə bir dövrdə, ayrı bir kitabda başlanmış söhbəti, sadəcə, davam etdirir.**

Biz Səmərqənddə tanış olduq – daş plitələrin ulu bir keçmişi xatırlatdığı, havasına qədim bir tarixin qarışdığı bir şəhərdə. O zaman İftixar Piriyevin "Böyük Turan" pyesi səhnələşdirilirdi. Bu əsər Mərkəzi Asiya, Türkiyə və Azərbaycanın mədəniyyət xadimlərini bir araya gətirən beynəlxalq layihə idi. İlk dəqiqələrdən bəlli oldu: biz eyni məramla düşünürük. Oxşar olduğumuz üçün yox, əksinə, əsas olanı eyni cür eşitdiyimiz üçün. Və məhz bu "əsas" bizi istənilən protokol sözlərindən daha möhkəm bağlayırdı.

O vaxtdan aramızda, sadəcə, dostluq deyil, yaradıcılıq bağı formalaşdı və illər keçdikcə möhkəmləndi. Bu yaxınlarda Mövlana Cəlaləddin Rumi haqqında "Yenə gəl..." adlı pyesi birgə yazıb tamamladıq. Və öz-özümə düşündüm: belə bir həmmüəllif yanında olanda söz sənətkarlığa yox, xalqlarımıza xidmətə çevrilir.

İftixar Piriyev peşəsi şəxsiyyətindən ayrılmayan yaradıcı insanlardandır. O, teatrı "oynamır", onunla nəfəs alır. Elə buna görə də rejissorluqda, dramaturgiyada, aktyorluqda və araşdırmalarında eyni daxili möhür hiss olunur: sənət qarşısında məsuliyyət.

2000-ci ildən etibarən o, İrəvan Dövlət Azərbaycan Dram Teatrına rəhbərlik edib. Bu mərhələdə teatr onun rəhbərliyi altında yeni inkişaf yoluna çıxıb. 2025-ci ildə əmək fəaliyyəti üçün müəyyən edilmiş yaş həddinə çataraq teatrın direktor vəzifəsindən azad olunub, həyatının yeni mərhələsini elmə və dramaturgiyaya həsr edib.

Onu yalnız teatr rəhbəri kimi təqdim etmək olmaz, çünki bu insan, hər şeydən əvvəl, sənətkardır. İftixar Piriyevin bu məharətini açıq göstərən uca bir göstərici var: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş qastrol tamaşasında Əliyev obrazını teatrın direktoru İftixar Piriyev özü canlandırmışdı. Bu, şöhrətpərəstlikdən deyil, məsuliyyətdən irəli gəlmişdi. Sanki, onun daxilindəki rejissorla aktyor eyni məqsədə xidmət etmək barədə razılaşmışdı.

İftixar Piriyevin istedadının və xarakterinin xüsusi cəhətlərindən biri cəsarət və novatorluqdur. O, sənətşünaslıq üzrə fəlsəfə doktorudur, adətən, ayrılıqda mövcud olan sahələri, dərin nəzəriyyə ilə səhnə praktikasını birləşdirməkdən çəkinməyən tədqiqatçıdır.

Azərbaycanda onun teatr düşüncəsinə "qeyri-səlis məntiq" nəzəriyyəsinin tətbiqi ilə bağlı istiqaməti yaxşı tanınır; nəşrlərdə vurğulanır ki, o, səhnə sənətinə fəlsəfə, psixologiya və səhnə ifadəliliyini birləşdirən orijinal konsepsiya gətirib.

Bu mərhələdə İftixar Piriyevin "Elçin teatrı: Absurd dram "Qeyri-səlis məntiq" nəzəriyyəsi kontekstində" kitabının təqdimatı mədəniyyət nüfuzlu qurumlarının iştirakı ilə keçirildi. Bu əsər Elçinin dramaturgiyasına və teatrına "qeyri-səlis məntiq" prizmasından yeni baxış cəhdini təsbit etdi. Bu kitabla bağlı fikirlərimi — resenziyamı ayrıca məqalədə təqdim etmişəm.

Onu alim kimi mənə xüsusilə doğma edən cəhəti isə budur: İftixar teatrı quru formulaların arxasında gizlətmir. Əksinə, formulanı insana yönələn canlı cığıra çevirir. Çünki teatr, son nəticədə, terminlərlə deyil, tamaşaçının ürəyində cücərtdiyi həqiqətlə ölçülür.

2025-ci ildə İftixar Piriyev xalqlar arasında sülhün və dostluğun sənət vasitəsilə möhkəmləndirilməsinə verdiyi töhfəyə, o cümlədən Azərbaycan–Qırğız ədəbi-teatr əlaqələrinin inkişafına görə Beynəlxalq İssık-Kul Forumunun Rəyasət Heyətinin qərarı ilə Çingiz Aytmatov adına medalla təltif olundu. Yüksək beynəlxalq mükafatı Bişkekdə təntənəli şəkildə böyük klassikin oğlu, İssık-Kul Forumunun prezidenti Askar Aytmatov təqdim etdi.

O günlərdə Qırğızıstanın paytaxtında azərbaycanlı şair və dramaturqla yaradıcılıq görüşləri keçirildi, "qeyri-səlis məntiq" mövzusunda monoqrafiyalarının təqdimatları oldu və bu işlər teatr sənətinə yenilik və töhfə kimi qiymətləndirildi.

Şərq insanı fəzilət haqqında sözlərin çoxluğu ilə deyil, ona necə əməl etməsi ilə ucalır. İftixar Piriyevin sənəti və şəxsiyyəti məhz bu gerçəyi təcəssüm etdirir. Bizim yaradıcılıq tandemimiz faydaya yox, hörmətə söykənir. Bu, hər bir birgə sətirdə hiss olunur: biri yazanda digəri mane olmur, gücləndirir. Biri tərəddüd edəndə digəri təriflə yox, dəqiqliklə inamı qaytarır.

Böyük Mövlana Rumi dünyaya deyirdi: "Gəl, yenə gəl". Bu, ümidə və mənəvi yüksəlişə çağırışdır. Mənə elə gəlir ki, İftixar Piriyev ömrü boyu bu ifadəni sözlə yox, əməllə yaşayıb. Elə buna görə də o, təkcə Azərbaycanda tanınmır: bu tip teatr yerli janr deyil, universal dildir. Dostum və qardaşım İftixar bəy dünyada varlığı təkcə sezilən deyil, işıq saçan insanlardandır. O, insan ruhlarına xeyir toxumu səpir — şüarlarla yox, düşünmə və yaratma tərzi ilə; tamaşaçının ürəyində apardığı məna ilə düşüncə paradiqması yaradır. Çünki həqiqi sənət əyləncə deyil, vicdanın oyanışıdır.

Görünür, tale özü İftixar bəyin qarşısında yeni bir səhifə açıb: teatra xidmətin böyük bir dövrünü başa vuraraq, o, daha məsul və nüfuzlu bir mərhələyə qədəm qoyur. Burada elm və dramaturji yaradıcılıq missiyanın davamına çevrilir.

***Bekijan ƏHMƏDOV,***
***Qırğızıstanın Əməkdar mədəniyyət xadimi,***
***Qırğızıstan, Azərbaycan və Özbəkistan***
***Yazıçılar ittifaqlarının üzvü***

*Dünya və biz*

# Nəhəng dövlətlərin borcu da böyükdür

## *Dünya ölkələrinin ümumi ödəmələri 111 trilyon dollardır*

**Dünya iqtisadiyyatı indiyədək görünməyən bir vəziyyətlə üz-üzədir. Bütün dövlətlər bir-birinə borcludur. Beynəlxalq Valyuta Fondunun (BVF) 2025-ci il hesabatına əsasən, hazırda dünya ölkələrinin ümumi dövlət borcu, təqribən, 111 trilyon dollardır. Qlobal dövlət borcunun üçdəbirindən çoxu ABŞ-ın payına düşür. Ümumilikdə isə ən yüksək borc yükü əsasən inkişaf etmiş ölkələrin – nəhənglərin üzərində cəmləşir. BVF-nin qiymətləndirməsinə görə, bu ölkələrdə dövlət borcu iqtisadi artımı dəstəkləmək, işsizliyi azaltmaq, inflyasiyanı nəzarətdə saxlamaq məqsədilə istifadə edilir.**

Dövlət borcu ən yüksək olan 10 ölkə arasında ABŞ 38,5 trilyon dollar borcla ilk sıradadır. Sonrakı yerlərdə 18,7 trilyon dollar borcla Çin və 9,8 trilyon dollarla Yaponiya qərarlaşır. Siyahıda Böyük Britaniya (4,1 trilyon dollar), Fransa (3,9 trilyon dollar), İtaliya (3,5 trilyon dollar), Hindistan (3,4 trilyon dollar), Almaniya (3,3 trilyon dollar), Kanada (2,6 trilyon dollar) və Braziliya (2 trilyon dollar) yer alır.

Xatırladaq ki, Azərbaycanın dövlət borcu 25,9 milyard dollar təşkil edir ki, bu da ölkənin ümumi daxili məhsulunun 19,5 faizinə bərabərdir. Borcun 8,3 milyard manatı (4,9 milyard dollar) və ya 32,8 faizi xarici dövlət, 17 milyard manatı və ya 67,2 faizi isə daxili dövlət borclarının payına düşür.

Yuxarıda diqqətə çatdırılan dünya ölkələrinin ümumi dövlət borcunun 111 trilyon dollar olması faktı artıq sadəcə maliyyə statistikası deyil, bu, eyni zamanda, qlobal iqtisadi sistemin dayanıqlığına dair açıq xəbərdarlıqdır. Ortaya isə son dərəcə narahatedici sual çıxır: əgər bütün dövlətlər borcludursa, bəs bu qədər pulu kim verir?

### Borc artımı inkişafı, yoxsa kasıblığı göstərir?

Ekspertlərin sözlərinə görə, son onilliklərdə borc artımı demək olar ki, “normal iqtisadi proses” kimi təqdim olunur. Böhran zamanı – resessiya riski yarananda sosial gərginlik artanda borc alınması iqtisadiyyatı stimullaşdırır və xərcləri artırır. Nəticədə isə dünya iqtisadiyyatı, necə deyərlər, borcsuz nəfəs ala bilməyən sistemə çevrilir.

BVF-nin hesabatı göstərir ki, qlobal dövlət borcunun üçdə birindən çoxu ABŞ-ın payına düşür. 38,5 trilyon dollarlıq borc təkcə bir ölkənin maliyyə göstəricisi deyil, bu, həm də bütün dünya üçün risk mənbəyidir. Çin (18,7 trilyon dollar) və Yaponiya (9,8 trilyon dollar) da eyni borc zəncirinin əsas iştirakçılarıdır. Siyahının davamında Avropanın aparıcı dövlətləri yer alır. Maraqlıdır ki, borcun əsas yükü məhz inkişaf etmiş ölkələrin üzərindədir. Belə bir vəziyyət isə, əslində, sadə bir həqiqəti ortaya qoyur: bu gün beynəlxalq aləmdə indiki şərait qlobal borc böhranı kimi yox, qlobal borc modelinin formalaşması kimi dəyərləndirilir.

Bəs borc verən kimdir? Ekspertlərin fikrincə, bu sualın cavabı düşünüldüyündən daha mürəkkəbdir. Çünki ilk baxışdan elə görünür ki, borclu çox, borc verən isə azdır. Amma reallıq daha çətin və daha risklidir. Belə ki, dövlətlər bir-birinə borc verir, banklar dövlət istiqrazları alır, mərkəzi banklar pul çap edərək hökumət borcunu maliyyələşdirir. Başqa sözlə, borc getdikcə, necə deyərlər, öz-özünü bəsləyən qapalı sistemə çevrilir.

Burada ən təhlükəli məqam isə mövcud sistemin real iqtisadi dəyərdən çox, etibara və gözləntiyə əsaslanması ilə bağlıdır. Məsələn, ABŞ borc alır, çünki dünya dolların etibarlılığına inanır. Avropa borclanır, ona görə ki, investorlar hələlik risk görmür. Amma bu etibar sarsılarsa, borc karuseli eyni sürətlə dağılmağa başlaya bilər.

### Borc inkişaf etmiş ölkələrin maliyyə alətidir

BVF-nin hesabatında bildirilir ki, inkişaf etmiş ölkələrdə dövlət borcundan iqtisadi artımı dəstəkləmək üçün istifadə olunur. Başqa sözlə, borc bu ölkələr üçün yük yox, iqtisadi alət, hətta siyasi “silah” sayılır. Onlar borc hesabına texnologiya yaradır, sosial rifahı qoruyur, qlobal təsir imkanlarını genişləndirirlər. Lakin bu model “güclü institut, güclü valyuta” kimi prinsipə əsaslanır. Bu prinsip olmadıqda isə borc inkişafa yox, iflasa səbəb olur. Məhz buna görə də borc mexanizmi inkişaf etməkdə olan ölkələr üçün çox vaxt tələ rolunu oynayır.



Yeri gəlmişkən, bugünkü dünyada borc təkcə iqtisadi məsələ deyil, eyni zamanda, təsir vasitəsidir. Belə ki, kim maliyyəni nəzarətdə saxlayırsa, qərarvermə prosesinə də təsir edir. Beynəlxalq maliyyə institutlarının kredit şərtləri, reytinq agentliklərinin qiymətləndirmələri və faiz dərəcələri artıq ölkələrin daxili siyasətinə birbaşa təsir göstərir. Bu baxımdan qlobal borc artımı maliyyə müstəqilliyi anlayışını ciddi şəkildə sual altına alır.

Bəs inkişaf etmiş ölkələr niyə borcdan çəkinmir? BVF-nin hesabatında bu suala verilən cavab da diqqət çəkir. Sənəddə xüsusi vurğulanır ki, yüksək borc yükü əsasən inkişaf etmiş ölkələrin üzərində cəmləşib. Bunun əsas səbəbi ABŞ dolları, avro, yen kimi valyutalara qlobal etibarın yüksək olması ilə bağlıdır. Bu ölkələrdə borc nisbətən ucuz və uzunmüddətli cəlb edilir. İnfrastruktur, innovasiya, sosial proqramlar və böhran dövrlərində iqtisadi stimullar borc hesabına maliyyələşdirilir.

Eyni zamanda, investorlar bu dövlətlərin borcu qaytarmaq qabiliyyətinə inanırlar. Başqa sözlə, inkişaf etmiş ölkələr üçün borc problem deyil, idarə olunan iqtisadi alət kimi çıxış edir. Lakin qlobal borcun sürətlə artması da risksiz ötüşmür. Faiz dərəcələrinin yüksəlməsi, geosiyasi gərginliklər və iqtisadi tənəzzül ehtimalları borc yükünü daha da ağırlaşdırır. Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün xarici borcun bahalaşması maliyyə sabitliyinə ciddi təzyiq yaradır. Bu mənada borc artıq təkcə iqtisadi yox, həm də siyasi vasitəyə çevrilir.

Dövlət borcunun əsas kreditorları sırasında daxili investorlar – banklar, pensiya fondları, sığorta şirkətləri və vətəndaşlar xüsusi yer tutur. Bir çox ölkələrdə dövlət borcunun böyük hissəsi daxili istiqrazlar hesabına formalaşır. Yəni hökumət öz vətəndaşından borc alır. Xarici dövlətlər və suveren fondlar, xüsusilə Çin, Yaponiya, Körfəz ölkələrinin suveren sərvət fondları isə ABŞ və Avropa istiqrazlarının əsas alıcıları sayılır. Son illər monetar yumşalma siyasəti çərçivəsində mərkəzi banklar birbaşa dövlət istiqrazlarını alaraq borcun əsas maliyyə mənbəyinə çevriliblər. BVF, Dünya Bankı və regional inkişaf bankları əsasən inkişaf etməkdə olan ölkələrə borc verirlər. Beləliklə, borcun mənbəyi mücərrəd qurum deyil, eyni qlobal sistemin iştirakçılarıdır. Dövlətlər bir-birinə, banklar dövlətlərə, vətəndaşlar isə həm dövlətə, həm də maliyyə sektoruna borc verir.

### Borc, yoxsa təhlükə qalxanı?

Qlobal borc seli fonunda Azərbaycanın göstəriciləri prinsipial şəkildə fərqlənir. Ölkənin dövlət borcu 25,9 milyard dollar təşkil edir və ÜDM-in 19,5 faizinə bərabərdir. Bu, beynəlxalq miqyasda son dərəcə aşağı göstəricidir. Daha vacibi isə borcun böyük hissəsinin (67,2 faiz) daxili olmasıdır. Belə bir göstəriciyə nail olunması isə təsadüfi sayılmır. Çünki Azərbaycan borcu məqsəd deyil, vasitə kimi görür və onu sərt maliyyə çərçivəsində saxlayır. Enerji gəlirləri, strateji valyuta ehtiyatları və Dövlət Neft Fondunun (DNF) mövcudluğu ölkəyə borc asılılığından kənarda qalmaq imkanı verir. Bu, xüsusilə qeyri-sabit qlobal maliyyə şəraitində ciddi üstünlükdür.

Ekspertlər tərəfindən “borc üzərində qurulan dünya nə qədər davamlıdır” sualına verilən cavab da böyük maraq doğurur. Belə ki, borc iqtisadi inkişafı sürətləndirir, amma onu əvəz edə bilmir. Real sektor, məhsuldarlıq və texnoloji yenilik olmadan borc sadəcə vaxtı uzadır. Azərbaycanda qlobal borc karuselində iştirakçıya çevrilməmək mesajına xüsusi önəm verilir. Əsas diqqət borc amilindən iqtisadi səmərəlilik mexanizmi kimi yararlanmağa yönəldilir.

Azərbaycan üçün əsas dərs isə borcdan imtina yox, borcun ağıllı idarə olunması, onun real iqtisadi dəyər yaradan sahələrə yönəldilməsi və maliyyə intizamının qorunmasıdır. Qlobal borc dalğası fonunda məhz bu yanaşma ölkənin maliyyə təhlükəsizliyinin əsas təminatıdır. Bir sözlə, dünya borc içində boğulduğu halda, Azərbaycanda maliyyə intizamı artıq, sadəcə, iqtisadi seçim deyil, eyni zamanda, strateji təhlükəsizlik məsələsidir.

Beləliklə, müasir iqtisadiyyat borcsuz mövcud ola bilmir. Borc istehsalın, istehlakın və investisiyanın mühərrikidir. Problem borcun davamlı olması ilə deyil, onun necə və nə üçün istifadə edilməsi ilə müəyyənləşir. Qlobal borc karuseli göstərir ki, dünya iqtisadiyyatı qarşılıqlı asılılıq üzərində qurulub. Hamı borcludur, çünki hamı bir-birinə bağlıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Azərbaycan iqtisadiyyatının tam müstəqilliyi və maliyyə dayanıqlığı hazırkı mərhələdə ölkənin makroiqtisadi siyasətinin əsas sütunlarından biri kimi qiymətləndirilir. Rəsmi mövqeyə görə, respublikamız iqtisadi cəhətdən hər hansı xarici dəstəkdən, kreditdən və ya maliyyə asılılığından kənar fəaliyyət göstərir və mövcud vəziyyət qənaətbəxş hesab olunur.

Bir neçə il əvvəl hökumət qarşısında xarici borcun azaldılması ilə bağlı konkret vəzifə qoyulub və bu məqsəd artıq gerçəkləşdirilib. Xarici borclanma prosesi tamamilə dayandırılıb, beynəlxalq maliyyə təsisatları ilə səmərəli kredit münasibətləri gücləndirilib. Hazırda isə strateji əhəmiyyətli layihələrin maliyyələşdirilməsi məqsədilə məhdud həcmdə yeni borclanmaya başlanılması qarşıya əsas vəzifə kimi qoyulub.

Borclanmanın əsas istiqamətlərinin nəqliyyat infrastrukturu, su və kanalizasiya sistemləri, həmçinin regional və beynəlxalq bağlantı layihələri olacağı nəzərdə tutulub. Ümumilikdə, 2-4 milyard ABŞ dolları həcmində borc götürülməsi planlaşdırılıb.

Hazırda Azərbaycanın xarici borcu ÜDM-in, təxminən, 6,3-6,4 faizi səviyyəsindədir. Eyni zamanda, ölkənin strateji valyuta və qızıl ehtiyatları xarici borcu 16–17 dəfə üstələyir ki, bu da istənilən vaxt borcun tam ödənilməsinə imkan verən güclü maliyyə buferi deməkdir. Qızıl ehtiyatlarının artırılması ilə bağlı qəbul edilən strateji qərar nəticəsində Dövlət Neft Fondunun 10 milyard ABŞ dollarından artıq əlavə gəlir əldə etməsi də vurğulanan fikrin bariz ifadəsidir.

Bununla belə, qızılın dünya bazar qiymətlərində mümkün dalğalanmaları ehtiyatların nominal dəyərinə təsir göstərə bilər və bu səbəbdən ehtiyatların həcmi gündəlik dəyişir. Hazırda Azərbaycanın ümumi ehtiyatları, təxminən, 83-85 milyard ABŞ dolları civarında qiymətləndirilir və bu, adambaşına düşən ehtiyatlara görə dünya üzrə ən yüksək göstəricilər sırasındadır.

Böyük investisiya layihələri və Qarabağın bərpasına yönəldilən genişmiqyaslı vəsaitlər fonunda əldə olunan göstəricilər Azərbaycan iqtisadiyyatının yüksək dayanıqlığını nümayiş etdirir. Aparıcı beynəlxalq reytinq agentlikləri olan “Moody’s” və “Fitch” ölkəmizin kredit reytinqini yeniləyərək investisiya səviyyəsini təsdiqləyir və proqnozu sabitdən müsbətə yüksəldir.

Rəsmi mövqeyə görə, mövcud kredit reytinqi Azərbaycanın real maliyyə potensialını tam əks etdirmir. Böyük ehtiyatlar, aşağı xarici borc səviyyəsi və özünü təmin edən iqtisadi model ölkəyə daha yüksək kredit reytinqi gerçəkləşdirmək imkanı verir. Bu məqsədlə müvafiq dövlət qurumları reytinq agentlikləri ilə əməkdaşlığı genişləndirir. Kredit reytinqinin yüksəldilməsi təkcə ölkənin nüfuz məsələsi deyil, həm də gələcək borclanma zamanı daha əlverişli maliyyə şərtləri əldə etmək baxımından strateji əhəmiyyət daşıyır.

Qeyd edək ki, xarici borcun ÜDM-in 10 faizindən aşağı səviyyəyə endirilməsi hökumət qarşısında qoyulan əsas hədəflərdən biri idi və hazırda bu göstərici 6,3-6,4 faiz səviyyəsinə qədər azaldılıb ki, bu da maliyyə siyasətinin uğurlu nəticəsi kimi dəyərləndirilir.

**ABŞ-ın yeni Milli Müdafiə Strategiyası Vaşinqtonun qlobal roluna münasibətdə baş verən konseptual dönüşü açıq şəkildə ortaya qoyur. Yanvarın 23-də Müdafiə Nazirliyi tərəfindən açıqlanan sənəd ABŞ-ın son onilliklər ərzində formalaşdırdığı genişmiqyaslı qlobal hərbi iştirak modelindən mərhələli şəkildə uzaqlaşdığını göstərir. Yeni yanaşma resursların bütün dünyaya səpələnməsi əvəzinə, ABŞ üçün birbaşa və həyati əhəmiyyət daşıyan istiqamətlərdə cəmləşdirilməsini nəzərdə tutur. Pentaqon açıq şəkildə bəyan edir ki, Vaşinqton artıq “sonsuz müharibələr”, rejim dəyişikliyi və bahalı hərbi müdaxilələr xəttini prioritet hesab etmir. Əsas diqqət amerikalıların konkret və praktik milli maraqlarına yönəldilir.**

# Vaşinqton hərbi kursu dəyişir

## *“Bahalı müdaxilə”lərdən milli maraqlara*

Strategiyanın mərkəzində Qərb yarımkürəsi dayanır. Şimali və Cənubi Amerika ABŞ təhlükəsizliyinin əsas dayağı kimi təqdim olunur və Pentaqon faktiki olaraq etiraf edir ki, bu region uzun müddət xarici siyasət elitasının diqqətindən kənarda qalıb. Bunun nəticəsi kimi qeyri-qanuni miqrasiyanın artması, narkotik qaçaqmalçılığı və ABŞ-ın geosiyasi rəqiblərinin təsir imkanlarının genişlənməsi göstərilir. Arktikada Qrenlandiyadan Panama kanalına qədər uzanan geniş coğrafiyada rəqib aktorların fəallaşması Vaşinqton üçün təkcə regional deyil, strateji təhlükə kimi qiymətləndirilir. Çünki bu proseslər ABŞ-ın əsas logistik və kommunikasiya xətlərinə çıxışını risk altına salır və bütövlükdə yarımkürənin sabitliyini zəiflədir.



Bu təhlükələr fonunda ABŞ-ın prioritetləri aydın şəkildə sadalanır: cənub sərhədinin möhkəmləndirilməsi, narkoterrorizmlə mübarizə, Panama kanalı kimi kritik nöqtələrə nəzarətin saxlanılması, “Qızıl Qübbə” raketdən müdafiə sisteminin yaradılması, nüvə və raket potensialının modernləşdirilməsi, həmçinin kibertəhlükəsizlik və terrorizmlə mübarizə. Bütün bunlar Vaşinqtonun əvvəlki qlobal ekspedisiyalar əvəzinə, “evin təhlükəsizliyinə” fokuslandığını göstərir.

Çin yeni strategiyada ABŞ-dan sonra dünyanın ikinci ən güclü dövləti kimi tanınır və bu fakt Hind–Sakit okean regionunu Vaşinqton üçün əsas strateji meydanlardan birinə çevirir. Pentaqonun məntiqinə görə, bu regionda Çinin və ya başqa bir gücün dominant mövqe qazanması ABŞ-ın iqtisadi maraqlarına və sənaye dirçəlişi planlarına ciddi zərbə vura bilər. Bununla belə, sənəddə açıq qarşıdurma ritorikasından qaçılır. ABŞ-ın Çini “alçaltmaq, boğmaq və ya təcrid etmək” niyyətində olmadığı xüsusi vurğulanır və strateji sabitliyin qorunması üçün dialoqa açıq olunduğu bildirilir. Diqqətçəkən məqam Tayvan mövzusunun, ümumiyyətlə, qeyd edilməməsidir ki, bu da Tramp administrasiyasının Çinlə münasibətlərdə hərbi eskalasiyadan yayınmaq istədiyinə dair mühüm siyasi siqnal kimi dəyərləndirilir.

Rusiya isə sənəddə Şərqi Avropadakı NATO üzvləri üçün “davamlı, lakin idarə olunan təhlükə” kimi təsvir olunur. Pentaqon Moskvanın hələ də əhəmiyyətli hərbi və sənaye potensialına, eləcə də dünyanın ən böyük nüvə arsenalına sahib olduğunu qəbul edir. ABŞ Silahlı Qüvvələrinin Rusiya tərəfindən yarana biləcək təhdidlərə qarşı ölkə ərazisini müdafiə etməyə hazır olacağı vurğulanır, lakin, eyni zamanda, NATO çərçivəsində Avropa istiqamətində məsuliyyətin tədricən müttəfiqlərin üzərinə ötürülməsi niyyəti açıq şəkildə ifadə olunur. Vaşinqtonun mövqeyinə görə, Avropa NATO ölkələri iqtisadi, hərbi və demoqrafik baxımdan Rusiyanı üstələyir və regionun təhlükəsizliyi üçün əsas yükü öz üzərlərinə götürə bilərlər, ABŞ isə bu prosesdə “vacib, lakin məhdud” rol oynayacaq.

Ukraynadakı müharibə ilə bağlı yanaşma da bu məntiqin davamıdır. Sənəd Avropanın əsas məsuliyyəti daşımalı olduğunu bir daha vurğulayır. ABŞ dəstəyi davam etdirəcək, lakin bu dəstək həlledici deyil, tamamlayıcı xarakter daşıyacaq. Donald Trampın mövqeyinə istinad etməklə münaqişənin bitməsinin vacibliyi qeyd olunur, lakin bunun əsas yükünün Avropanın üzərində olduğu açıq mesaj kimi təqdim edilir.

Ümumilikdə, yeni Milli Müdafiə Strategiyası ABŞ-ın qlobal liderlikdən imtina etmədiyini, lakin bu liderliyi artıq daha seçici, daha sərt və daha praqmatik şəkildə həyata keçirmək istədiyini göstərir. Vaşinqton müttəfiqlərdən daha çox məsuliyyət tələb edir, öz hərbi üstünlüyünü isə müdafiə sənayesinin yenidən qurulması, innovasiyaların təşviqi və faktiki olaraq “milli səfərbərlik” səviyyəsində resursların cəmlənməsi ilə qorumağı planlaşdırır. Bu sənəd ABŞ-ın “soyuq müharibə”dən sonra qurduğu qlobal təhlükəsizlik modelinin tədricən bağlandığını və beynəlxalq sistemin daha sərt, rəqabətli və az proqnozlaşdırılan yeni geosiyasi mərhələyə keçdiyini nümayiş etdirir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Fransanın Azərbaycan neftinə tələbatı artıb

**2025-ci ildə Azərbaycandan Fransaya 143,1 milyon ABŞ dolları dəyərində xam neft və neft məhsulları ixrac olunub.**

Bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 54,8 milyon ABŞ dolları və ya 1,6 dəfə, həcm baxımından isə 128,5 min ton və ya 1,8 dəfə çoxdur.

Ötən dövrdə Fransa Azərbaycandan ən çox neft ixrac edən ölkələr arasında 12-ci olub.

2025-ci ildə Azərbaycandan dünyanın 21 ölkəsinə bitumlu süxurlardan əldə edilən xam neft və neft məhsulları üzrə 23,4 milyon ton həcmində məhsul ixrac olunub. İxracın ümumi dəyəri 12,1 milyard ABŞ dolları təşkil edib.

Bildirilib ki, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə dəyər ifadəsində göstərici 2,4 milyard ABŞ dolları və ya 16,2 faiz azalıb, lakin fiziki həcm baxımından 215 min ton və ya 0,9 faiz artım qeydə alınıb. Qeyd olunan məhsulların ixracı 2025-ci ildə ölkənin ümumi ixrac həcminin 48,28 faizini təşkil edib.



***XQ***

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 15 (30984) 27 yanvar 2026-cı il, çərşənbə axşamı


## İDMAN

### "Liverpul" və "Qarabağ" görüşünü kim idarə edəcək?



**İngiltərədə "Liverpul" və "Qarabağ" komandaları arasında keçiriləcək UEFA Çempionlar Liqasının əsas mərhələsinin VIII turunun oyununun baş hakimi açıqlanıb. Matçı slovakiyalı FIFA referisi İvan Krujlyak idarə edəcək.**

Onun köməkçiləri həmyerliləri Branislav Hantsko ilə Yan Pozor olacaqlar. Dördüncü hakim funksiyasını Peter Kraloviç yerinə yetirəcək.

VAR-da niderlandlı Pol van Boekel, AVAR-da Yan Boterberq əyləşəcəklər.

Xatırladaq ki, "Liverpul" – "Qarabağ" oyunu yanvarın 28-dən 29-na keçən gecə baş tutacaq. Matç Bakı vaxtı ilə saat 00:00-da start götürəcək. Bu oyuna qədər İngiltərə təsilçisi 7 oyundan 15 xalla turnir cədvəlində 4-cü sırada, Ağdam klubu isə 10 xalla 18-ci sırada yer alıb.

### "Sabah" liderliyini möhkəmləndirib



**Misli Premyer Liqasının XVII tura yekun vurulub. Turun son oyununda "Sabah" öz meydanında "Karvan-Yevlax"la qarşılaşıb.**

Gərgin və maraqlı keçən görüş meydan sahiblərinin böyük hesablı qələbəsi ilə başa çatıb – 4:1.

Bu nəticədən sonra xallarını 40-a çatdıran "Sabah" liderliyini daha da möhkəmləndirib. Yevlax klubu isə 6 xalla sonuncu – 12-ci yerdə qərarlaşıb.

"Turan Tovuz" Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yerli komanda ilə qarşılaşıb. Görüş tovuzluların 2:1 hesablı qələbəsi ilə başa çatıb. Qolları tovuzluların heyətində 13-cü dəqiqədə Hayderson Hurtado və 69-cu dəqiqədə Rəhim Sadıxov (69) vurublar. "Sumqayıt"ın qolu isə Hayderson Hurtadonun passivinə yazılıb. O, 61-ci dəqiqədə avtoqol müəllifi olub.

"Turan Tovuz" 30 xalla üçüncü sıraya yüksəlib. "Sumqayıt" isə 27 xalla beşinci pillədə qalıb.

Qeyd edək ki, turun daha əvvəl baş tutan görüşlərində "İmişli" "Araz-Naxçıvan"la (2:2), "Neftçi" isə "Zirə" (0:0) ilə heç-heçə edib. "Qəbələ" "Şamaxı"nı (4:0), "Kəpəz" "Qarabağ"ı (2:0) hesabı ilə məğlub edib.

### Həndbolçuların ölkə çempionatında IV turu



**Həndbol üzrə Azərbaycan çempionatında IV turun oyunları keçirilib.**

Bu barədə Azərbaycan Həndbol Federasiyasından məlumat verilib.

Qadınların mübarizəsində "Qarabağ" "İdman Akademiyası"na (27:26) minimal fərqlə qalib gəlib. "Kür" "Azəryol"u (31:26), "Təhsil" isə "Bakı"nı (25:21) məğlub edib.

Kişilərin yarışında "Azəryol" və "Təhsil" qarşılaşması heç-heçə başa çatıb – 20:20. "Kür" səfərdə "Dinamo"nu (52:41), "Qarabağ" isə "Bakı"nı (25:23) üstələyib.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Yeni nəşrlər*

# "Gənclər, sizə deyiləsi sözüm var"

**"Məşhur bayatıda deyildiyi kimi, "Dünya bir pəncərədir, Hər gələn baxar, gedər". Bineyi-qədimdən o pəncərədən baxıb gedən nəsil-nəsil insanlar fani dedikləri dünyada iz qoymağa can atıb, özündən sonra gələn nəsillərə kömək etmək, yolların ən doğrusunu onlara göstərmək ümidi, arzusuyla yaşayıb. Bu, insanların əbədi karvan yolunda ən müqəddəs bir hissi, ehtirama layiq ən yüksək səviyyəli bir duyğusu, bütünlükdə bəşəriyyətə layiqli xidmət nümunəsidir..."**







Yazıçı-publisist, Əməkdar jurnalist Sadıq Elcanlının bu fikirləri Şabranın qocaman ziyalısı, şair-publisist, onillər boyu söz işığında yaşayan, öz sənətiylə yanaşı, jurnalistika ilə də məşğul olan Zakir Bayramlının "Gənclər, sizə deyiləsi sözüm var" adlı kitabına yazdığı ön sözdən götürülüb.

Z.Bayramlının yeni işıq üzü görən bu kitabı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin layihəsi üzrə "525-ci qəzet"də dərc olunmuş məqalələri əsasında tərtib edilib. Əsər Azərbaycan gənclərinin Vətənə, torpağa və xalqa tükənməz məhəbbətinə, orduya və ailəyə sadiq olmasına, sədaqətli və etibarlı övlad kimi yetişməsinə, onların müstəqil dövlətçiliyimizə, dövlət rəmzlərinə və qanunlarımıza hörmət və sevgi hissi ilə yanaşılmasına həsr olunub.

Qocaman qələm sahibinin kitabdakı yazıları bir istək, arzu, bütövlükdə, bu günün gəncliyinə, Vətən, Xalq, Azərbaycan naminə əsl həqiqətləri demək ehtiyacı birləşdirir. Uzun müddət rayon təhsil sistemində çalışan, düzlüyü, halallığı, vətənpərvərliyi ilə seçilən Zakir müəllim məqalələrində daha çox təhsil və tərbiyə məsələlərinə, bu problemlərin tarixi və müasir elmi-nəzəri təhlil və dərkinə həsr olunub.

Yeri gəldikcə Şərqin və Qərbin böyük filosoflarının əsərlərinə, "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm sənət abidəmizə, Konfutsi kimi dahilərin söz xəzinəsinə, xüsusilə, Ümummilli liderimiz Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali həqiqətlərə qapı açan müdrik fikirlərinə müraciət olunur. Azərbaycan ailə-məktəb mühitinin uğurları, eləcə də problem və perspektivləri ciddi analitik, elmi-publisistik təhlilə cəlb edilir.

Təhlillərdə, elmi-praktik qiymətləndirmələrdə analitik xırdalıqlar, sintetik bütövlük paralel aparılır, biri digərini tamamlayır və nəticədə qoyulan problem elmi-nəzəri, praktik-publisistik həllini tapır. Bəzən müəllif öz poetik örnəklərindən də istifadə edir, beləliklə, problemə poeziya işığında baxmaqdan da çəkinmir.

"Uğurlu gələcəyin təməli: gəncliyi həyata düzgün hazırlamaq", "Yeni nəslin tərbiyəsi: ailənin və məktəbin təsiri vəhdətdə", "Müəllim nüfuzu: təlim-tərbiyədə müstəsna amil", "Gənclik və ana dilimiz: Azərbaycançılıq üçün çox vacib amil" və bir çox başqa yazılarında Zakir Bayramlının öz xalqına, millətinin gələcəyi olacaq gəncliyə doğruları, həqiqətləri demək istəyən, bu arzu və ümidlə, bu inam və inadla yola çıxan qələm sahibinin səsini eşidirsən. Ümid edirik ki, müasir Azərbaycan gəncliyi də bu kitabı oxuyacaq və onu doğru yola istiqamətləndirəcək o səsi eşidəcək.

***R.İLQAR***
***XQ***

*Sağlamlıq*

# Təmizlik yoluxmalara sipərdir

**Gigiyena insan sağlamlığının təməl sütunlarından biridir. Xüsusilə mətbəx kimi qida ilə birbaşa təmasda olan məkanlarda təmizliyə diqqət yalnız səliqə-sahman deyil, həm də sağlam həyat tərzinin əsas şərtidir. Lakin paradoks ondadır ki, təmizliyin simvolu sayılan bəzi məişət əşyaları, düzgün istifadə olunmadıqda, əksinə, mikrob və bakteriyaların məskəninə çevrilə bilir. Bu baxımdan mətbəx süngəri ən riskli vasitələrdən biri hesab olunur.**

Əksər ev təsərrüfatlarında süngər həftələrlə, bəzən aylarla dəyişdirilmədən istifadə olunur. Halbuki süngərin məsaməli quruluşu onun tam təmizlənməsini çətinləşdirir. Üzəri nə qədər yuyulsa da, daxili qatlarda mikroblar yaşamaqda davam edir. Üstəlik, süngərin tez-tez nəm halda saxlanması bu prosesi daha da sürətləndirir. Beləliklə, qab yuyarkən təmizlik yaratdığımızı zənn etdiyimiz halda, əslində, çirklənməni artırmış oluruq.

Mütəxəssislərin fikrincə, mətbəx süngəri gündəlik istifadə zamanı rütubət, qida qalıqları və isti mühitin birləşməsi nəticəsində bakteriyalar üçün ideal şərait yaradır. Araşdırmalar zamanı alimlər mətbəx süngərlərində bağırsaq qrupu bakteriyaları, kif və maya göbələkləri aşkar ediblər. Onların bir hissəsi qida zəhərlənmələri və infeksiyalarla əlaqələndirilir. Daha narahatedici məqam isə bəzi bakteriyaların bir neçə antibiotikə davamlı olmasıdır. Bu isə o deməkdir ki, adi bir mətbəx əşyası potensial olaraq ciddi sağlamlıq problemlərinə yol aça bilər.

Gigiyenik baxımdan problem təkcə bakteriyaların sayı ilə məhdudlaşmır. Köhnə süngərlər xoşagəlməz qoxu yayır, səthləri effektiv təmizləmir və mətbəx mühitində ümumi sanitar vəziyyətin pisləşməsinə gətirib çıxarır. Bu isə xüsusilə uşaqların, yaşlıların və immun sistemi zəif olan şəxslərin sağlamlığı üçün əlavə risk deməkdir.

Süngərdən istifadə etdikcə onun materialı tədricən aşınır və gözlə görünməyən mikroplastik hissəciklər ayrılır. Qab yuma zamanı bu hissəciklər su ilə birlikdə kanalizasiyaya axır, oradan isə çaylara, dənizlərə və ümumilikdə ekosistemə qarışır. Mütəxəssislərin hesablamalarına görə, bəzi süngər növləri hər qram material üzrə milyonlarla mikoplastik lif buraxa bilər. Dünyada milyardlarla insanın gündəlik olaraq süngərdən istifadə etdiyini nəzərə alsaq, problemin miqyası daha aydın görünür.

Eyni zamanda, sintetik süngərlərin ucuz olması və hər yerdə satılması onların kütləvi şəkildə istifadəsini təşviq edir. Lakin bu rahatlıq ekoloji baxımdan baha başa gəlir. İstifadə müddəti bitdikdən sonra süngərlər zibilxanalara atılır və orada da parçalanaraq mikoplastik yaymaqda davam edir. Beləliklə, bir süngər ətraf mühiti iki dəfə çirkləndirir: əvvəl mətbəxdə, sonra isə zibilxanada.

Məsələnin həlli isə olduqca sadə, lakin intizam tələb edən vərdişlərdən keçir. Mütəxəssislər xəbərdarlıq edir ki, sintetik süngərləri 15–20 gündən artıq istifadə etmək düzgün deyil. Buna



baxmayaraq, əksər insanlar süngərin xarici görünüşünə aldanır və onu aylarla dəyişmir. Bu isə həm sağlamlıq, həm də gigiyena baxımından ciddi təhlükə yaradır.

Bu baxımdan alternativ olaraq, birdəfəlik salfetlərdən, fırçalardan və ya tez quruyan silikon yuyucu vasitələrdən istifadə etmək daha gigiyenik hesab olunur. Ən əsası isə mətbəx təmizliyinə yanaşmada şüurlu və məsuliyyətli olmaqdır. Kiçik görünən bir süngərin böyük sağlamlıq problemlərinə yol aça biləcəyini unutmaq olmaz. Çünki bəzən ən səssiz təhlükələr məhz gündəlik vərdişlərimizin içində gizlənir.

Gigiyenik təmizlik isə yalnız görünən çirki aradan qaldırmaq deyil, həm də görünməyən təhlükələrdən qorunmaq deməkdir. Unutmayaq: təmizlik vərdişlərimiz nə qədər düzgün olarsa, sağlamlığımız da bir o qədər güvənli olar.

***Nurəngiz ADİLQIZI***
***XQ***

## AMEA Naxçıvan Bölməsinin nəşriyyatı müasirləşdirilib



**AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında müasir mətbəə avadanlığı istifadəyə verilib. Yeni texnologiyanın təqdimatında AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev iştirak ediblər.**

Mərasimdə akademik İsmayıl Hacıyev bildirib ki, AMEA Naxçıvan Bölməsi ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 7 avqust 2002-ci ildə yaradılıb və 2003-cü ilin yanvar ayından fəaliyyətə başlayıb. O, Ulu öndərin bölmənin yaradılmasına həsr olunmuş müşavirədə qarşıya qoyduğu vəzifələrin sonrakı dövrdə Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı nəticəsində uğurla gerçəkləşdirildiyini vurğulayıb.

Bildirilib ki, "Tusi" nəşriyyatı 2005-ci ildən fəaliyyət göstərir və bölmənin ilk nəşri olan "Elmi əsərlər" jurnalı burada buraxılır. Qurumun sonrakı jurnal və kitabları, hesabatları, biblioqrafik göstəriciləri və digər nəşrləri "Tusi" nəşriyyatında işıq üzü görüb. Yeni avadanlıq nəşriyyatın maddi-texniki bazasını müasir avadanlıqla gücləndirir və çap imkanlarını genişləndirir.

AMEA-nın prezidenti İsa Həbibbəyli nəşriyyatda ən son texnologiyalar əsasında kolioqrafiya bazasının yenidən qurulması münasibətilə bölmə kollektivini və naşirləri təbrik edib. O, Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyində və bu ilin əvvəlində yerli televiziya kanallarına verdiyi müsahibədə Azərbaycan elminin ölkənin ümumi tərəqqisinə töhfəsini artırmaqla bağlı qarşıya qoyduğu vəzifələrin önəmini qeyd edib. AMEA rəhbəri Naxçıvan Bölməsinin böyük elmi potensialı olduğunu, elmi nəşrlərin sayına görə ön sıralarda yer aldığını xatırladıb, hər iki kollektivə yeni uğurlar arzulayıb.

"Tusi" nəşriyyatının əməkdaşı Qafar Qənbərov, bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev yeni avadanlığın Naxçıvanda elmin inkişafına növbəti qayğı olduğunu bildirərək minnətdarlıqlarını ifadə ediblər.

***Səbuhi HƏSƏNOV***
***XQ***

## HAVA

# Bakıda çiskin, rayonlarda yağış və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 2-4, gündüz 4-6 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək – 769 millimetr civə sütunu, nisbi rütubət isə 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Lənkəran-Astara zonasında yağıntıların intensiv olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi dağlıq və dağətəyi rayonlarda arabir güclənəcək.

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 6-11 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimal olunur.

***Q.ƏLİYEV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Xalq qəzeti"nin kollektivi "Yeni Musavat" qəzetinin təsisçisi Rauf Arifoğluna qaynı

**NİZAMİ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***✓ 1993-cü il yanvarın 11-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Əmrahov Vidadi İmran oğlunun adına verilmiş ИТ-1 nömrəli, 1142525 nömrəli əmək kitabçası itdiyi üçün etibarsız sayılır.***


**DİREKTOR – BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 2910**
**SİFARİŞ 152**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Səbuhi MƏMMƏDOV**
**Çapa imzalanmışdır 00:00**